AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

# SCIENTIFIC WORK

International Scientific Journal

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**

**Cild: 19 Sayı: 9**

# SCIENTIFIC WORK

**International Scientific Journal**

**Volume: 19 Issue: 9**

**2025**

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Redaktor**

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
https://orcid.org/0000-0002-5135-1666
huseynova.mahira@yandex.ru

**Redaktor köməkçiləri**

**Doktorant Nərgiz SƏLİMOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-5499-7035
salimovanargiz.adu@gmail.com

**Tədqiqatçı Elza AŞIROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
https://orcid.org/0009-0003-3572-2361
elzaasurova55@gmail.com

**Magistrant Akif HƏŞİMOV**, Nikolay Kopernikus Universiteti / Polşa
https://orcid.org/0009-0007-2485-2629
akifhesimov4@gmail.com

**Magistrant Elza İSGƏNDƏRLİ**, Ağdaş Dövlət Humanitar Kolleci / Azərbaycan
https://orcid.org/0009-0009-1177-331X
isgenderlielza@yahoo.com

**Dillər üzrə redaktorlar**
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ALIYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan

**Elm sahələri üzrə redaktorlar**

**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc VƏLİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Ph.D. Əzizə HÜSEYNOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**REDAKSİYA HEYƏTİ**

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Aktolkın KULSARIYEVA**, Abay adına Qazax Milli Pedaqoji Universiteti / Qazaxıstan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Bilal GÖKKIR,** İstanbul Universiteti / Türkiyə
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Universiteti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Kairbek ARISTANBEKOV**, İqtisadi Siyasət İnstitutu / Qazaxıstan
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N. Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Bisserka VELEVA**, Müqəddəs Kliment Oxridskiy adına Sofiya Universiteti / Bolqarıstan
**Assoc. Prof. Dr. Sevda AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Valentin PETRUŞENKO**, Paisiy Xilendarskiy adına Plovdiv Universiteti / Bolqarıstan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Əbülfət PƏLƏNGOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavid İSMAYILOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Dr. Müjkan MƏMMƏDZADƏ**, Azərbaycan İdman Akademiyası / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə

**TƏBİƏT ELMLƏRİ**

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Məsud AŞİNA**, Kopenhagen Universiteti / Danimarka
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Mətanət ƏFƏNDİYEVA**, Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. Şahanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ

**Assoc. Prof. Dr. Büşra BİLAL**, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Asif MANAFOV**, ARETN Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Erdəyliem TÖLEQENOV**, Qızlar Universiteti / Qazaxıstan

## RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Məsud ƏFƏNDİYEV**, "Helmholtz" Elmi-Tədqiqat Mərkəzi / Almaniya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Andrei VOLODİN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ**, AMEA Şəki Regional Elmi Mərkəzi / Azərbaycan
**Assoc. Prof. Dr. Oruc HÜSEYNOV**, Gəncə Dövlət Universiteti /Azərbaycan
**Dr. Billurə HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## TEXNİKA ELMLƏRİ

**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin CAVADOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Editor**

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
https://orcid.org/0009-0003-2312-0507
huseynova.mahira@yandex.ru

**Assistant editors**

**Doktorant Nargiz SALIMOVA**, Azerbaijan University of Languages / Azerbaijan
https://orcid.org/0000-0001-5499-7035
salimovanargiz.adu@gmail.com

**Master student Elza ISKANDARLI**, Aghdash State Humanitarian College / Azerbaijan
https://orcid.org/0009-0009-1177-331X
isgenderlielza@yahoo.com

**Master student Akif HASHIMOV**, Nicolaus Copernicus University / Poland
https://orcid.org/0009-0007-2485-2629
akifhesimov4@gmail.com


**Master student Elza ISKANDARLI**, Aghdash State Humanitarian College / Azerbaijan
https://orcid.org/0009-0009-1177-331X
isgenderlielza@yahoo.com


**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Afag ISMAYILOVA,** Baku State University / Azerbaijan

**Editors in scientific fields**

**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj VALIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature named after Nizami Ganjavi / Azerbaijan
**Assoc. Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Ph.D. Aziza HUSEYNOVA**, Nakhchivan State University / Azerbaijan

**EDITORIAL BOARD**

**HUMANITIES AND SOCIAL SCIENCES**

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Aktolkyn KULSARIYEVA**, Kazakh National Pedagogical University / Kazakhstan
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Bilal GOKKIR**, **Istanbul** University / Turkey
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland

**Prof. Dr. Karim SHUKUROV**, ANAS Institute of History and Ethnology named after A. A. Bakikhanov / Azerbaijan
**Prof. Dr. Kairbek ARISTANBEKOV**, Institute of Economic Policy / Kazakhstan
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Svetlana KOJIROVA**, L. N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering **/**Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Nakhchivan Teacher Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Bisserka VELEVA**, Sofia University "St. Kliment Orhidski" / Bulgaria
**Assoc. Prof. Dr. Sevda AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Valentin PETROUSSENKO**, Plovdiv University "Paisii Hilendarski" / Bulgaria
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Abulfat PALANGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Javid ISMAYILOV**, Nakhchivan State University / Azerbaijan
**Dr. Agshin ALIYEV**, Beijing Foreign Studies University / The Republic of Chine
**Dr. Müjkan MAMMADZADA**, Azerbaijan Sport Academy / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

**NATURAL SCIENCES**

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Masud ASHINA**, University of Copenhagen / Denmark
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I. M. Sechenov / Russia
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Matanat AFANDIYEVA**, National Institute of Sports Medicine and Rehabilitation / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANI**, University of Texas at Tayler / USA
**Assoc. Prof. Dr. Busra BILAL**, Ali Jinnah University / The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Asif MANAFOV**, MSERA Institute of Zoology / Azerbaijan
**Dr. Erdeyliem TOLEGENOV**, Girls' University / Kazakhstan

**MATHEMATICS AND MECHANICAL SCIENCES**

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Masud AFANDIYEV**, "Helmholtz" Scientific Research Center / Germany
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Kanada
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan

**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Yusif SHUKURLU**, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Oruj HUSEYNOV**, Ganja State University / Azerbaijan
**Dr. Billura HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

**TECHNICAL SCIENCES**

**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin JAVADOV**, Ganja State University / Azerbaijan

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**HUMANITIES AND SOCIAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2663-4619/121/9-16

**Aytən Əliyeva**
AMEA Mərkəzi Elmi Kitabxana
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-0028-6082
dissertant1@gmail.com

# Cəlil Məmmədquluzadə yaradıcılığında milli-mənəvi oyanışın təzahürləri

## Xülasə

Tənqidi-realistik satirik ədəbiyyatın yaradıcısı, böyük yazıçı, dramaturq, jurnalist və ictimai xadim Cəlil Məmmədquluzadə zəngin yaradıcılığı ilə həyatın və cəmiyyətin dərin qatlarını realist boyalarla açıb göstərmişdir. Ədibin yaratdığı *Molla Nəsrəddin* məcmuəsi, 1905-ci il inqilabından sonra Azərbaycanda xalq azadlıq hərəkatının məna və ruhunu doğru ifadə edən ən nüfuzlu mətbuat orqanı kimi tanınmışdır. Yazıçının *Ölülər* komediyasında milli-mənəvi oyanışa və ictimai-mədəni tərəqqiyə üstünlük verilirdi. Azərbaycançılıq ideyasını özündə ehtiva edən *Anamın kitabı* adlı möhtəşəm əsərində isə xalqı milli birliyə, soykökə və zəngin dilimizi qorumağa səsləyən qiymətli bir xəzinə kimi, qaranlıq dünya üzərindəki mənəvi qalibiyyətləri ilə dövrün tələb etdiyi mütərəqqi ictimai fikir uğrunda apardığı mübarizə ilə təsvir olunmuşdur.

"Qurbanəli bəy" hekayəsində isə Qurbanəli bəy Qapazlı kəndinin mülkədarı və ağası olaraq haqsızlığın tərənnümçüsüdür. "Xanın təsbehi" hekayəsində isə İslam aləmində müqəddəs əşya sayılan təsbeh vasitəsilə, yəni din adı altında edilən bir çox özbaşınalıqlar təsvir olunmuşdur. "Dəllək" hekayəsində savadsızlığın hansı bəlalara səbəb ola biləcəyi açıq şəkildə göstərilmiş, "Taxıl həkimi" hekayəsində isə ziyalının ziyalı adına xələl gətirən hərəkəti tənqid olunmuşdur. "Saqqallı uşaq" hekayəsində sərlövhə, cəmiyyətin mənən şikəst etdiyi, avam və savadsız hala saldığı yaşlı kişi – Kəblə Əzim, saqqallı uşaq simvolik adı ilə ifadə olunmuşdur. Bundan əlavə, Mirzə Cəlilin *Molla Nəsrəddin*, "Hop-hop", "Lağlağı", "Dəli", "Cızvızçı", "Hərdəmxəyal", "Yuxusuz Molla əmi" imzaları ilə qələmini sınadığı haqqında da məlumat verilmişdir.

***Açar sözlər:*** *rənqidi-realizm, Molla Nəsrəddin, Ölülər, Anamın kitabı, Dəli yığıncağı, hekayələr*

**Aytan Aliyeva**
Central Scientific Library of ANAS
PhD in Philology
https://orcid.org/0009-0005-0028-6082
dissertant1@gmail.com

# Manifestations of National-Spiritual Awakening in the Creativity of Jalil Mammadguluzadeh

## Abstract

The founder of critical realistic satirical literature, the prominent writer, playwright, journalist, public figure Jalil Mammadguluzadeh revealed the deep layers of life and society with realistic colors with his rich creativity. After the 1905 revolution, the "Molla Nasraddin" satirical periodichal founded by the writer was recognized as the most influential press agency that accurately expressed the essence and spirit of the people's liberation movement in Azerbaijan. The main priority in the writer's comedy "Olular" (The Dead), was the national-spiritual awakening, social-cultural progress. In his magnificent work called "Anamin kitabı" (The Book of My Mother), which contains the idea of

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

Azerbaijanism, he described the people as a precious treasure calling for national unity, the protection of our lineage and rich language, with its moral triumphs over the dark world and its struggle for the progressive public opinion required by the times. Gurbanali Bey is a glorifier of injustice as the landlord of Gapazli village in the story of “Gurbanali Bey”. Many arbitrariness is described through the prayer beads, which is considered a holy object in the Islamic world, in the name of religion in the story “Khanin tesbehi” (Khan's Preayer Beads). In the story “Dellak” (Barber), he revealed the problems that illiteracy can cause, and in the story “Takhil hekimi” (Doctor for Grain), the action of an intellectual that undermines the name of an intellectual was criticized. In the story “Saggallı ushag” (The Bearded Boy), the title is expressed by the symbolic name of “the bearded boy” - Kabla Azim (Kabla Azimler), an old man whom the society crippled and made illiterate. In addition, it was also noted that Mirza Jalil tried his pen with the signatures “Molla Nasreddin”, “Hop-hop”, “Laglagı” (Chatterer), “Dali” (Mad), “Jizvizchi”, “Hardamkhayal” (Light-minded), “Yukhusuz Molla ami” (Sleepless Uncle Molla).

***Keywords:*** *critical-realism, Molla Nasraddin, “Olular”, “Anamin kitabı”, “Dali yighinjaghi”, stories*

## Giriş

“Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o bizim müasirimizdir, o, bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır. Əsrimizin əvvəlində fəaliyyətə başlayan Cəlil Məmmədquluzadə bu gün, əsrimizin sonunda bizim üçün mənəviyyat mənbəyidir, mənəvi dayaqdır”

***(Heydər Əliyev).***

Tənqidi-realistik satirik ədəbiyyatın yaradıcısı, böyük yazıçı, dramaturq, jurnalist və ictimai xadim Məmmədquluzadə Cəlil Məmmədqulu oğlu (ədəbi təxəllüsü Molla Nəsrəddin; 22.02.1869, Naxçıvan şəhəri – 04.01.1932) zəngin yaradıcılığı ilə həyatın və cəmiyyətin dərin qatlarını realist boyalarla açıb göstərərək Azərbaycan ədəbiyyatını tənqidi realizm səviyyəsinə qaldırmışdır.

Realizm üslubunun forma və məzmun xüsusiyyətlərini müəyyən etmək üçün Mirzə Cəlilin əsərləri əvəzsiz və tükənməz mənbədir. *Çay dəstgahı* (1899) alleqorik mənzum dramı onun ilk əsərlərindən biridir. Bu əsərdə o, alleqorik vasitələrlə mənsub olduğu xalqın milli oyanışına xidmət etmişdir.

Mənalı həyatını doğma xalqının, bütün zəhmətkeşlərinin azadlığı və səadəti yolunda mübarizəyə həsr edən, ədəbiyyat və mədəniyyət xəzinəmizi əvəzsiz incilərlə zənginləşdirən böyük ədibimizin ölməz əsərləri artıq çoxdan oxucuların qəlbini fəth etmişdir. Onun yaradıcılığı uzun əsrlər boyu milyonların zəkasının daha da yüksəlməsinə və parlamasına xidmət edəcəkdir.

**Tədqiqat**

Mirzə Cəlil 1903-cü ildən Tiflisdə nəşr edilən *Şərqi-Rus* qəzeti redaksiyasında işləmişdir. Yazıçı və jurnalist kimi püxtələşməsində *Şərqi-Rus* qəzeti və onun redaktoru M.A.Şahtaxtlının mühüm rolu olmuşdur. “Poçt qutusu” adlı ilk mətbu əsəri, “Kişmiş oyunu”, L.N.Tolstoydan tərcümə etdiyi “Zəhmət, ölüm və naxoşluq” hekayələri ilk dəfə bu qəzetdə dərc edilmişdir.

Cəlil Məmmədquluzadənin yaratdığı *Molla Nəsrəddin* məcmuəsi 1905-ci il inqilabından sonra Azərbaycanda xalq azadlıq hərəkatının məna və ruhunu doğru ifadə edən ən nüfuzlu mətbuat orqanı kimi tanınmışdır. Bu məcmuədə inqilab düşmənlərinə, mütləqiyyətə, irticaçılara qarşı ən kəskin satiralar, həcvlər, taziyanələr yazılırdı. 1906–1911-ci illərdə *Molla Nəsrəddin* İran şahı Məhəmmədəli şahın taxtdan salınması və qovulması, məşrutə mücahidlərinin inqilabi fəaliyyəti ruhunda olduqca kəskin və təsirli yazılar dərc edirdi. İstər Azərbaycanda, istərsə də İran və Türkiyə ölkələrində istismarçılara qarşı aparılan şərəfli mübarizələrdə *Molla Nəsrəddin* elə mütərəqqi bir iş görmüşdür ki, onu inqilab hərəkatı tarixi heç bir zaman unutmayacaqdır.

Xalqa arxalanan və "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" xitabı ilə işə başlayan *Molla Nəsrəddin* məcmuəsi oxucular arasında müstəsna şöhrət qazanmış, ildırım sürəti ilə yalnız Azərbaycana, Qafqaza deyil, bütün Yaxın Şərqə yayılmışdı. İlk nömrəsində məcmuə intibah zərurətini "şirin yuxuda yatan millətin təsviri" ilə vermişdir (Mir Cəlal & Hüseynov, 1982, p. 81).

İlk nömrəsi 1906-cı il aprelin 7-də (20-də) çıxan *Molla Nəsrəddin* jurnalının nəşrinə başlamaqla o, Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında ilk dəfə satirik jurnalistikanın əsasını qoydu. Həmin vaxtdan o, Molla Nəsrəddin adı ilə tanındı. M.Ə.Sabir, N.Nərimanov, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ö.F.Nemanzadə, Ə.Nəzmi, Ə.Qəmküsar kimi yazıçı və jurnalistlərlə möhkəm ideya-yaradıcılıq əlaqəsi yarandı. C.Məmmədquluzadənin təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları jurnalın ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazanmasına səbəb oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, bəzən də *Molla Nəsrəddin*in nəşrini dayandırırdı.

*Molla Nəsrəddin* jurnalı müəyyən fasilələrlə iyirmi beş il çap olunmuşdur. O, əvvəlcə Tiflisdə (1906–1918), az bir müddət Təbrizdə (1921), sonra isə Bakıda (1922–1931) fəaliyyət göstərmişdir. Mütəxəssislərin fikrincə, jurnalın Tiflisdə 370, Təbrizdə 8, Bakıda isə 398 nömrəsi çıxmışdır.

Jurnalın maraqlı, rəngarəng proqramı vardı. İlk nömrə aşağıdakı proqramla dünya işığına çıxıb böyük canlanmaya səbəb olmuşdu:

1. Məqalələr
2. Kəskin tənqidlər
3. Felyetonlar
4. Məzhəki şeirlər
5. Məzəli teleqramlar
6. Satirik hekayələr
7. Lətifələr
8. Poçt qutusu
9. Məzhəki elanlar
10. Xüsusi elanlar
11. Karikatura və illüstrasiyalar (Mir Cəlal & Hüseynov, 1982, p. 25).

Mirzə Cəlilin əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Azərbaycan Respublikasında bir sıra küçə və mədəni-maarif müəssisəsinə (o cümlədən Naxçıvan Dövlət Musiqili Dram Teatrına, Naxçıvan Muxtar Respublikası Dövlət Ədəbiyyat Muzeyinə) C. Məmmədquluzadənin adı verilmişdir. Keçmiş Astraxan rayonu və şəhəri 1967-ci ildə onun şərəfinə Cəlilabad, vaxtilə müəllimlik etdiyi Baş Noraşen kəndi isə Cəlilkənd adlandırılmışdır. Naxçıvanda və Cəlilabadda heykəli qoyulmuşdur. Bakıda və Naxçıvanda ev-muzeyləri, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeyləri açılmışdır. Anadan olmasının 100 və 125 illik yubileyləri geniş qeyd olunmuşdur.

Ümummilli liderin Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində dərin izlər qoyan Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Səməd Vurğun, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və başqalarının ev-muzeylərinin yaradılmasındakı şəxsi təşəbbüsü onun milli dəyərlərimizə verdiyi ən böyük qiymətin bariz nümunəsidir. Ulu öndərin yüksək dəyər verdiyi sənətkarlardan biri də yazıçı, dramaturq və publisist Cəlil Məmmədquluzadədir. "Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir" deyən Heydər Əliyev 1994-cü ilin dekabrında ədibin ev-muzeyinin açılışında unudulmaz sənətkarın xatirəsinə böyük ehtiram göstərərək yazıçıya olan yüksək münasibətin bütövlükdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə olan sevgidən qaynaqlandığını nəzərə çatdırmışdır: "Bu gün Azərbaycanın həyatında böyük bir hadisə baş verir. Azərbaycan xalqının böyük yazıçısı, maarifçisi, ictimai xadimi Cəlil Məmmədquluzadənin ev-muzeyi açılır. Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, Cəlil Məmmədquluzadə yaradıcılığına, onun ədəbi-mədəni irsinə, onun xalqımızın tarixinə əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir" (Heydər Əliyev, 1994).

Ədib kənddə müəllim işləyərkən bədii yaradıcılığa başlamışdır. 1894-cü ildə qələmə aldığı *Danabaş kəndinin əhvalatları* povestindəki Danabaş kəndi tədqiqatçıların fikrincə, Mirzə Cəlilin

müəllim işlədiyi Nehrəm kəndidir. 1890–1897-ci illərdə Nehrəm (Danabaş) kəndində müəllim olan gənc ədib kəndin adət-ənənələrini, əhalisini müşahidə altına almış, bədii əsərlərinin bir neçəsini və *Molla Nəsrəddin* məcmuəsinin bir çox səhifələrini bu kəndə həsr etmişdir. O zamankı Azərbaycan kəndinin və kəndlisinin vəziyyətini, həyat tərzini, düşüncəsini parlaq boyalarla əks etdirən bu əsərdə ciddi ictimai problemlər qaldırılmışdır. Yazıçı povestdə xarakter, davranış və həyata baxışı ilə bir-birindən kəskin fərqlənən surətlər yaratmışdır. Hakim təbəqəni və onun əlaltılarını təmsil edən obrazlarla yanaşı, yoxsul və hüquqsuz insanlar da təsvir olunmuşdur. Xudayar bəy xeyirxah Məmmədhəsən əmi və qeyrətli Zeynəbə zülm yaşadır. Qlavaya, qazıya, digər hakimiyyət adamlarına arxalanan Xudayar bəy katdası olduğu kənddə kimi istəsə cəzalandırır. Milli-mənəvi dəyərlərdən üz çevirən Xudayar bəyin öz ailəsindəki davranışı da heç bir əxlaq çərçivəsinə sığmır.

Cəlil Məmmədquluzadənin 1909-cu ildə qələmə aldığı, dörd məclis və beş pərdədən ibarət olan *Ölülər* komediyası milli-mənəvi oyanışa, ictimai-mədəni tərəqqiyə həsr olunmuşdur. *Ölülər* əsərini yazarkən Mirzə Cəlil heç də dinə qarşı çıxmamış, əksinə, islam dininin böyük mənəvi dəyərlərini xalqa çatdırmağa çalışmışdır. *Ölülər* əsərindən uzun müddət din əleyhinə təbliğatda istifadə edilmiş və çox hallarda o, din əleyhinə yazılan bir əsər kimi qəbul olunmuşdur. Ancaq Mirzə Cəlil bu əsəri yaradarkən dinə qarşı deyil, əksinə, dini təhrif edənlərə müxalif çıxmış və dindən istifadə edib fırıldaqçılıqla məşğul olanları ifşa edərək tənqid atəşinə tutmuşdur. Cəlil Məmmədquluzadə bütün yaradıcılığı boyu öz satirik felyetonlarında, məqalələrində, hekayə və dram əsərlərində dönə-dönə dini məsələlərdən gəlir mənbəyi kimi istifadə edən yalançı din mübəlliğlərindən bəhs etmiş, onların xalqı cəhalət və geriliyə, mövhumata sürükləməsini satira atəşinə tutmuşdur.

*Ölülər* əsərinin bu günə qədər yazılan dram əsərləri arasında özünəməxsus xüsusi yeri vardır. Hacıların, məşədilərin, bütün müsəlmanlığın təcəssümü olan Hacı Həsənin evində islam dininin həyata, ailəyə, uşaqların tərbiyəsinə, azyaşlı qızların ərə verilməsinə aid iyrənc məsələlərə, kişilər üçün azadlığın "qanuni" olmasına, qadınlar üçün isə islam dini tərəfindən məcburiyyətlə yaşamaları təsvir olunmuşdur. Əsərdə Heydər ağa və Əli bəy kimi fırıldaqçı bəylərlə yanaşı, həmin mühitə gülə bilən tərəqqipərvər İsgəndər obrazı da vardır. İsgəndər mövhumat buxovundan ayrılmaq üçün araq içib keyflənmək yolunu tutur.

Şeyx qaçandan sonra növbə İsgəndərə gəlmişdir: "Diqqətlə baxın, sizin tarix kitabınızda bu, bir qan ilə yazılmış səhifə olacaqdır. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib bu səhifəni görəndə sizi yada salıb deyəcəklər: 'Tfu, sizin üzünüzə...' Zəmani ki, ricət məsələsi ortalığa qoyuldu və Şeyx Nəsrullah ölüləri diriltmək ixtiyarını qoydu sizin qabağınıza, siz, dəriçədən mələk axtaranlar, razı olmadınız ölən qardaşlarınızın, bacılarınızın və arvad-uşaqlarınızın dirilməyinə. Niyə? Niyə olmadınız? Ondan ötrü ki, arvadlarınızı yumruq altında öldürübsünüz; ondan ötrü ki, qardaşlarınızın arvadını alıbsınız; ondan ötrü ki, ölən dostlarınızın yetimlərinin malını yemisiniz; razı olmadınız ki, dirilib gəlsinlər və sizin əməllərinizi görüb desinlər: 'Tfu sizin üzünüzə!'" (Məmmədquluzadə, 1967, p. 54).

Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Azərbaycançılıq ideyasını özündə ehtiva edən *Anamın kitabı* adlı möhtəşəm əsəri öz müasirliyi ilə çağdaş dövrümüzdə də xalqı milli birliyə, soykökə və zəngin dilimizi qorumağa səsləyən qiymətli bir xəzinədir.

Ana dili məsələsi əsasında yazılan *Anamın kitabı* əsəri Rüstəm bəy, Səməd Vahid və Mirzə Məhəmmədəli adlı üç qardaşın arasındakı mübarizə üzərində qurulmuşdur: Rüstəm bəy — rus intelligenti libasında, yəni pencək, jilet, nişastalı yaxalı köynək, boğazında qalstuk, nişastalanmış ağ qolları, rus darülfünunda elm təhsil almış rus tərbiyəsi tərəfdarı; Mirzə Məhəmmədəli — İran ürəfası libasında, yəni uca İran börkü, uzun İran arxalığı, üstündən qurşaq, arxalığın üstündən uzun irani çuxa, gen şalvar, ağ corab, başmaqlarını qapının ağzında çıxarıb yerdə dizüstə oturur; həmişə əlində təsbeh — İran tərbiyəsi tərəfdarı. Səməd Vahid isə — İstanbulda ədəbiyyat dərsi almış, başında qırmızı fəs, əynində pencək, jilet... osmanlı tərbiyəsi tərəfdarı (Məmmədquluzadə, 1967, p. 60).

Yazıçı təxmini 1926–1927-ci illərdə *Dəlilər* əsərini qələmə almışdır. Bu əsəri sonradan *Dəli yığıncağı* adlandırmışdır. İlk dəfə H.Səmədzadə 1938-ci ildə əsəri Bakıda kitab halında nəşr etdirmişdir. Əsərdə hadisələr Cənubi Azərbaycanda cərəyan edir. Ancaq buna baxmayaraq, əhvalat və bəzi surətlər Naxçıvandan alınmışdır. Personajların çoxu həyatda olmuş adamlardır və Naxçıvanda

"Dəlilər məhəlləsində" yaşamışlar. Molla Abbas, Hacı Cəfər, Farmazon Rüstəm, Məkkə Məhəmməd personajları və əhvalat Mirzə Cəlilin yaradıcı qələmi altında tipikləşərək onun yüksək məqsədlərinə xidmət edən bir vasitə olmuşdur.

Əsərin sonu Molla Abbasın çox ağıllı nitqi ilə bitir. Məlumdur ki, Fazil qardaşı Molla Abbasın gözəl arvadı Sonanı onun əlindən alıb özünə siğə etmək istəyir. Məqsədini yerinə yetirmək üçün işi şəriətə salır. Başqa dəlilərin arvadları öz qayınlarına siğə olmaq üçün kəcavəyə girirlər. Ancaq dəli Pırpız Sona kəcavəyə girməyib deyir: "Molla Abbas, o arvadlar ki, öz ərlərini tullayıb ərlərinin qardaşlarına qoşulub gedirlər, o arvadların ucundan qorxuram dünya və aləm dağıla, külli-küfan ola. Molla Abbas, qorxuram ulduzlar yerə töküldə... Vay, nələr görürəm. Molla Abbas, bunlar dəli yığıncağı imiş..." (Məmmədquluzadə, 1967, p. 147).

Həm *Ölülər* əsərində (Keyfli İsgəndərin), həm də *Dəli yığıncağı* əsərində (Molla Abbasın) qaranlıq dünya üzərindəki mənəvi qalibiyyətləri ilə dövrün tələb etdiyi mütərəqqi ictimai fikir uğrunda apardığı mübarizə təsvir olunmuşdur.

Yazıçı tüfeyli çar məmurlarını, lovğa və yaltaq mülkədarları satira atəşinə tutduğu hekayələr sırasında "Qurbanəli bəy" hekayəsi də var. "Qurbanəli bəy" hekayəsində kəndin adının "Qapazlı" adlandırılması Azərbaycan kəndlilərinin həm bəy və xanların, həm də çar məmurlarının qapazaltısı olmasına işarə edir. Təmsil etdiyi ictimai təbəqənin səciyyəvi xüsusiyyətlərini özündə birləşdirən qəhrəman, sözü və əməli üst-üstə düşməyən satirik obrazdır. Qurbanəli bəy nökəri Kərbəlayı Qasımla, aşpaz Əli ilə, qulluqçu qadınla — bir sözlə, aşağı təbəqənin adamları ilə çox kobud rəftar edir. Amma onun rus məmurlarına və onların arvadlarına yaltaqlığı, onlara dönə-dönə dediyi "Mən istəyirəm sizə nökərçilik eləyim", "sənə mən nökərəm", "nə qədər ki, mən sağam, nökərəm sənə" sözlərində üzə çıxır. Xudayar bəy Danabaş kəndinin, Qurbanəli bəy isə Qapazlı kəndinin mülkədarı-ağası olaraq haqsızlığın tərənnümçüsüdür.

Böyük yazıçı Mirzə Cəlil təzadlı və təsiredici səhnələr təsvir etməklə ilk növbədə azərbaycanlıların gözünü açmaq, onları elmə, inkişafa, öz hüquqlarını anlamağa istiqamətləndirmək istəmişdir. Bu niyyətlə də "Poçt qutusu" hekayəsini qələmə almışdır. Novruzəli cəhalət içərisində yaşayan yüzlərlə, minlərlə Azərbaycan kəndlilərinin ümumiləşdirilmiş obrazıdır.

"Poçt qutusu" hekayəsinin qəhrəmanı Novruzəlinin yaşadığı kəndin "İtqapan" adlandırılması güclülərin kəndlilərə verdiyi əzab-əziyyətin "normal" və "təbii" olması halı kimi xarakterizə edilir. Buna görə də həmvətənlərini cəhalət yuxusundan oyatmaq istəyən yazıçı satiranın köməkliyi ilə mübarizəyə qalxır.

Mirzə Cəlil yaradıcılığında kinayə və eyhamlar əsasən örtülü, lakonik və yığcam olaraq sarsıdıcı zərbə kimi bir anda öz işini qüvvətli şəkildə görür. Yazıçı tənqid və ifşanın ən kəsərli vasitəsi olan satiradan yerli-yerində istifadə edir. Hekayədə yazıçının hadisəyə müdaxilə etməməsi və münasibət bildirməməsi ilə əhvalat öz təbiiliyini qoruyub saxlayır. Bununla da oxucunu düşünməyə, fikirləşməyə və nəticə çıxarmağa səsləyir.

Klassik Azərbaycan ədəbiyyatında şedevr sayılan "Usta Zeynal" hekayəsini yazıçı 1905-ci ildə qələmə almışdır. Hekayədə mövhumatın, mənasız müsəlman ətalətinin, daim kölə vəziyyətində yaşayıb azadlığın və düşüncənin nə olduğunu bilməyən tiplərdən bəhs edilir. Ədib bu hekayəni nəsihətçilik, məsləhət yolu ilə deyil, həyati tiplər və xarakterlər vasitəsilə açıb göstərmişdir. Usta Zeynal ömrünü İranda səfalətdə keçirən, yoxsulluq ucbatından yurd-yuvasını tərk edib qürbət ellərdə çörək pulu qazanmaq istəyən minlərlə zəhmətkeşdən biridir. Dini fanatikliyinə görə ədib Usta Zeynalı müsəlman aləminin cəhalətini, ətalətini təmsil edən ədəbi tip kimi yaratmışdır. Öz qüvvəsinə, bacarığına inam hissini itirib hər şeyi Allahın iradəsinə bağlayıb təvəkküldən asılı hesab edir.

Mirzə Cəlil "Xanın təsbehi" hekayəsində qəddar və mənəviyyatsız Nəzərəli bəyin saysız-hesabsız zülmlərini açıb göstərmişdir. İslam aləmində müqəddəs əşya sayılan təsbeh vasitəsilə, yəni din adı altında edilən bir çox özbaşınalıqlar təsvir olunmuşdur. Hekayə real həyat hadisələrindən götürülmüşdür. Yazıçı İranda Gəleybəyidə Əbdül Səməd xanın evində müsafir olduğu zaman bilavasitə canlı şahidi olduğu hadisələr əsasında "Xanın təsbehi" hekayəsini bədii boyalarla qələmə almışdır.

Böyük yazıçı-dramaturq kiçik həcmli nəsr əsərlərində də böyük mətləblər qoyur, adi danışıq üslubunda çox böyük məsələlərdən söhbət açır, müasirlərinin diqqətini cəlb edir, zehinləri, mühakimələri sirkələyib hərəkətə gətirirdi.

Mirzə Cəlilin 1892-ci ildə qələmə aldığı "Kişmiş oyunu" adlı birpərdəli məzhəkəsinin əsl məğzi kişmiş oyunu üzərində qurulmuşdur. Nurəlinin məzəli tədbiri — onun mövhumata, seyidlərə olan gözüaçıq münasibətini təyin edir. Qaranlıq aləmin zülməti içərisində yaşayan xalq o zülməti məhv etməyə, yer üzündən silməyə də hazır olduğunu göstərmək istəmişdir.

Yazıçı "Kişmiş oyunu" adı altında eyni mövzuda iki əsər yazmışdır. Bunlardan birini ədib 1892-ci ildə Danabaş kəndində müəllimlik fəaliyyəti dövründə yazmışdır. O zaman ədibin "Kişmiş oyunu" kiçik komediya idi. *Şərqi-Rus* qəzetindəki "Kişmiş oyunu" isə hekayə janrındadır. Birinci variant tənqid hədəfinə tuş gəldiyinə görə ikinci variantda ədibin qələminin yumoru və tənqidi daha güclüdür.

"Doğrudan da, C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, S.S.Axundovun hələ XIX əsrin sonunda formalaşan hekayə ustaları əsrimizin 20-ci illərində də öz ənənəsini yaşadaraq janrın daxili tutumunun, mövzu dairəsinin genişlənməsində mühüm rol oynayırdı" (Qasımov, 1993, p. 138).

Görkəmli yazıçı-ictimai xadim "Dəllək" hekayəsində savadsızlığın hansı bəlalara səbəb olduğunu açıb göstərmiş, "Taxıl həkimi" hekayəsində isə ziyalının ziyalı adına xələl gətirən hərəkəti tənqid olunmuşdur. Lakonik təsvirlərlə "taxıl həkimi"nin — "ziyalı"nın real bədii inikası göstərilir. Bəlaya düçar olmuş insanlara kömək etməli olan bu həkim tapdığı böcəyin bədən quruluşu haqqında kənd camaatına uzun-uzadı moizə oxuyur, sonra şərəfinə düzəldilmiş məclisdə sərxoş olub "kəşf etdiyi" həşəratı da kənddə unudub gedir. Taxıla zərər vuran həşəratla onu xilas etməli olan "taxıl həkimi"nin, "ziyalı"nın mövqeyi vurulan zərərlə eyniyyət təşkil etməsi (həşəratda maddi, həkimdə mənəvi və maddi) ümumi peşə adı ilə acı ironik mövqedə əks olunur.

"Saqqallı uşaq" hekayəsində sərlövhə cəmiyyətin mənən şikəst etdiyi, avam, savadsız hala saldığı yaşlı kişi — Kəblə Əzim (Kəblə Əzimlər) "saqqallı uşaq" simvolik adı ilə ifadə olunur. "Şeir bülbülləri" hekayəsində də sərlövhə bu mətləb üzərində qurulub. "Şeir bülbülləri" ədibin qəliz və başqa dillərdən yoğrulmuş şeirlərdən qopa bilməyən şair və ziyalılara verdiyi ümumi addır. Onlar xalq ruhuna həqarətlə baxan, öz doğma dil və mənəviyyatını unudub əcnəbi dilləri üstün tutan ziyalılardır. Kinayəli təzad həqiqi bülbül ilə hekayənin adı arasında məharətlə qurulmuşdur. Bu sərlövhə dil və ədəbiyyatımızı əcnəbi, yadelli təsirə məruz qoyanlara ittiham kimi səslənir (Vahabova, 2014, p. 291). Sadəlik, təbiilik və real həyata yaxınlıq Mirzə Cəlil hekayələrinin əsas məziyyətləridir. Buradan bəlli olur ki, müəllif öz xalqının həyatını və dünyagörüşünü yaxşı bilir və incə müşahidə qabiliyyətinə malikdir. Onun bilavasitə həyatdan götürülmüş hekayələri boş fantaziyanın məhsulu deyildir. Başqa bir məziyyəti də onun müşahidə etdiyi həyatı canlı və anlaşıqlı dil ilə, Şərq yumorunun aydın xüsusiyyətləri ilə verə bilməsidir ki, bu da oxucunun nəzərini hər şeydən çox cəlb edir.

"Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyamızın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi" (Heydər Əliyev, 1994).

Mirzə Cəlil realizmi dərin köklü bir realizmdir. Tərəfgirlik onun hər bir əsərinin mahiyyətində olsa da, heç bir əsərin zahirində nəzərə çarpmır. Ən yüksək kin və ədavət bəslədiyi düşmənə qarşı heç bir acı, mənfi söz işlətmədiyi kimi, ən çox sevdiyi, idealizə etdiyi dostu da quru, çılpaq sözlə mədh, tərif etmir. Ədib hər iki halda bir yol ilə — həqiqəti göstərərək, həyatı olduğu kimi vermək yolu ilə, yəni realizm yolu ilə gedir.

Cəlil Məmmədquluzadə əsərlərində sərlövhəni məharətlə seçib yerində işlədə bilən sənətkarlardandır. Ədib öz əsərlərinə təsadüfi ad seçmir; bu adlar əsərin məzmunu, ideyası ilə tam vəhdətdə götürülür, bu mətləblərlə həmahəng, hətta eyni olur. Ədibin nəsrində istifadə olunan sərlövhələr müxtəlifdir. Şərti olaraq onları belə qruplaşdırmaq olar:

I. Vulqar sözlərlə işlədilib ironik mövqeyi bildirən sərlövhələr: "Danabaş kəndinin əhvalatları", "Danabaş kəndinin məktəbi", "Zırrama".

II. Adlara verilən sərlövhələr: "Usta Zeynal", "Qurbanəli bəy", "Molla Fəzləli", "Baqqal Məşədi Rəhim".

III. Peşə ilə bağlı adla ifadə olunan sərlövhələr: "Dəllək", "Qəssab", "Hamballar", "Qəza müxbiri", "Taxıl həkimi".

IV. Müxtəlif adlarla yazıçı mövqeyinin ifadəsi kimi verilən sərlövhələr: "Şeir bülbülləri", "Saqqallı uşaq", "Bəlkə də qaytardılar" və s. (Vahabova, 2014, p. 25).

Əməkdar elm xadimi, ədəbiyyatşünas, tənqidçi Əziz Mirəhmədovun fikrinə görə, Mirzə Cəlilin vəfatından sonra ailəsi onun avtoqraflarının çoxunu və *Molla Nəsrəddin* jurnalının bir neçə illik komplektini SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına, yəni indiki Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna vermişdir. Yazıçının Əlyazmalar İnstitutunun saxlanğıcında olan şəxsi arxivinin təsviri M.C.Paşayev tərəfindən nəşr edilmişdir. Son illərdə Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunun arxivindən Cəlil Məmmədquluzadəyə məxsus fonddan ədibin daha üç pyesi aşkara çıxarılmışdır. Birpərdəli *Lənət* pyesi və *Oyunbazlar* səhnəciyi 20-ci illərin başlanğıcında yazılmışdır. *Lənət* pyesində *Danabaş kəndinin məktəbi*nin süjeti ilə səsləşən motivlər əks etdirilmişdir. Lakin bu əsərdə məlum pyesdən fərqli olaraq avam kütləni başabəla, yarımçıq "ziyalı" əvəz etmişdir. *Lənət* pyesində öz işinin öhdəsindən gələ bilməyən, qumara qurşanan müəllim Həsənov əsas tənqid hədəfidir. *Oyunbazlar* səhnəciyində isə yeni həyatın başlanğıc çətinlikləri və mövhumatın tənqidi ön plana çəkilmişdir (Əliyev, 2005, p. 273).

Tənqidi-realist ədəbi cərəyanın görkəmli nümayəndəsi Mirzə Cəlil "Molla Nəsrəddin", "Hop-hop", "Lağlağı", "Dəli", "Cızvızçı", "Hərdəmxəyal", "Yuxusuz Molla əmi" imzaları ilə qələmini sınamışdı.

Bədii-publisist əsərlərini Cəlil Məmmədquluzadə və "Molla Nəsrəddin" imzaları ilə yazan, sağlığından başlayaraq bu günə kimi bütün kitablarında, tərcümeyi-hal sənədlərində müəlliflik, şəxsiyyət bildirilən məqamlarda Cəlil Məmmədquluzadə kimi təsdiq olunan böyük ədibə "Mirzə Cəlil" adını xalq vermişdir (Həbibbəyli, 1994, p. 4).

## Nəticə

Mirzə Cəlil realizmi böyük, zəngin bir ədəbi məktəbdir. Qurtuluş, azadlıq, demokratizm, maarifpərvərlik bu məktəbin başlıca ideya məzmununu təşkil edir. M.Ə.Sabir, Əli Nəzmi, Ə.Qəmküsar, Ə.Haqverdiyev, M.S. Ordubadi, M.Ə.Möcüz, F.Köçərli, Ömər Faiq kimi əsrin böyük ədəbi simaları bu məktəbə mənsub adamlardır. Bunların hər birində *Molla Nəsrəddin* realizm üslubunun xüsusiyyətləri bu və ya başqa dərəcədə davam və inkişaf etdirilmişdir. *Molla Nəsrəddin* əsl xalq jurnalı idi; bütün janrlarda çap etdiyi əsərlərin ümumi ruhuna, dil və üslubunun sadəliyinə, aydınlığına görə də xəlqiliyin gözəl nümunəsi idi. Bundan əlavə, jurnalın məziyyətlərindən biri də ilk nömrəsindən başlayaraq, Azərbaycan şifahi xalq ədəbiyyatına müntəzəm və geniş yer verməsi, atalar sözü və məsəllər, lətifələr, tapmacalar və bayatılardan öz satirik məramına, üslubuna uyğun şəkildə istifadə etməsi idi. Atalar sözü və məsəllər *Molla Nəsrəddin* jurnalında çox zaman xalqda işləndiyi adi mənasından fərqli olaraq, daha dərin ictimai-siyasi məzmun kəsb edir, satirik mündəricə daşıyırdı.

Mirzə Cəlil yumorunda dərin bir rəğbət hiss olunur. "Quzu", "Poçt qutusu", "Usta Zeynal" hekayələrində bu rəğbət daha aydındır; çünki bu üslubda ədib ən çox müsbət adamları, həyat, əmək adamlarını, kəndliləri, fəhlələri, sənətkarları gülüş obyekti etmişdir. Bu zümrədən olanlar nə qədər avam, sadəlövh olsa da, ədib onları məhəbbətlə, hörmətlə təsvir edir. Onların tənqidini də gülüş, zarafat yolu ilə verir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev siyasi fəaliyyətinin və ölkəyə rəhbərliyinin bütün dövrlərində — istər sovet, istərsə də müstəqillik illərində — klassik bədii-fəlsəfi irsi dərindən öyrənmiş və bu zəngin məfkurə qaynağını yüksək dəyərləndirmişdir. Ulu öndər Azərbaycanın ictimai-fəlsəfi fikrini zənginləşdirən mütəfəkkir, yazıçı və şairlərin ədəbi-bədii yaradıcılığına həmişə yüksək qiymət vermiş, onların milli məfkurə irsinin və bəşəri ideyalarının Azərbaycanın mənəvi sərvətinə çevrilməsinə hərtərəfli diqqət və qayğı göstərmişdir. Bu gün Ümummilli lider Heydər Əliyevin siyasi kursu layiqincə davam etdirilir. Mirzə Cəlil irsi yenə də diqqət mərkəzindədir. Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi

haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına uyğun olaraq Cəlil Məmmədquluzadənin *Əsərləri* dörd cilddə nəşr olunmuşdur (ARP Sərəncamı, 2004). 2006-cı ildə *Molla Nəsrəddin* jurnalının nəşrə başlamasının 100, 2016-cı ildə 110 illiyi və 2019-cu ildə C.Məmmədquluzadənin 150 illik yubileyinin keçirilməsi barədə Prezident sərəncamı Ulu öndərin böyük siyasətinin uğurlu davamıdır.

Daim inkişaf duyğusu ilə yaşayan xalqın azad və savadlı insanlarla dolu bir dünya görmək istəyi bu gün üçün reallaşmışdır. Çünki bədii söz ən güclü vasitə olaraq cəmiyyəti kamilləşdirən və vətənpərvərlik, qəhrəmanlıq duyğularını formalaşdırmışdır. Qazandığımız 34 illik müstəqillik dövründə də Cəlil Məmmədquluzadə yaradıcılığında olan bədii sözün təsir gücü özünü təsdiq edərək gerçəkləşdirmişdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası. (1994). *Cəlil Məmmədquluzadənin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncam* (No. 5427).
2. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında. (n.d.). https://e-qanun.az/framework/5427
3. Əliyev, A. (2005). *Mirzə Cəlil və Azərbaycan mətbuatı*. Elm.
4. Əliyev, H. (1994, dekabr 28). *Böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində nitq*. Azərbaycan Respublikası Prezidenti.
5. *Cəlil Məmmədquluzadə: biblioqrafiya*. (2019).
6. *Cəlil Məmmədquluzadənin ev-muzeyinin fəxri qonaqlar kitabına ürək sözləri*. (1994, dekabr 28). Heydər Əliyev, Azərbaycan Respublikası Prezidenti.
7. Həbibbəyli, İ. (1994). *Cəlil Məmmədquluzadə*. Şərq-Qərb.
8. Məmmədquluzadə, C. (1967). *Məqalələr, xatirələr*. Azərbaycan SSR EA.
9. Mir Cəlal, & Hüseynov, F. (1982). *XX əsr Azərbaycan ədəbiyyatı*. Maarif.
10. *Mirzə Cəlil dühasının işığında*. (2014). *Mədəniyyət*.
11. Qasımov, H. (1993). *Müasir Azərbaycan romanı: Janrın poetika və tipologiyası* [Fəlsəfə elmləri namizədi dissertasiyası].
12. Vahabova, S. (2014). *Cəlil Məmmədquluzadə əsrinin poetikası*. Elm və Təhsil.

Daxil oldu: 17.06.2025
Qəbul edildi: 02.09.2025

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 9 / 17-21 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 9 / 17-21 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/121/17-21

**Toğrul Vəliyev**
Bakı Dövlət Universiteti
hüquq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-8127-9776
veliyevtogrul@yandex.com

# Beynəlxalq iqtisadi hüquq kontekstində transmilli korporasiyalar

## Xülasə

Müasir dünya iqtisadiyyatı müxtəlif kənar və daxili müdaxilələrin təsiri ilə inkişaf etməkdə və yeni məzmunları əhatə edəcək şəkildə formalaşmaqdadır. Sözügedən formalaşma dünya iqtisadiyyatının inkişafı və dövrün tələblərinə uyğunlaşması kimi nəzərdən keçirilir. Günümüzdə bir çox sahədə olduğu kimi, beynəlxalq iqtisadi münasibətlərdə də beynəlmiləşmə, qloballaşma və transmilliləşmə prosesləri bu inkişafın əsasında dayanan amillərdən hesab edilir və qarşılıqlı əlaqədə nəzərdən keçirilir.

"Elizbar Cavelidze – Mollayi Ruminin Gürcüstan *Məsnəvisi*dir. *Kitabi Dədə Qorqud*un gürcü dilində səslənməsidir. Elizbar Cavelidze – Yunus Əmrənin Kürə qarışıq hekayəsidir. Yenidən doğulan Ruhi Bağdadi təzkirəsidir. Məhəmməd Füzuli – Elizbar Cavelidzenin Azərbaycan sevdasıdır. Gürcü alimin ədəbiyyatda Kərbəlasıdır. Və ya romantik düşüncədə Metex qalasıdır. Akademik Elizbar Cavelidze – Azərbaycanın qədim dostu, Gürcüstanın ədəbiyyatçısı və dilçisidir. Qafqazda şərq-şünaslığın böyük elçisidir. Yorulmaz, vəfalı, tükənməz, səyli…" (Həbibbəyli, 2017a, pp. 3–4).

Akademik İsa Həbibbəyli burada E. Cavelidzenin yaradıcılığının xəritəsini cızmış və qiymətini vermişdir. Akademik E.Cavelidzeni həm də "Azərbaycanın qədim dostu" və "Qafqazda şərqşü-naslığın böyük elçisi" adlandırmışdır.

Elizbar Cavelidze (ელიზბარ ჯაველიძე) 1938-ci ildə Tbilisi şəhərində doğulsa da, uşaqlıq illəri Gürcüstanın soydaşlarımızın kompakt halda yaşadıqları Bolnisi rayonunda keçmiş, elə ilk təhsilini də Bolnisi şəhərindəki orta məktəbdə almış, 1956–1961-ci illərdə İvane Javakhishvili adına Tbilisi Dövlət Universitetinin şərqşünaslıq fakültəsində oxumuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. Bütün fəaliyyətini şərqşünaslıq araşdırmalarına həsr etmiş, Q.Tsereteli adına Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi vəzifəsindən baş elmi işçi vəzifəsinə qədər yüksəlmişdir. 1966-cı ildə "Ruhi Bağdadi: həyatı, dünyagörüşü və lirikası" mövzusunda namizədlik, 1975-ci ildə "Cəlaləddin Rumi: dünyagörüşü məsələləri" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1985–1986-cı illərdə *Tənqid* ("კრიტიკა" – "Kritika") almanaxının və 1986–1990-cı illərdə *Ədəbi Gürcüstan* ("ლიტერატურული საქართველო" – "Literaturuli Sakartvelo") qəzetinin baş redaktoru olmuşdur. 1988-ci ildə Tbilisi Dövlət Universitetinin türkoloji kafedrasının professoru və Gürcüstan Elmlər Akademiyasının müxbir üzvü, 2013-cü ildə isə Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 1991-ci ildə Gürcüstanın təhsil və elm naziri olmuş, 1995–1998-ci illərdə məcburi şəkildə Almaniyada mühacirət həyatı yaşamış, 1999-cu ildə partiya siyahısı üzrə "Gürcüstanın dirçəlişi" seçki blokundan V çağırış Gürcüstan parlamentinin üzvü seçilmiş, 2004-cü ilə qədər deputat olaraq fəaliyyət göstərmişdir. *Ruhi Bağdadi* ("რუჰი ბაღდადი", თბ., 1968) adlı ilk kitabı 1968-ci ildə çap olunan, ümumilikdə isə 16 monoqrafiyanın, 300-dən çox elmi məqalənin müəllifi olan Elizbar Cavelidze yaradıcılığının böyük bir hissəsini Azərbaycan və Şərq ədəbiyyatına həsr etmişdir. Elə buna görə də o, 1989-cu ildə Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adına, 2010-cu ildə "David Ağmaşenebeli", 2013-

cü ildə “Saquramo” ədəbi mükafatlarına layiq görülmüş, 2018-ci ildə “Kakutsa Çolokaşvili” ordeni ilə təltif edilmişdir.

Akademik E. Cavelidzenin fəaliyyətini iki xalq arasında salınan körpünün ən bariz nümunəsi adlandırmaq olar. Bu körpünün müəyyən təməlləri atılmışdısa da, çağdaş dövrümüzdə dostluq halına məhz İsa Həbibbəyli – Elizbar Cavelidze tandemi ilə gəlmiş və daha da möhkəmlənmişdir.

Akademik Elizbar Cavelidze hələ sovet dövründə az tədqiq olunan mövzulara – türk ədəbiyyatına müraciət etmiş və onu müxtəlif yöndən araşdıraraq bu sahədə öz sözünü demişdir. Bu, həm də gürcü filologiyasında tamamilə yeni bir istiqamət idi. Təsadüfi deyildir ki, akademik E. Cavelidzenin “Türk folklorunun estetikası” mövzusunda apardığı araşdırmaları öz funksionallığı, əhatə dairəsi və yazı üslubu ilə çox əhəmiyyətlidir. Müəllif burada ilk dəfə olaraq, Orta əsrlər yaxın Şərq islamının və türk folklorunun əxlaqi-etik məsələlərini öyrənməyə çalışmışdır. Tədqiqatçı qədim sivilizasiyanın yaradıcısı kimi ən qədim Şərq və orta əsrlərin Yaxın Şərqinin əxlaqi-estetik düşüncəsinin ümumi mənzərəsini göstərməyə cəhd etmişdir. Gülüş fenomeni Molla Nəsrəddinin, qədim türk xalq eposu *Dədə Qorqud*un, *Koroğlu*nun bədii xüsusiyyətlərini təhlil etmiş, ritual daşlarda həkk olunmuş yazıların estetik-rəmzi əhəmiyyətini araşdırmışdır. Burada yenilik ondan ibarətdir ki, tədqiqatçı araşdırmalarını estetik kateqoriya üzərindən aparmış, subyektlə obyektin qarşılıqlı estetik münasibətlərini öyrənmiş, qədimliyin özündə də bir müasirlik axtarmışdır. Çünki: “…sənət mütəxəssislərinin düşündüyü kimi, ovçunun gözü ilə görünən bu ov təsvirləri nəinki kor-koranə təqlid və kortəbii xarakter daşımır, eləcə də təsvir planının müəyyən plan və mülayimliyə və bədii qanuna tabe olur” (*İstoriya Esteticheskoy Mysli*, I, 1985, p. 48). Bu mənada, folklorda olan təsvirlər böyük əhəmiyyət daşıyır və hər birinin mənası vardır. Yəni gülüş təkcə sevinc və xoşbəxtliyin ifadəsi deyil, həm də insan bədii düşüncəsinin müxtəlif şəkildə təzahür formalarıdır.

İnsanın təbiəti onun xarakterinə uyğun dəyişkən və müxtəlifdir. Tədqiqatçı Molla Nəsrəddin lətifələrindəki gülüşün xarakterini açmağa, buradakı məntiqi ardıcıllığı təyin etməyə çalışmış və buna nail olmuşdur. Tədqiqatçı dünya filosofları Platon, Aristotel və başqalarının gülüşlə bağlı fikirlərinə istinad edərək Molla Nəsrəddin gülüşünün xarakterini açmışdır. Bu zaman o, Azərbaycan və türk tədqiqatçılarına da istinad etmişdir. Belə bir fikrində haqlı görünür ki: “İndi türk folklorunda gülüşün belə hər şeyə qadir gücü nə vaxt qazandığını dəqiq müəyyən etmək çətindir. Amma yəqin ki, mənim fikrimcə, bu, XIII əsrdə, Osmanlı türklərinin – Oğuzların kiçik qolu olan əcdadlarının monqollardan geri çəkildiyi zaman baş vermişdir və onlar Şimali İran və Azərbaycan üzərindən Kiçik Asiyaya gələrək Səlcuq sultanlığının hərbi xidmətinə qədəm qoymuş, taleyini əbədi olaraq onlarla bağlamışlar və Səlcuq xalqının həyat dövrünə əqli olaraq qarışmışlar” (Cavelidze, 2024, p. 7).

Gürcüstan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun sabiq direktoru, tanınmış tədqiqatçı-ədəbiyyatşünas akademik Apollon Silaqadze (აპოლონ სილაგაძე, 1942–2017) onu “Gürcü türkologiyasının lideri” adlandırmışdır (Cilaqadze, 2017, p. 5). Bunu E. Cavelidzenin elmi fəaliyyəti də təsdiq edir. Onun *Türk ədəbiyyatı mənbələrindən, I: Cəlaləddin Rumi* (*У истоков турецкой литературы, I, Джелаль-ед-дин Руми* (вопросы мировозрения), Тб., 1979), *Türk ədəbiyyatı mənbələrindən, II: Yunus Əmrə* (*У истоков турецкой литературы, II, Юнус Эмре*, Тб., 1985), *Türk ədəbiyyatı mənbələrindən, III: Aşıq Paşa* (“თურქული ლიტერატურის სათავეებთან, III აშიკ ფაშა”, 2013) monoqrafiyaları fundamentallığı ilə seçilir. O, bu əsərlərdə həm də sufizm problemini araşdırır ki, bunun da böyük əhəmiyyəti vardır.

A.Silaqadze E.Cavelidzenin araşdırmalarının janr, forma, versifikasiya cəhətdən yeni bir istiqamət olduğu fikrindədir: “Elizbar Cavelidze üçün hər şeydən əvvəl, əgər belə demək mümkündürsə, sevimli mövzu vaxtilə bütün Yaxın Şərqdə həyatın praktik olaraq bütün sahələrində hökmranlıq edən fəlsəfi-dini axını olan sufizmdir ki, bu da orta əsrlərdə Yaxın Şərqin mədəni, estetik, əxlaqi, siyasi və sair düşüncəsinin məhək daşını təşkil edirdi” (Cilaqadze, 2017, p. 5).

Akademik E.Cavelidze bu əsərlərində klassik divan ədəbiyyatının bütöv mənzərəsinin müxtəlif tərəflərini, problemlərini tədqiq etmiş, xalq-dərvişlik ədəbiyyatının təşəkkülü məsələlərini elmi-nəzəri şəkildə araşdırmağa nail olmuşdur. Bu araşdırmalarda orta əsrlərin dini-fəlsəfi, estetik düşüncə tərzi ilə əlaqədar məsələlər, eləcə də zaman və məkan, ruh və bədən, mütləq gerçəklik, dünya-axirət, həyat və ölüm kimi komponentlər elmi-nəzəri həllini tapır. Akademik A.Silaqadze bu fikirdədir ki,

bu cəhətdən E.Cavelidze müasirlərindən bir qədər fərqlənmişdir. Onun fikrincə, E.Cavelidze bu problemlərin təhlili və qənaətləri ilə sufizmin tədqiqi sahəsində yeni mərhələ yaradır: "Yalnız bir elmi faktı qeyd edirik: əgər indiyədək sufizmin məşhur tədqiqatçıları (D.Makdonald, Y.Bertels, M.F.Köprülü, Z.Quluzadə və b.) sufizmi panteistik təlim, doktrina hesab edirdilərsə, Elizbar Cavelidze bu fikri rədd etdi və panteizmi sufizmin əsası olaraq müəyyən etdi" (Cilaqadze, 2017, p. 6).

Bildiyimiz kimi, Azərbaycan poeziyası tarixən bütün dünya xalqları kimi, qonşu və qardaş gürcü xalqının da nəzər-diqqətini daim özünə cəlb etmişdir. Təsadüfi deyil ki, gürcü ziyalıları hələ XVI–XVII əsrlərdən başlayaraq, Azərbaycan poeziyasını həm öz ana dillərinə tərcümə edir, həm də öz əlifbaları ilə yazıya köçürür və ondan istifadə edirdilər. Həmin əlyazmaların bir çoxu indi də akademik S. Canaşiya adına Gürcüstan Dövlət Tarix Muzeyində və akademik K. Kekelidze adına Gürcüstan Milli Əlyazmalar İnstitutunda saxlanmaqdadır. Bu yazıların içərisində dahi söz ustadı Füzulinin lirik əsərləri də çoxdur. Bu da onu göstərir ki, Füzuli gürcü xalqının da sevə-sevə oxuduqları sənətkarlardandır (Çobanov, 1973).

XX əsrdə qardaş gürcü xalqının ziyalılarının və ədəbiyyatşünaslarının Azərbaycan ədəbiyyatının gürcü dilinə tərcümə edilməsinə, tədqiqinə və təbliğinə olan marağı demək olar ki, qat-qat artmışdır. Bu sahədə Elizbar Cavelidzenin əməyini xüsusi qeyd etmək lazımdır. Dahi Füzulinin bədii sənətkarlıq xüsusiyyətləri dünyanın bir çox ədəbiyyatşünaslarının tədqiqat obyekti olduğu kimi, gürcü şərqşünası Elizbar Cavelidzenin də elmi tədqiqat obyekti olmuşdur.

Professor Bədirxan Əhmədli Azərbaycan–gürcü elmi düşüncəsinin bu iki böyük simasının — akademik İsa Həbibbəyli və akademik Elizbar Cavelidzenin — elmi görüşlərinin və elmi əlaqələrinin təməllərinin atılması haqqında bu fikirdədir ki, XX əsrin sonlarında müstəqillikdən sonra hər iki ölkədə bu ədəbi əlaqələr itməyə doğru getmişdi: "İsa müəllim uzun illərdən bəri unudulan ədəbi əlaqələrin formalaşmasında məhək daşı olan bu görkəmli alimin yaradıcılığına yaxşı bələd olduğundan onun əsərlərinin nəşri vəziyyəti ilə maraqlandı və bu əsərlərdən bəzilərinin Azərbaycan dilinə tərcüməsini və nəşrini təklif etdi..." (Əhmədli, 2017). Və bu görüşün nəticəsi olaraq, E. Cavelidzenin 1972-ci ildə Tbilisidə nəşr olunmuş *Məhəmməd Füzuli: Həyatı. Mühiti. Yaradıcılığı* ("ფუზული", თბ., 1972) kitabı 2017-ci ildə Bakıda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Elm və təhsil" nəşriyyatında Mirzə Məmmədoğlunun tərcüməsi və professor Bədirxan Əhmədlinin redaktorluğu ilə nəşr edildi (Literature.az, 2017).

Qeyd edək ki, akademik Elizbar Cavelidzenin dünya ədəbiyyatını öz nadir söz inciləri ilə bəzəmiş XVI əsr görkəmli Azərbaycan şairi, söz sənətinin dahi ustadı Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr olunmuş həmin *Füzuli* ("ფუზული") adlı monoqrafiyası 45 il əvvəl — 1972-ci ildə "Nakaduli" Gürcüstan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı "Görkəmli adamların həyatından" seriyasından 5 min tirajla çap edilərək gürcü oxucularının ixtiyarına verilmişdir. Bu nəşr barədə oxuculara məlumat verən professor Mədəd Çobanov yazır ki, "19 bölmədən ibarət olan monoqrafiya bədii söz ustadı M. Füzulinin sənətkarlığına həsr olunmuş 'Söz ustadı' bölməsi ilə başlayır. Müəllif burada şairin yaradıcılığından götürdüyü nümunədə deyilir:

'İlahi feyzdən bir xəzinədir söz,
Tükənməz sərf qısdıqca damədəm.
Məcazi şahların gənci deyil bu
Ki, bir həbə götürdükdə ola kəm'."

— bədii söz sənətinin nadir ustadı M.Füzulinin mahir sənətkarlığını və onun söz sənətinə olan baxışlarını yığcam və aydın şəkildə təhlil etmişdir" (Çobanov, 1973).

Monoqrafiya daha sonra ardıcıl olaraq "Əfsanə və gerçəklik", "Soruşa-soruşa Bağdada gedərsən", "Bərpa olunmuş həyat lövhələri", "Şairin anadan olması", "Şairin ölümünün öyrənilməsi", "Həqiqi şair aləmi yaxşı bəzər", "Məhəbbət əfsanəsi", "Əlyazmaları qalır", "Ehtiyatcı ödəyə bilmir", "Dərd dağılır", "Şeir var ki, həyatı əks etdirir", "Məhəbbət səndən güclüdür", "Müdrik əli və cahil ağlı" (Rində–Zahid), "Leyli və Məcnun əhvalatı", "Şairin ibadəti" kimi bölmələrlə davam edir.

Azərbaycan ədəbiyyatının klassiklərindən olan Məhəmməd Füzulinin yaradıcılığı, həyatı ədəbiyyatşünaslarımız tərəfindən üç yüz ildən çoxdur ki, öyrənilir və araşdırılır. Bu mənada, onun həyatı və

yaradıcılığının elə gizli, öyrənilməmiş yeri qalmamışdır. Təkcə Azərbaycan ədəbiyyatşünaslığı deyil, dünya ədəbiyyatşünaslığında da (rus, gürcü, türk, qazax, özbək, alman, ingilis və s.) onun ədəbi irsi araşdırma obyekti olmuşdur. Ona görə də milli arealdan kənarda aparılan araşdırmalar həmişə diqqət mərkəzində olmuşdur. Bu cəhətdən E. Cavelidzenin *Məhəmməd Füzuli: Həyatı. Mühiti. Yaradıcılığı* monoqrafiyasını həm füzulişünaslıqda, həm də Azərbaycan–gürcü ədəbi əlaqələrində yeni və çox qiymətli bir səhifə hesab etmək olar.

*"Müəllif bu monoqrafiyanı özünəməxsus bir üslubla yazmışdır. Bu da onun özündən əvvəlki tədqiqatları təkrar etməməsi ilə əlaqədardır." – qənaətində olan professor Mədəd Çobanov qeyd edir ki, "yuxarıdakı bölmələrdən göründüyü kimi, müəllif, hətta, monoqrafiyanın ayrı-ayrı başlıqlarında belə poetik xüsusiyyətləri saxlamışdır. Bu da oxucuya çox yaxşı tə'sir bağışlayır" (Çobanov, 1973).*

Akademik E.Cavelidzenin Məhəmməd Füzuli: Həyatı. Mühiti. Yaradıcılığı araşdırması yazı üslubu, tədqiqat diapazonu ilə bir qədər seçilir. Belə ki, tədqiqatçı Füzuli yaradıcılığını dərindən başa düşmək üçün onun mühiti və dövrünü də öyrənir. Monoqrafiyanın formasında da müəyyən yenilik var idi; tədqiqatçı akademik yazı üslubu ilə həyat və yaradıcılıq elementlərini, hadisələrə münasibətdə sərbəstliyi birləşdirə bilib və kiçik bir araşdırmada şairin həm həyatı, mühitini, həm də yaradıcılığını konseptual şəkildə araşdırmışdır. Demək lazımdır ki, sovet dövründə yazdığı tədqiqat işlərində də E.Cavelidze eyni yol ilə getmişdir ki, bu da tədqiqatçıya müəyyən sərbəstliklər vermişdir. Məlumdur ki, hər hansı bir şairin, yazıçının yaradıcılığını öyrənərkən onun dövrünü, mühitini də araşdırmaq lazım gəlir. E.Cavelidze də belə etmişdir; XV–XVI əsr Füzuli dövrünü öyrənmək üçün müxtəlif mənbələrə baş vurmuş və müsəlman aləminin mədəni həyatında Bağdadın yerini və mövqeyini müəyyən etməyə çalışır.

"Füzulişünaslar və filoloqlar üçün böyük əhəmiyyət kəsb edən kitab"ı "Füzulişünaslığa yeni bir hədiyyə" adlandıran professor Mədəd Çobanov yazır ki, "şairin (M. Füzulinin – M. Ç.) həyat və yaradıcılığı, onun sənətkarlıq xüsusiyyətləri, o dövrdə Şərqdə böyük mədəni mərkəz olan Bağdad şəhərində M.Füzulinin Azərbaycan dilində yazıb-yaradan şairlərin ədəbi məktəbində göstərdiyi fəaliyyəti və s. haqqında da əsərin yuxarıda göstərilən ayrı-ayrı bölmələrində ətraflı məlumat verilmişdir. Bu da kitabın məziyyətini xeyli artırır" (Çobanov, 1973).

Tədqiqatçı həmin dövrdə Bağdadın Şərqin mühüm mərkəzlərindən birini təşkil etdiyini, burada Şərqin təfəkkür tarixində məşhur olan alimlərin yaşadığını xüsusi qeyd edir. Baxmayaraq ki, M. Füzuli öz şeirlərində yaşadığı dövrdə poeziyanın qədir-qiymətinin bilinmədiyindən də söhbət açır ("Qədirsizdir bizim vilayətdə, / Ruha şadlıq verən gözəl əşar" və yaxud "Bir dövrdəyəm ki, nəzm olub xar, / Əşar bulub kəsadi-əsar"), lakin tədqiqatçı bu fikirdədir ki, bu dövrdə Bağdadda ədəbiyyata, mədəniyyətə xüsusi diqqət yetirilirdi. O, yazır: "Doğrudur, Füzulinin dövründə Bağdadın mədəni məişəti özünün qədimlərdə olan zəngin ənənələrindən geri qalırdı, lakin bu dövrdə də o, Şərqin şəhərlərini sənətin müxtəlif sahələrində arxada qoyurdu. XVI əsrin Bağdadında kifayət qədər güclü ədəbi məktəb mövcud idi. Başqa şeyləri bir yana qoyaq, bundan öz-özlüyündə Füzulinin poetik irsi xəbər verir" (Cavelidze, 2017, p. 23).

Tədqiqatçı bu fikrini möhkəmləndirmək üçün mənbələrə müraciət edir və Bağdad ədəbi dərnəklərində yetişən Füzulinin müasirlərinin, dövrün təzkirəçilərinə istinadən adlarını çəkir. Buradan aydın olur ki, bu dövrdə yazıb-yaradan Fəqiri, Sadiq, Ruhi, Kiram, Bağdadlı Qılıc bəy, Tənha bəy, Mövlanə Huş, Kəlai, Zaei, Kəlam, Hazan, Mir Qədri, Hasir, Zamir, Əli, Şəmsi Bağdadi kimi şairlərin əksəriyyəti Azərbaycan dilində yazıb-yaratmışdır. Tədqiqatçı bu şairlərdən bəzilərinin üzərində geniş dayanır və M. Füzuli yaradıcılığına təsir edə biləcək müasirlərinin yaradıcılığını da dəyərləndirir. Onlardan biri Əhdi Bağdadinin yaradıcılığı ilə yanaşı, həm də bir salnaməçi olduğunu xüsusi qeyd edir. Bu çox vacibdir, həm də ona görə ki, M.Füzulinin oğlu Fəzlinin şeirlər yazdığını bizə çatdıran yeganə təzkirəçidir və məhz onun sayəsində biz Fəzlinin şeirlər yazdığını öyrənirik.

Akademik E.Cavelidze şairin doğum tarixi və yeri barədə də müzakirə açır və müəyyən fikirlər söyləyir. Doğum tarixi ilə bağlı qəti bir qərara gələ bilməsə də, 1498-ci il üzərində dayanır. Demək lazımdır ki, bu tarixi Azərbaycan alimi Həmid Araslı ortaya qoymuş və digər şərqşünaslar kimi, E.Cavelidze də bununla razılaşmışdır. Ümumiyyətlə, M.Füzuli ilə bağlı araşdırmalarda Azərbaycan alimlərinin özünəməxsus rolu vardır və bir çox tədqiqatçılar kimi, E.Cavelidze də bir çox məsələlərdə bu fikirlərlə razılaşmaya bilmir.

Akademik Elizbar Cavelidze M.Füzulinin təxəllüsü barədə də müəyyən fikir söyləyir və bu zaman onun öz yazdıqlarına əsaslanır. Onun yazdığına görə, Məhəmməd "poeziya kəhkəşanında kəhər atını çapanda" özünə uyğun gələn təxəllüs axtarmağa başlayır və bu zaman "Füzuli" təxəllüsünü seçir. Şairin həyatını təsvir edərkən qəsidələrinə müraciət edərək bu qəsidələrdə ömürlüyünün bəzi səhifələrini açır. Məsələn, Bağdadın qazisinə həsr etdiyi qəsidədə yazdığı "Sən mənim cəzalanmağım barədə hökm veribsən, sözsüz ki, onun yenidən baxılmasına lüzum yoxdur" sətirlərinə əsaslanaraq belə bir qənaətə gəlir: "Şair işdən gərək ki, Səfəvilərin hökmranlığı dövründə çıxarılıb. Hər halda Osmanlılar Bağdada hökmranlıq edən vaxtlar Füzuli işsiz qalmışdı və böyük ehtiyaclar içində idi. O, Osmanlı əyanlarının könlünü almağa cəhd göstərir və onlara gözəl qəsidələr həsr edir ki, bunlarda da özünün iqtisadi sıxıntılarını, cəfalı həyatını dəfələrlə qeyd edir" (Cavelidze, 2017, p. 39).

Tədqiqatçı bunu yazarkən şairin qəsidələrinə – sədrəzəm İbrahim Paşaya, Nişançı Paşa Cəlal Çələbiyə, Ayaz Paşaya, qazıəskər Qazi Çələbiyə, Üveys Paşaya və başqa türk əyanlarına yazdığı tərif dolu qəsidələrə əsaslanırdı. Lakin buna baxmayaraq türk sultanlarının Füzuliyə o qədər də diqqət yetirməməsi, çox nadir hallarda ona cüzi lütfkarlıqlar göstərilməsini də ortaya çıxarır. Bu cür lütfkarlıqlardan biri də Sultan Süleyman Qanuniyə yazdığı qəsidə və Sultanın ona 9 axça təqaüd təyin etməsidir. Tədqiqatçının fikrincə, böyük cəfa və cəhdlərdən sonra şair hər halda istəyinə nail olur və 9 axça təqaüd almaq barədə Sultanın məktubunu almaq şairi "həddindən artıq fərəhləndirir". Lakin Şikayətnamedən də məlum olduğu kimi, şairin sevinci uzun sürmür və məmurlardan çəkdiyini satirik, ironik şəkildə ifadə edir.

Akademik E.Cavelidze Füzulinin qəzəllərini də təhlil edərək onu bir qəzəl ustası, məhəbbət şairi kimi də göstərir. Onun araşdırmasında *Leyli və Məcnun* poemasına ayrıca yer verilir, ərəb mənbələrinə də müraciət edərək rəvayətlərdə bu eşq dastanının hansı şəkildə ifadə olunduğunu təhlil edir. Məsələn, bir ərəb rəvayətində Leyli ilə Məcnunun görüşünü təsvir edərkən yazır: "Başqa rəvayətə görə, Leylinin gözəlliyi barədə xəbəri eşidən gənc onu görmək arzusunda olur və Leylinin öz rəfiqələri ilə baş çəkdiyi xanım Kərimənin ailəsinə gedib-gəlməyə başlayır. Bir gün onlar bir-birilə görüşürlər. Qeys qadınları qonaq etmək üçün dişi dəvə kəsir və beləcə bir neçə gün şadyanalıq edirlər" (Cavelidze, 2017, p. 107).

Gürcü türkoloq alimi, akademik Elizbar Cavelidzenin 1972-ci ildə Tbilisidə nəşr olunmuş *Məhəmməd Füzuli: Həyatı. Mühiti. Yaradıcılığı* (*ფუზული*, თბ., 1972) kitabının 2017-ci ildə Bakıda "Elm və təhsil" nəşriyyatında Azərbaycan dilində nəşrindən (Bakı, "Elm və təhsil", 2017, 144 p.) bir il sonra, 2018-ci ildə onun 1968-ci ildə Tbilisidə gürcü dilində nəşr olunmuş *Ruhi Bağdadi: həyatı, dünyagörüşü, lirikası* əsəri (*რუჰი ბაღდადი*, თბ., 1968) gürcü dilindən tərcümə olunaraq yenə Bakıdakı "Elm və təhsil" nəşriyyatında Azərbaycan dilində çap edilmişdir. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə Azərbaycan dilində nəşrinə məsləhət bilinmiş əsəri gürcü dilindən M.Məmmədoğlu tərcümə etmiş, elmi redaktorları A.Musayeva və B.Əhmədli; elmi məsləhətçi və ön sözün müəllifi akademik İ. Həbibbəylidir.

Akademik Elizbar Cavelidzenin *Ruhi Bağdadi: həyatı, dünyagörüşü, lirikası* əsəri daim Azərbaycan ədəbiyyatşünaslığının diqqət mərkəzində olmuşdur. "Azərbaycan elmi dairələrin 2018-ci ildə komparativistikaya aid marağın bir qədər zəif olması fonunda" gürcü türkoloq alimi, akademik Elizbar Cavelidzenin *Ruhi Bağdadi: həyatı, dünyagörüşü, lirikası* əsərinin Azərbaycan dilinə çevrilərək ictimaiyyətimizə təqdim edilməsinin xüsusi maraq doğurduğunu qeyd edən professor Salidə Şərifova yazır ki, "Azərbaycan şairi R. Bağdadi yaradıcılığının ətraflı şəkildə ilk dəfə tədqiqata cəlb edilən, sufilik və hurufilik təriqətlərinə münasibət bildirilən monoqrafiyada XVI əsr türk poeziyasının qızıl əsr hesab edilməsi faktı müəllif tərəfindən vurğulanmışdır" (Şərifova, 2019, pp. 343–347).

E. Cavelidze qeyd edir: "XVI əsr divanının çoxsaylı şairləri arasında yalnız bir neçəsi gözəl və həqiqi yaradıcı olaraq bizə yararlı ola bilər. Belə ki, onlar müasirlərindən yüksəkliklərə qalxdılar və özlərinin dəsti-xətti ilə türk milli kolorotini əks etdirən bir sıra əsərlər yaratdılar" (Cavelidze, 2018, p. 31).

"Əsər xüsusi maraq doğursa da, kitabda Azərbaycan və ümümtürk ədəbiyyatına qarşı qəsd buraxılmış mənfi elmi tezislər təəssüf doğurur" (Şərifova, 2019, pp. 343–347) – qənaətinə gələn pro-

fesssor Salidə Şərifova bir sıra nöqsanları xatırlatmaqla yanaşı, əsərin xeyli sayda müsbət məziyyətlərini sadalayır. Qeyd edir ki, Ruhi Bağdadinin həyat və yaradıcılığını ilk dəfə ətraflı şəkildə tədqiq etmiş E.Cavelidze onun "orta əsrlərin türk divan qəzəlinin ən yaxşı ustadları arasında layiqli yer" (Cavelidze, 2018, p. 195) tutmasını vurğulayır, şairin 17 bənddən ibarət olan, mefailü, mefailü failün vəznində qələmə alınmış "Tərkibənd"i haqqında yazır: "Üç əsr ərzində bu şeirə üç yüzdən artıq nəzirə yazılıb, lakin heç bir şair Ruhi Bağdadinin yüksəkliyinə qədər ucala bilmədi" (Cavelidze, 2018, p. 197).

Əlbəttə, akademik E.Cavelidze ilə əlaqələr onun *Məhəmməd Füzuli: Həyatı. Mühiti. Yaradıcılığı* və *Ruhi Bağdadi: həyatı, dünyagörüşü, lirikası* monoqrafiyalarının nəşri ilə bitməyib, akademik İ.Həbibbəylinin rəhbərliyi ilə onun yeni əsərləri də çapa hazırlanır.

**İsa Əkbər oğlu Həbibbəyli** 1949-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Danzik kəndində müəllim ailəsində anadan olmuş, 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının dil-ədəbiyyat fakültəsini Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

1971-ci ildən Şərur rayonunda Danzik kənd orta məktəbində müəllim, 1975-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim, dosent, 1991–1996-cı illərdə elmi işlər üzrə prorektor işləmiş, 1996–2013-cü illərdə Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsində çalışmışdır. Filologiya elmləri doktoru (1996), professor (1997), Azərbaycan Respublikasının Əməkdar elm xadimi (1999), Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Atatürk Kültür, Dil və Tarix Qurumunun müxbir üzvüdür. "Şöhrət" (2007) və "Şərəf" (2009) ordenləri ilə təltif olunub.

2003-cü ildə AMEA-nın həqiqi üzvü, 2013–2019-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, 2019–2020-ci illərdə birinci vitse-prezidenti, 2020–2022-ci illərdə yenidən vitse-prezidenti seçilmişdir. 2022-ci ilin oktyabr ayından isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidentidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür. Birinci və ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş, 1998–2005-ci illərdə Beynəlxalq münasibətlər və insan hüquqları komissiyasına rəhbərlik etmişdir. 2005–2024-cü illərdə III, IV, V və VI çağırış Azərbaycan Milli Məclisinin deputatı olmuş, Elm və təhsil komitəsinə rəhbərlik etmişdir. 2015-ci ildən Milli Məclisin Toponimiya Komissiyasının sədridir.

Azərbaycan Milli Ensiklopediyasının, eyni zamanda Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının *Terminologiya*, Azərbaycan Milli Elmlər Akademiyasının *Məruzələr*, *Elm və həyat*, AMEA Humanitar Elmlər Bölməsinin *Filologiya və sənətşünaslıq*, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun *Poetika.izm*, *Müqayisəli ədəbiyyatşünaslıq* jurnallarının baş redaktorudur.

Ədəbi cərəyanlar, ədəbi növlər və janrlar üzrə tədqiqatlar aparmış, ilk dəfə satiranın ədəbi növ, erkən realizm, postmodernizm, akademizm, magik realizmin isə ədəbi cərəyan olduğunu müəyyən etmişdir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında təkmetodlu ədəbiyyatdan çoxmetodlu bədii metoda keçid prosesinin baş verdiyini irəli sürmüş, Azərbaycançılıq, Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi və molla-nəsrəddinçilik konsepsiyalarını hazırlamış, XIX–XXI əsrlər Azərbaycan ədəbiyyatı tarixinə dair çoxsaylı tədqiqatları görkəmli alimlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik İsa Əkbər oğlu Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslığında böyük xidmətləri olan fədakar alimlərimizdəndir. AMEA-nın professoru, filologiya elmləri doktoru Salidə Şərifovanın vurğuladığı kimi, "elmi fəaliyyətində Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığına aid vacib bir sıra problemlərə daha geniş yer ayıran akademik İ.Həbibbəyli öz tədqiqatlarında Azərbaycan bədii irsinin qorunması, digər xalqlar tərəfindən Azərbaycan bədii nümunələrinin mənimsənilməsi və ədəbiyyatdan Azərbaycan xalqına qarşı istifadə edilməsi ilə mübarizə aparıcı yer tutur. Xüsusi qeyd etmək lazımdır ki, bu sahədə İ.Həbibbəylinin fəaliyyəti onun AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəhbəri və AMEA-nın akademik adı alması anından onilliklər əvvəl başlamışdır. Akademik İ.Həbibbəylinin Azərbaycan bədii irsini qoruması cəhdləri onu, bir tərəfdən Orta əsr Azərbaycan yazarlarının yaradıcılıqlarını hərtərəfli təhlilinə (ədəbiyyat məsələləri ilə yanaşı fəlsəfi problemlərin təhlili), digər

tərəfdən isə Orta əsr Azərbaycan ədəbiyyatının müasir Azərbaycan ədəbiyyatı ilə əlaqələrinin tədqiqinə sövq etmişdir" (Şərifova, 2019, pp. 4–16).

Professor Salidə Şərifova daha sonra yazır: "Akademik İ.Həbibbəyli ədəbiyyat vasitəsilə Azərbaycan tarixinin süni dəyişdirilməsi ilə də mübarizə aparır. Müasir Azərbaycan ədəbiyyatının mövzu problemlərini araşdırması zamanı İsa Həbibbəyli Ümummilli lider Heydər Əliyev obrazının ədəbiyyatda əksinə və vətənpərvərlik lirikasının əhəmiyyətinə önəmli diqqət yetirmişdir. Akademik İ. Həbibbəyli Azərbaycan ədəbiyyatında cərəyan və janrların inkişafının, ədəbiyyatşünaslığın və ədəbi tənqidin tədqiqinə elmi əsərlərində geniş yer ayırmışdır. İsa Həbibbəyli Müstəqil Azərbaycan ədəbiyyatının qarşısında duran vəzifələrin, keçdiyi inkişaf mərhələlərin tədqiqinə xüsusi diqqət yetirmişdir" (Şərifova, 2019, pp. 4–16).

Akademik İsa Həbibbəylinin elmi fəaliyyətində Tiflis və Tiflis ədəbi mühiti ayrıca rol oynamışdır. Məsələ burasındadır ki, onun tədqiqatlarının böyük bir hissəsi Cəlil Məmmədquluzadənin yaradıcılığına həsr olunmuşdur. C.Məmmədquluzadə isə Qori müəllimlər seminariyasını bitirmiş, ömrünün böyük bir hissəsi Tiflisdə keçmiş və bu ədəbi mühitdə yazıb yaratmışdır. *Şərqi-Rus* qəzetindəki fəaliyyəti, ilk hekayəsi "Poçt qutusu"nun çap olunması, Ömər Faiq Nemanzadə ilə birgə *Qeyrət* mətbəəsini işə salmaları və nəhayət Şərqin ilk satirik mətbuat orqanı *Molla Nəsrəddin*in buradan həyata vəsiqə alması və s. onu bu ədəbi mühitlə təkcə yaxın etməmiş, həm də bu mühitin bir parçası etmişdir.

Akademik İsa Həbibbəyli ancaq Cəlil Məmmədquluzadənin irsini tədqiq etməmiş, həm də ilk dəfə olaraq nəsil şəcərəsini tərtib etmişdir. Ədibin 4 cildlik *Əsərləri*ni Bakıda (2004), 2 cildlik *Seçilmiş əsərləri*ni Naxçıvanda (2009), əsərlərindən seçmələri Rusiyada (1999), Pakistanda (2004), Misir Ərəb Respublikasında (2008), Macarıstanda (2011), Litvada (2017), Bolqarıstanda, Özbəkistanda, Tacikistanda (2019) və başqa ölkələrdə nəşr etdirmişdir. Mirzə Cəlilin nəslinin Fransa və İrandakı davamçılarını tapmış (1992–1998), Polşadakı varislərinin Bakıya səfərini təşkil etmişdir (2019).

Akademik İsa Həbibbəyli C.Məmmədquluzadənin həyat və yaradıcılığını araşdırarkən dəfələrlə Gürcüstanda olmuş, həm Qori seminariyasının fəaliyyəti, həm də Tiflis ədəbi mühitində C.Məmmədquluzadənin ömür yolu və yaradıcılığı haqqında ona aid bir çox arxiv materiallarını ilk dəfə üzə çıxarmış və məlum etmişdir. "Qori seminariyası və Naxçıvan ziyalıları", "Çernyayevski və Naxçıvan ziyalıları", "Qori seminariyasında Puşkin günləri", "Maarif tariximizin elmi salnaməsi" və s. məqalələrində Qori seminariyası və Gürcüstan maarif mühitinin müxtəlif problemləri ilə bağlı apardığı araşdırmalar yeni bir istiqamət idi. Qori və Tiflis arxivlərində Azərbaycan maarif mədəniy-yətinə aid bir çox faktların və sənədlərin tapılıb üzə çıxmasında akademik İsa Həbibbəylinin böyük xidmətləri vardır. Məsələn, onun araşdırmaları nəticəsində məlum olmuşdur ki, M.Şahtaxtlı 1891-ci ilin iyun ayından etibarən *Kaspi* qəzetinə redaktorluq etmişdir (Həbibbəyli, 2007, p. 146).

Tədqiqatçı *Şərqi-Rus* qəzetinin redaktoru M.Şahtaxtlıya aid araşdırmalarında həm yeni sənədlər, faktlar üzə çıxarır, həm də onun fəaliyyəti haqqında müəyyən elmi qənaətlərə gəlir. M.Şahtaxtlının yaradıcılığı və fəaliyyətinin Tiflis dövrü ilə bağlı yazır: "Məhəmmədağa Şahtaxtlı 1902-ci ildə həyatında dördüncü dəfə Tiflisə qayıtmışdır. Bu dəfəki qayıdış artıq düşünülmüş, məqsədyönlü əməli fəaliyyətə istiqamətlənmişdi" (Həbibbəyli, 2007, p. 149). Tədqiqatçının araşdırmalarından o da məlum olur ki, M.Şahtaxtlı *Şərqi-Rus* qəzetini nəşr etmək üçün Şahtaxtı kəndindəki ata mülkünün özünə aid olan hissəsini on səkkiz min manata satıb Tiflisdə "mətbəə sazlmağa" sərf etmişdi. Bu tədqiqatlar nəticəsində məlum olur ki, ədib "...mətbəənin çap makinalarını Moskvada alman firmasının vəkili Millerin vasitəsilə əldə edib Tiflisə gətirtdirmiş, bundan sonra şriftləri, hərf kassalarını Tiflisdə Sadovaya küçəsində yerləşən alman *Mader* tökməxanasında hazırlatmışdır" (Həbibbəyli, 2007, p. 151). Bu cür detallı araşdırma yalnız arxiv sənədləri və faktları sayəsində mümkün olmuşdur.

Akademik İsa Həbibbəylinin C.Məmmədquluzadənin yaradıcılığı ilə bağlı araşdırmalarında Gürcüstan mövzusu mərkəzi xətt kimi keçir. Bu, təkcə ədibin Tiflis arxivlərindən əldə edilən tərcümeyi-hal materiallarında, fakt və sənədlərdə deyil, həm də bu mühit kontekstində düşünməsi və hərəkət etməsi baxımından əhəmiyyətli idi. C.Məmmədquluzadənin yaradıcılığının mahiyyəti, xarakteri, əsərlərinin ideyası, obrazlarının təhlili ilə yanaşı, onun tərcümeyi-halının ən kiçik səhifəsi də əhəmiyyətli və gərəklidir. Bu cəhətdən akademik İsa Həbibbəylinin ədibin Qori seminariyasındakı

tələbəlik illərinə aid yeni materialları əldə etməsi olduqca əhəmiyyətlidir və elmi dövriyyəyə yeni faktlar gətirir. Ona qədər C.Məmmədquluzadənin ömrünün bu illəri detallı şəkildə öyrənilməmişdir.

Bu araşdırmalardan məlum olur ki, C.Məmmədquluzadə Qori seminariyasında A.O.Çernyayevski, D.D.Semyonov, N.N.Novospasski, N.O.Lomouri, eləcə də azərbaycanlı müəllimlər Mirzə Əbdüssəlam Axundzadə, Səfərəli bəy Vəlibəyov kimi adlı-sanlı pedaqoqlardan dərs almış, onların ədəbi, maarifçi, pedaqoji görüşlərindən faydalanmışdır (Həbibbəyli, 2017b, p. 131).

O da aydın olur ki, seminariyada keçirilmiş mədəni-kütləvi tədbirlərdə gənc Cəlil yaxından iştirak etmiş, inşa və tərcümə dərslərində bacarığını yaxşı nümayiş etdirmişdir. Tələbə Cəlilin sınaq dərsinin icmalını arxivdən əldə etməsi tədqiqatçıya belə bir qənaətə gəlməyə imkan verir: "Cəlil Məmmədquluzadənin Qori seminariyasının nəzdindəki ibtidai məktəbdə pedaqoji təcrübə keçirərkən 29 sentyabr 1886-cı il tarixdə hazırladığı sınaq dərsinin icmalı onun yüksək dərəcədə yazı vərdişlərinə yiyələndiyini, ən müasir pedaqoji prinsiplərə malik olan cavan pedaqoq kimi formalaşdığını əyani şəkildə nümayiş etdirir" (Həbibbəyli, 2017b, p. 131).



Bu cür qənaətə ancaq faktların sayəsində, sənədlərin dili ilə gəlmək mümkün olardı ki, tədqiqatçı da məhz belə edir və Gürcüstan Xalq Maarif Muzeyindən C.Məmmədquluzadənin sınaq dərsinin icmalını əldə edərək yekun nəticəyə gəlir. Qafqaz Təhsil Dairəsinin o dövrə məxsus sərəncamlarını araşdıran tədqiqatçı onu da müəyyən edir ki, D.D.Semyonovun seminariyaya direktorluğu dövründə dərslərində yüksək nəticələr əldə edən Cəlil mütərəqqi, demokratik ideyalılığına görə direktorluqdan uzaqlaşdırılan D.D.Semyonovdan sonra seminariyada qadağalar çoxaldığından, sərt rejim tətbiq edildiyindən Cəlilin təhsil göstəriciləri aşağı düşmüşdür. 1887-ci il yanvarın 16-da şəhərdəki konsertdən sonra yataqxanaya gec gəldiyinə görə ona töhmət verilməsi də əslində bir bəhanə olmuşdu, həqiqətdə isə C.Məmmədquluzadə Qori seminariyasında ciddi təkamül prosesi keçirmiş və onun buradakı tələbəlik illəri yaradıcılığına da öz təsirini göstərmişdir.

Akademik İsa Həbibbəylinin *Cəlil Məmmədquluzadə: mühiti və müasirləri* (Bakı: Azərnəşr, 1997) kitabı fakt və sənəd zənginliyi ilə olduqca əhəmiyyətlidir. Bu faktların, sənədlərin böyük bir hissəsi Gürcüstan arxivlərindən əldə edilmiş və ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir.

Akademik İsa Həbibbəyli, Cəlil Məmmədquluzadə ilə yanaşı, Məhəmməd Tağı Sidqi, Məhəmməd ağa Şahtaxtlı, Məmməd Səid Ordubadi, Eynəli bəy Sultanov, Məmməd Cəfər Cəfərov, Ələkbər Qərib və başqalarının da naməlum əsərlərini tapmış və ilk dəfə nəşr etdirmişdir.

Akademik İsa Həbibbəylinin elmi araşdırmalarında olduğu kimi, fəaliyyətində də qardaş Gürcüstan faktoru əsas rol oynamışdır. Akademik E.Cavelidzenin hələ sovet dövründən türk və Azərbaycan ədəbiyyatı haqqında apardığı araşdırmalar müəyyən dərəcədə qarşılıqsız qalmışdı. O isə hələ sovet dövründə Səməd Vurğun – Georgi Leonidze dostluğunun elmdəki davamı Dilarə Əliyeva – Leyla Eradze tandemini yeni mərhələdə davam etdirdi. B.Əhmədlinin yazdığı kimi: "...vaxtilə Dilarə Əliyeva ilə Leyla Eradzenin simasında ədəbi ilişgilər sonrakı mərhələdə, demək olar ki, yaddan çıxmış, yaxud əvvəlki səviyyədə davam etməmişdi. Halbuki Azərbaycan və gürcü xalqlarını bir-birinə bağlayan ortaq siyasi, iqtisadi, ədəbi-mədəni amillər yetərincədir. Bunu bir qədər də irəliyə aparmaq yeni nəsil ziyalılarının öhdəsinə düşür. Görünür, buna görə akademik İsa Həbibbəyli bu dostluğu davam etdirmək üçün yenidən təməl addımların atılmasını lazım bilmişdir" (Əhmədli, 2017).

Akademik İsa Həbibbəyli 2017-ci ildə Gürcüstan Elmlər Akademiyasının həqiqi üzvü, böyük türkoloq və tanınmış şərqşünas alim Elizbar Cavelidzenin anadan olmasının 80 illiyi münasibətilə Tbilisidə keçirilmiş elmi sessiyada iştirak etmişdir. Yubiley tədbirini Gürcüstan Elmlər Akademiyasının sabiq prezidenti, akademik Georgi Kvasitadze açaraq görkəmli türkoloq alim, akademik Elizbar Cavelidzenin şərqşünaslıq elminin inkişafındakı xidmətlərindən bəhs etmişdir (Xədicə, 2017).

"Akademik Elizbar Cavelidze və Azərbaycan" mövzusunda geniş məruzə ilə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Elizbar Cavelidzenin çoxcəhətli yaradıcılığına elmi qiymət verməklə bərabər, onun Azərbaycan ədəbiyyatının tədqiqi sahəsindəki xidmətlərinin ölkələrimiz arasındakı elmi-mədəni əlaqələrin daha da inkişaf etdirilməsinə sanballı töhfələr verdiyini vurğulamışdır. Gürcüstan türkologiyasının lideri olan akademik Elizbar Cavelidzenin orta əsr Azərbaycan şairi Ruhi Bağdadi haqqında yazılmış elmi əsərini bu az tanınmış böyük sənətkardan bəhs edən nadir mənbə adlandıran akademik İ.Həbibbəyli onu da bildirmişdir ki, Elizbar Cavelidze türk ədəbiyyatının qüdrətli simaları olan Cəlaləddin Rumi, Yunus Əmrə, Aşıq Paşa haqqındakı elmi-tədqiqat əsərləri ilə birlikdə Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi Məhəmməd Füzuliyə həsr edilmiş sanballı monoqrafiyası ilə dünya füzulişünaslığını daha da zənginləşdirmişdir. Akademik Elizbar Cavelidzenin həmkarı professor Georgi Şağulaşvili ilə birlikdə *Kitabi-Dədə Qorqud* dastanlarını gürcü dilinə tərcümə edərək kitab halında nəşr etdirməsi Azərbaycan-Gürcüstan ədəbi-mədəni əlaqələrinin əlamətdar hadisəsidir. Akademik Elizbar Cavelidze sufizm və hürufizm cərəyanlarının tanınmış tədqiqatçılarından biridir. Onun İmadəddin Nəsimiyə aid tədqiqatlarında bir çox fərqli elmi məqamlar diqqəti cəlb edir (Xədicə, 2017).




Elmi sessiyada Türkiyədən professor İlyas Üstünyərin "Gürcüstan ədəbiyyatşünaslıq elmində Elizbar Cavelidze mərhələsi" mövzusunda məruzəsi də maraqla dinlənilmiş, Gürcüstan Elmlər Akademiyasının prezidenti, akademik Roin Metreveli, professor Yelena Cavelidze, Vladimir Minaşvili, Eliko Machitadze, Marika Çikiya, Georgi Ciqauri və başqalarının məruzələrində gürcü türkologiyasının patriarxının çoxcəhətli elmi fəaliyyətinin ayrı-ayrı istiqamətləri geniş təhlil edilərək yüksək qiymətləndirilmişdir (Xədicə, 2017).

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Tbilisi səfəri çərçivəsində Gürcüstan MEA-nın Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunda olmuş, qarşılıqlı elmi əməkdaşlıq məsələlərini müzakirə etmişdir. Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunda həyata keçirilən *Şota Rustaveli və Nizami Gəncəvi* layihəsinin icra edilməsində Nizami adına Ədəbiyyat İnstitutunun iştirakı məsələləri ətrafında söhbət aparılmışdır. Gürcü Ədəbiyyatı İnstitutunun direktoru, professor İrma Ratiani, *Şota Rustaveli və Nizami Gəncəvi* layihəsinin icraçı direktoru, professor Maka Elbakidze görkəmli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin Şərq aləmində və Qafqazda intibah mədəniyyətinin yaranması və inkişaf etdirilməsindəki rolundan danışaraq, intibah proseslərinin öyrənilib dəyərləndirilməsində qarşılıqlı ədəbi-mədəni əlaqələrin yenidən araşdırılmasının əhəmiyyətini nəzərə çatdırmışdır (Xədicə, 2017).

## Nəticə

Azərbaycan və Gürcüstan dostluğunun, qardaşlığının inkişafında akademik İsa Həbibbəyli – akademik Elizbar Cavelidze elmi tandemi hər iki xalqın ədəbiyyatşünaslığının inkişafını gələcəkdə şərtləndirən amillərdəndir. Elə buna görə də, iki dost və qonşu xalq arasında elmi inkişafın təşviq edilməsində oynadığı rola görə akademik Elizbar Cavelidze 1989-cu ildə Azərbaycan Respublikası Ali Sovetinin fərmanı ilə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, akademik İsa Həbibbəyli isə Gürcüstan Milli Elmlər Akademiyasının 10 iyul 2024-cü il tarixli qərarı ilə Gürcüstan Milli Elmlər Akademiyasının xarici üzvü seçilmişdir. Bunu Azərbaycan dövlətinin qardaş gürcü elminə, eləcə də qardaş Gürcüstanın Azərbaycan elminə verdiyi yüksək qiymətin ifadəsi hesab edirik.

## Ədəbiyyat

1. Cavelidze, E. (2017). *Məhəmməd Füzuli: həyatı, mühiti, yaradıcılığı.* Elm və təhsil.

2. Cavelidze, E. (2018). *Ruhi Bağdadi (həyatı, dünyagörüşü, lirikası).*
3. Cavelidze, E. (2022, 31 yanvar). Türkdilli xalqların əxlaqi-estetik aləmi. *Yeni yol* qəzeti, 2(149), 6. https://yeniyol.ge/assets/pdf/b2232ec2a70e90-9df57e010430ed0b33%201644048055%2037922.pdf; https://yeni-yol.ge/news/other/362
4. Cavelidze, E. (2024, 24 fevral). Gülüşün estetikası. *Yeni yol* qəzeti, 9(199), 7. https://yeniyol.ge/assets/pdf/b2232ec2a70e909df57e010430ed0b33-%201709886481%2051005.pdf; https://yeni-yol.ge/news/other/780
5. Çobanov, M. (1973, 17 yanvar). Füzuli gürcü ədəbiyyatşünaslığında. *Azərbaycan müəllimi* qəzeti, 6(2478).
6. Əhmədli, B. (2017, 18 dekabr). Badano Elizbar Cavelidze. *Literature.az.* https://literature.az/?page=161&newsId=85590&lang=aze
7. Həbibbəyli, İ. (2007). *Ədəbi-tarixi yaddaş və müasirlik.* Nurlan.
8. Həbibbəyli, İ. (2017a). *Ədəbi şəxsiyyət və zaman.* Elm və təhsil.
9. Həbibbəyli, İ. (2017b). Akademik Elizbar Cavelidzenin Füzulinaməsinə. İçində E. Cavelidze, *Məhəmməd Füzuli: həyatı, mühiti, yaradıcılığı*. Elm və təhsil, 3–4.
10. Xədicə. (2017, 21 dekabr). Akademik Elizbar Cavelidze və Azərbaycan Tbilisidə maraqla qarşılandı. *525-ci qəzet.* https://525.az/?name=x%C9%99b%C9%99r&news_id=91615; https://science.gov.az/az/news/open/7026
11. *Istoriya esteticheskoy mysli* (Cild 1: Drevniy mir, sredniye veka). (1985). Iskusstvo.
12. Literature.az. (2017, 22 iyun). Cavalidze, Elizbar. *Məhəmməd Füzuli: həyatı, mühiti, yaradıcılığı.* https://literature.az/?page=161&newsId=85590&lang=aze
13. Silaqadze, A. (2017). Gürcü türkologiyasının lideri. İçində E. Cavelidze, *Məhəmməd Füzuli: həyatı, mühiti, yaradıcılığı*. Elm və təhsil, 5–8.
14. Şərifova, S. (2019a). Akademik İsa Həbibbəylinin elmi tədqiqatlarının əsas istiqamətləri. *Elm və həyat,* 1(466), 4–16.
15. Şərifova, S. (2019b). Azərbaycan ədəbiyyat tarixçiliyi (2018-ci il materialları əsasında). İçində *Ədəbi proses-2018*. Hədəf, 343–347 https://zim.az/elm/humanitar/4490-azerbaycan-edebiyyat-tarixchiliyi-2018-ci-il-materiallari-esasinda.html

Daxil oldu: 06.05.2025
Qəbul edildi: 21.08.2025

DOI: https://doi.org/10.36719/2663-4619/121/41-48

**Kəmalə Qəhrəmanova**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0007-4047-8729
kemalegahramanova85@gmail.com

# *Elaeagnus caspica* bitkisi və ondan dərman nanohissəciklərinin alınması perspektivləri

## Xülasə

İcmal məqalədə dərman bitkisi kimi tanınan iydə ağacının (Elaeagnus caspica) meyvə və çiçəklərinin morfofizioloji xüsusiyyətləri, fitokimyəvi tərkibi, farmakoloji xüsusiyyətləri, müxtəlif xəstəliklərdə tətbiqi və onun müxtəlif ekstraktlarında sintez edilən nanohissəciklər haqqında geniş tədqiqat məlumatları verilmişdir. İydə ağacının çiçəklərindən və meyvələrindən bir sıra farmakoloji təsirlərinə görə istifadə edilir və son illərdə intensiv şəkildə öyrənilir. Bu bitkinin çiçəkləri və meyvələri biotibbi potensiala malik çoxsaylı bioloji aktiv birləşmələrə sahibdir.

İydənin təzə yetişmiş meyvələrindən alınan tinktura homeopatiyada, xalq təbabətində isə çiçəklərindən ödem, sinqa, antihelmintik, kolit, ürək xəstəliklərinin yüngülləşdirilməsində istifadə olunur. Yarpaqlarından – revmatizm, küt ağrıların azaldılmasında və həmçinin yara sağaldıcı məlhəmlərdə istifadə edilir. İydə meyvələrindən kulinariyada əlavələr kimi yararlanılır. İydə bitkisinin yarpaq və çiçəklərindən həzm sisteminin müalicəsi üçün büzücü maddələrin alınmasında istifadə edilir. 5–12 illik iydə ağacı saqqız ifraz edə bilir. İydə ağacı torpaqbərkitmə işlərində, sudanqorunma vasitəsi kimi, bağlarda və parklarda əkilir.

***Açar sözlər:*** *iydə ağacı, çiçəklər, farmakoloji xüsusiyyətləri, yaşıl sintez, nanodərman*

**Kamala Gahramanova**
Baku State University
PhD student
https://orcid.org/0009-0007-4047-8729
kemalegahramanova85@gmail.com

# *Elaeagnus Caspica* Plant and Prospects for Obtaining Medicinal Nanoparticles From it

## Abstract

This review article provides comprehensive research information on the morphophysiological properties, phytochemical composition, pharmacological properties, applications in various diseases, and nanoparticles synthesized from the extracts of the fruits and flowers of the Elaeagnus caspica tree, known as a medicinal plant. The flowers and fruits of the Elaeagnus caspica tree have been extensively studied in recent years due to their numerous pharmacological effects. They contain a variety of biologically active compounds with biomedical potential. The tincture made from freshly ripe fruits of the tree is used in hemopathy, while its flowers are used in folk medicine for edema, scurvy, as an anthelmintic, to relieve colitis, and heart diseases. The leaves of the tree are used to reduce rheumatism and dull pain, and are also included in wound healing ointments. The fruits are used as additives in culinary dishes. Additionally, the leaves and flowers are used to create astringents for treating digestive system issues. A 5-12-year-old Elaeagnus caspica tree has shown promising potential for medicinal nanoparticle synthesis.

***Keywords:*** *Elaeagnus, flowers, pharmacological properties, green synthesis, nanomedicine*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

İydə, bitkilər aləminin gülçiçəklilər dəstəsinin iydəkimilər fəsiləsinə aid bitki cinsidir. Plane-timizin florasının tərkibində iydə (*Elaeagnus*) fəsiləsinin üç cinsi və əlliyə qədər növü yayılmışdır. Bu fəsilənin növləri əsasən ağaclar və kollardır. Bitkilərə subtropik və mülayim iqlim zonalarında rast gəlmək mümkündür.

Fəsiləyə aid kənd təsərrüfatı əhəmiyyətli cinslərindən biri iydə *Elaeagnus* hesab olunur. Bu cinsə təxminən qırx beşdən artıq növ daxildir. Qafqazda, eləcə də Azərbaycanda iki növü yayılmışdır: dar yarpaqlı iydə (*Elaeagnus angustifolia*) və Xəzər iydəsi (*Elaeagnus caspica*). Bundan başqa, Azərbaycanda iki növ iydə becərilir. Onlardan biri tikanlı və ya daim yaşıl iydə (*Elaeagnus pungens*), digəri isə şərq iydəsi (*Elaeagnus orientalis*) adlanır. Azərbaycanda becərilən bütün iydə növlərinin meyvələri yeməlidir.

**Tədqiqat**

İydə bitkisinin vətəni Asiya ölkələri hesab edilir. Ümumiyyətlə, iydə Asiyanın şimal bölgələrindən Himalaya və Avropaya qədər geniş yayılmışdır (Ahmadiani et al., 2000). Buna baxmayaraq, iydə bitkisinə həm də Şimali Amerika və Avstraliyada rast gəlmək mümkündür. Bu bitkinin növ və yarımnövləri bir-birindən xarici görünüşünə, meyvələrinə və digər xüsusiyyətlərinə görə fərqlənir.

İydə 3–7 m hündürlüyündə kol və ya ağacdır. Ümumiyyətlə, iydə növləri yarpaqlı, həmişəyaşıl kol və kiçik ağaclardır. Yarpaqları növbəli düzülmüşdür, alt səthi adətən xırda, gümüşü pulcuqlarla örtülüdür. Onun çiçəkləri kiçik, çox da gözə çarpmayan, lakin adətən ətirli, parlaq sarı rənglidir. Çiçəkləri bal arıları üçün nektar mənbəyidir.

Bitki 5–6 ildən sonra meyvə verir. Meyvələri isə 2–3 sm uzunluğunda, unlu, şirintəhər, ovalvari və ya şar formasındadır. Həm ağacların, həm də yarpaq və meyvələrin ümumi görünüşü zeytunu xatırladır. Adətən, uzun ömürlü (80–100 il) ağacdır. Bu ağac sərt ekoloji şəraitə dözə bilir. Belə ki, daşqın, şiddətli quraqlıq, torpaqların qumlu, yüksək şoranlı və ya qələviliyi bitkinin inkişafına mane olmur. Bu bitki quraq bölgələrdə ekosistemin saxlanması üçün əhəmiyyətlidir (Wang et al., 2006; Asadiar et al., 2012).

**Şəkil 1.Vİydə ağacı, çiçəkləri və çiçəklərindən alınan ekstraktda sintez olunmuş gümüş nanohissəciklərinin məhlulu.**



İydənin yarpaqlarının, meyvə və çiçəklərinin tərkibi bioloji aktiv maddələrlə çox zəngindir. Bitkinin tərkibindəki birləşmələrin miqdarı xarici mühit amillərindən və bitkinin yayıldığı ərazidən asılıdır. *Elaeagnus caspica* iydə növünün meyvələrinin tərkibində şəkərlərin miqdarı 40%, o cümlədən qlükoza və fruktoza 20%, zülalların miqdarı 10%, kalium və fosfor duzlarının miqdarı isə 40% qədər olur. Bundan başqa, meyvələrin tərkibində sərbəst və birləşmiş tanninlər, üzvi turşular, alkaloidlər, dubil və boyaq maddələri vardır. Çiçəklərinin tərkibində 0,3% ətirli efir yağları müəyyən edilmişdir.

*Elaeagnus angustifolia* iydənin meyvələrinin tərkibində 10,46% su, 64,25% şəkər, 11,91% sellüloza, 10,57% zülal, 2,48% kül, 1,3% üzvi turşular mövcuddur. Həmçinin, yarpaqlarının tərkibində 200 mq%-ə qədər, meyvənin lətli hissəsində isə 45 mq% C vitamini vardır (Qasımov və b., 2006).

Ümumiyyətlə, fitokimyəvi tədqiqatlar bitkinin tərkibində müxtəlif flavonoid siniflərinin olduğunu göstərir (Langendoen et al., 2009). Araşdırmaların nəticələri göstərmişdir ki, iydə bitkisinin

yarpaqlarında fenol və flavonoid birləşmələrinin miqdarı çiçəklərinə nisbətən daha çoxdur (Sabonchian et al., 2014). İydə bitkisinin çiçəklərindən alınan ekstraktlarda 7 yeni asilləşdirilmiş izorhamnetin qlikozidini ayırmışlar (Bendaikha et al., 2014). Wang və əməkdaşları (2013) iydə çiçəklərindən dörd flavonoid birləşməsini də izolə etmişlər.

Araşdırmalar nəticəsində iydə bitkisinin kök, kök qabığı, budaqları, gövdəsi və yarpaqlarında dəmir, qurğuşun, mis, kadmium, sink, xrom, nikel və kobalt olduğu müəyyən edilmişdir (Khan et al., 2013). Onun meyvələrinin tərkibində daha çox kalium (8504 mq/kq), natrium (1731 mq/kq) və fosfor (635 mq/kq) müəyyən edilmişdir (Cansev et al., 2011). Digər bir araşdırmanın nəticələrinə görə iydə çiçəklərinin ekstraktı tilirosid (24,2 mq/q ekstrakt) ilə zəngindir (Jia Li et al., 2019).

İydə bitkisinin meyvələrindən alınan ekstraktda bəzi yağ turşuları – laurik, tridekanoik, miristik, pentadekanoik, palmitik, palmitoleik, heptadekanoik, linoleik, oleik, stearik, eikosanoik və dokosanoik turşularının olduğu müəyyən edilmişdir. Həmçinin, təzə və ya qurudulmuş halda meyvələri tokoferol, karotenoid, vitamin C, tiamin (vitamin B1), kalsium, maqnezium, kalium, dəmir və manqan kimi mineral maddələrin mənbəyi hesab edilir (Boudraa et al., 2010).

Bitkinin yetişmiş meyvələri karbohidratlarla və taninlərlə zəngindir. Onun tərkibində 10% zülallar, duzlar, alkaloidlər, polisaxaridlər, efirlər, flavon qlikozidlər, fenollar, fenolik turşular, ketonlar, fenil efirləri, pirimidinlər, steroidlər, terpenlər, flavonoidlər və ürək qlikozidləri kimi bioloji aktiv maddələr vardır. Bitkinin digər hissələrində alkaloid, eleaqnin, tetrahidroharmol, taninlərin mövcudluğu müəyyən edilmişdir.

İydə çiçəklərinin tərkibi efir yağı ilə zəngindir. Eyni zamanda onun tərkibində etil sinnamat (60,00%), heksahidrofarnezil aseton (9,99%), palmitik turşu (5,20%), fitol (3,29%) mövcuddur. Bitkinin yarpaqlarında isə etil sinnamat (37,27%), fitol (12,08%), heksenilbenzoat (7,65%) və vitamin C müəyyən edilmişdir (Sadırova və b., 2017).

Ədəbiyyat məlumatlarına əsasən, iydə bitkisinin təzə çiçəklərinin çəkisinin 0,1%-ni təşkil edən efir yağının tərkibində 85 komponent mövcuddur və onlardan 47-si müəyyən edilmişdir. Əsas komponent etil trans-sinnamat 78,88% təşkil edir. Çiçəklərin heksan ekstraktının araşdırılması nəticəsində onun tərkibində sterol və triterpenol efirlərinin varlığı müəyyən edilmişdir. Məlum olmuşdur ki, toxum yağı linoleik turşu ehtiva edir (Goncharova et al., 1997).

Aparılan başqa bir təcrübənin nəticələri *E. angustifolia* çiçəyinin (saplaqlı) fenolik birləşmələrlə zəngin olduğunu göstərir. Bu hissələrdə müxtəlif fenolik birləşmələr – gallic turşusu, dihidroksibenzol turşusu, p-kumar turşusu, salisilik turşusu, izokersitrin və trans-sinnamik turşu kimi qiymətli maddələr aşkar edilmişdir (Zor Melek et al., 2025). Tədqiqatlar nəticəsində *E. angustifolia L.* çiçəyi və yarpaqlarında yüksək fenol və flavonoid birləşmələri aşkar olunmuşdur.

Qaz xromatoqrafiya–mass spektrometriya ilə aparılan araşdırmanın yekunu olaraq etil asetat (38,95%), izobutil asetat (2,71%), aseton (1,18%), fitol (3,57%), izokuinolin, 1-[(3,4-diezoksifenil)metil].n-heskadekanol turşusu (5,61%), 9-oktadekon turşusu, 1,2,3-propanetril ester (10,72%), bis(2-etilheksil)ftalat (3,48%), skualen (1,40%), oktadekanol turşusu (1,78%), n-propil asetat (4,09%), 2,2-dimetil-3-(3,7,16,20-tetrametil) (1,12%) və 1,6,10,14,18,22-tetrakosaheksaen-3-ol (1,195%) kimi müxtəlif maddələr müəyyən edilmişdir (Aiman Laraib Syed et al., 2023).

İydənin gövdə və budaqlarının tərkibində 0,1% alkaloidlərdən eleaqnin $C_{12}H_{14}O_2$ (605 mq%), tetrahidroharmol $C_{12}H_{14}ON_2$, 0,001% N-metiltetrahidroharmol $C_{12}H_{16}ON_2$, aşı və boyaq maddələri aşkar edilmişdir.

Çiçəklərinin tərkibində 0,3%-ə qədər efir yağı, yarpaqlarında 140–350 mq% askorbin turşusu, meyvələrində 40% karbohidrat (20%-ni fruktoza təşkil edir), 10% zülal, aşı maddəsi və selikli maddələr müəyyən olunmuşdur. Gövdə və yarpaqlarında çoxlu miqdarda qatran maddəsi vardır (Qasımov və b., 2006).

Aparılan fitokimyəvi tədqiqat işində iydənin tərkibində flavonoidlərdən luteolin, izorhamnetin və izorhamnetin-3-0-b-D-qalaktopiranozid, fenol birləşmələrdən isə daha yüksək miqdarda mövcud olan 4-hidroksibenzol turşusu (45,8 mq/100 q quru çəki) və kofein turşusu (32 mq/100 q quru çəki) müəyyən edilmişdir. Həmçinin, tərkibində həll olunan şəkərlər arasında fruktoza (27,1% quru çəki), qlükoza (22,3% quru çəki) və yüksək miqdarda qatılaşdırılmış taninlər vardır. **Taninlər** müxtəlif bitki

hissələrində rast gəlinmişdir, məsələn, daha yüksək miqdarda ağacın qabığında və az miqdarda yarpaq və budaqlarda (Boudraa et al., 2010).

Tədqiqatlar nəticəsində dənizkənarı ərazidən toplanan *Elaeagnus angustifolia L.* çiçəklərindən alınan efir yağının (yağın miqdarı 0,05% təşkil edir) tərkibində limonen 1,068% və anetol 0,1855% olmaqla iki birləşmə müəyyən edilmişdir. Bundan əlavə, efir yağında aşağıdakı altı komponentin mövcudluğu sübut olunmuşdur: etil sinnamat, 2-fenil-etil benzoat, 2-fenil-etil izovalerat, nerolidol, skualen və asetofenon (Laura Bucur et al., 2007).

**İydə dərman bitkisi kimi**

İydə bitkisi həm də qiymətli dərman bitkisi hesab olunur. Müalicə məqsədilə (müxtəlif xəstəliklər və onların simptomlarını) bitkinin meyvəsi, yarpağı və çiçəyi qədim dövrlərdən bəri istifadə edilir. Xalq təbabətində *E. angustifolia* əzələləri rahatlaşdırmaq, ağrıları azaltmaq, iltihabı və qızdırmanı yüngülləşdirmək, xoraları sağaltmaq üçün geniş istifadə edilmişdir (Abizov et al., 2008). Bundan başqa, xalq təbabətində iltihabı və astmanı müalicə etmək üçün bu bitkinin istifadəsi ayrı-ayrı xalqlar tərəfindən tətbiq olunmuşdur (Chen et al., 2014).

Müalicə məqsədilə bitkinin müxtəlif hissələri, xüsusilə meyvə və çiçəkləri ənənəvi olaraq istifadə edilmişdir. İydə ürəkbulanma, öskürək, astma, qızdırma, sarılıq və ishal kimi müxtəlif ümumi xəstəliklərin müalicəsində uğurla tətbiq edilmişdir. Bitkinin meyvəsi, çiçəyi, yarpağı və qabığının həlimi və dəmləməsi tetanoz kimi xəstəliklərdə istifadə olunmuşdur. İran xalq təbabətində çiy və ya qaynadılmış meyvələri boğaz ağrısı, öskürək, qrip, soyuqdəymə, qızdırma, ürəkbulanma, qusma, sarılıq, astma, ishal və bəzi digər simptomların müalicəsi və revmatoid artrit xəstələrində ağrı və iltihabın aradan qaldırılması məqsədilə tətbiq olunmuşdur.

Eyni zamanda yara sağalma prosesini sürətləndirmək üçün zədələnmiş sahəyə meyvə ekstraktının tətbiqinin yaxşı təsir etdiyi göstərilmişdir (Boudraa et al., 2010). Bu bitki həmçinin sidik yollarının, mədə xəstəliklərinin, qusmanın, sarılığın və meteorizmin müalicəsində istifadə olunur.

Son farmakoloji tədqiqatlarda bitkinin əzələ gərginliyinin aradan qaldırılmasında, əzələ fəaliyyətinin bərpa olunmasında rolu, eyni zamanda antibakterial və iltihabəleyhinə təsirlərə malik olduğu göstərilmişdir (Faramarz et al., 2015). İydə bitkisinin antioksidant, iltihabəleyhinə və anti-mutagen xüsusiyyətləri mövcuddur. Əsasən meyvələrində mövcud olan flavonoidlər yüksək antioksidant xüsusiyyəti ilə sərbəst radikalların yox edilməsində mühüm rol oynayır. Bundan başqa, tərkibindəki taninlərin anti-xolesterol təsiri sübut edilmişdir.

Belə ki, iltihabəleyhinə, xərçəngə qarşı təsir göstərməsi və əlavə olaraq dəri toxumalarının yaralı nahiyəsində sağalma müddətini azaltması tədqiqatlarda öz əksini tapmışdır (Boudraa et al., 2010). Aparılan araşdırmalar nəticəsində iydənin tərkibində likopenin mövcudluğu və onun antioksidant xüsusiyyətləri məlum olmuşdur. Bundan əlavə, in vitro xərçəngə qarşı təsir göstərməsi aydınlaşdırılmışdır (Fonia et al., 2009).

İydə çiçəyindən alınan efir yağının tərkibindəki komponentlər ona antiseptik və iltihabəleyhinə xüsusiyyətlər qazandırır. Bu efir yağından bəzi dermatoloji xəstəliklərin müalicəsində istifadə olunur (Laura Bucur et al., 2007). Müəyyən edilmişdir ki, *E. angustifolia L.* meyvə ekstraktları siçovullarda iltihabı azaltmağa, yaraların sağalma prosesini sürətləndirməyə (flavonoidlərin və antioksidantların mövcudluğu səbəbilə) əhəmiyyətli təsir göstərir və epidermisin bərpasını təmin edir (Mohammed et al., 2006).

İran ənənəvi xalq təbabətində iydənin qurudulmuş yarpaqlarının tozundan qanaxma və yara sağalma prosesini sürətləndirmək üçün bir vasitə kimi istifadə edildiyi qeyd edilir (Koca et al., 2011). İranın sağlamlıq mərkəzlərindən birində iydə çiçəyinin efir yağından istifadə etməklə qadınlarda cinsi funksiyanın dəyişiklikləri izlənilmişdir. Bu təcrübələrdə üç qrupa ayrılmış qadınlara 4 həftə ərzində iydənin efir yağından istifadə etməyi tapşırılmışdır. Nəticədə qadınlarda cinsi funksionallığın yaxşılaşması müşahidə edilmişdir (Behnaz Jafari Mashhad et al., 2023).

Müəyyən edilmişdir ki, iydənin təzə tər çiçəklərindən alınan tinktura ürək əzələsinin işinə stimullaşdırıcı təsir göstərir və həmçinin yuxusuzluğa qarşı vasitə kimi istifadə olunur (Goncharova et al., 1997). Başqa bir tədqiqat işində iydə yarpaqlarının sulu ekstraktının müəyyən xəstəliklərdə effektivliyi öyrənilmişdir. Təcrübələr ürəyində işemiya olan laboratoriya siçovulları üzərində aparılmışdır. Bu təcrübələrin nəticələri göstərmişdir ki, *E. angustifolia L.* bitkisinin sulu ekstraktı 0,5 mq/mL və

1,0 mq/mL dozalarda ürəyin bərpasını, funksiyasını və miokardın biokimyəvi göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırır (Wang et al., 2014).

Siçovullar üzərində aparılan başqa bir təcrübədə *E. angustifolia L.* bitkisinin sulu ekstraktının müəyyən dozalarla qəbulu onların məkan öyrənmə qabiliyyətini və yaddaşın təkmilləşməsini yaxşılaşdırdığı sübut olunmuşdur (Ge et al., 2009). Tədqiqatlar nəticəsində iydə bitkisinin meyvəsinin tərkibində mövcud olan iki polisaxaridin antioksidant xüsusiyyətləri öyrənilmişdir. Məlum olmuşdur ki, bəzi mədə-bağırsaq xəstəliklərində, xüsusilə mədə xorası problemində iydə bitkisinin meyvəsi müalicəvi xüsusiyyətə malikdir (Gürbüz et al., 2003). İydə meyvəsindən alınan ekstraktın fitokimyəvi analizinin nəticəsində flavonoidlər və terpenoidlərin mövcudluğu təsdiqlənmişdir. Eyni zamanda bu birləşmələr ekstraktın iltihabəleyhinə və ağrıkəsici təsirinin yaranmasında əsas komponentlər hesab olunur. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, *E. angustifolia L.* xroniki ağrı və iltihabı azaltmaq üçün kimyəvi preparatlarla, məsələn, indometazin, qeyri-steroid və steroid dərman olan deksametazon ilə müqayisə edilə bilər (Farahbakhsh et al., 2011).

İydə bitkisinin tərkibində mövcud olan triterpenoidlər, flavonoidlər, liqnanoid, bezenoid kimi bioloji aktiv maddələr onun antişiş (xərçəngəleyhinə) xüsusiyyətinin əmələ gəlməsinə səbəb olur. Araşdırmaların əhəmiyyətli tərəfi *E. angustifolia L.* ekstraktının daha yüksək konsentrasiyalarda istifadəsi zamanı in vitro HeLa hüceyrələrinin çoxalmasının qarşısının alınması olmuşdur (Ya et al., 2007). *E. angustifolia L.*-nin yarpaqlarının metanolda ekstraktının antimikrob xüsusiyyəti in vitro şəraitdə bəzi mikroorqanizmlərə qarşı təsiri qiymətləndirilmişdir. Tədqiqatın nəticəsi ekstraktın qram-müsbət və qram-mənfi bakteriyaların böyüməsinə qarşı təsirli olduğunu göstərdi. Belə ki, ekstrakt *Bacillus subtilis* RSKK 245, *Staphylococcus aureus* RSKK 2392, *Salmonella typhimurium* RSKK 19 və xüsusilə *Yersinia enterocolitica* NCTC 11174 bakteriyalarına qarşı təsirli olmuşdur (Tamtaji et al., 2014). İydə bitkisinin çiçək və yarpaq ekstraktı qram-müsbət (*Staphylococcus aureus* və *Bacillus cereus*) və qram-mənfi (*Escherichia coli* və *Klebsiella pneumoniae*) bakteriyalara qarşı təsiri öyrənilmişdir. Qeyd etmək lazımdır ki, bütün ekstraktlar *E. coli* və *S. aureus* üzərində antimikrob təsir göstərmişdir, yarpaq ekstraktı isə bütün bakteriyalara qarşı effektiv olmuşdur (Zor et al., 2025). *Elaeagnus angustifolia* çiçəklərindən əldə edilmiş terpengustifol adlı yeni bir triterpenoid saponin və iki yeni lignan qlükozid – fengustifols A və B birləşmələrinin strukturu və xüsusiyyətləri öyrənilərkən onların A375 insan melanoma hüceyrə xətlərinə qarşı orta dərəcədə sitotoksik fəaliyyəti sübut olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, iydə çiçəklərinin ekstraktlarına (19%-li iydə çiçəyi ekstraktından ibarət gel) əsaslanan krem stomatitin müalicəsində yara sağaldıcı və iltihab xüsusiyyətlərinə görə uğurla tətbiq edilir (Sadırova və b., 2017). Aparılan tədqiqatlar göstərmişdir ki, 200 mq *E. an-gustifolia L.* meyvəsi və zəncəfil ekstraktlarını səkkiz həftə müddətində tətbiq etməklə osteoartritdən əziyyət çəkən xəstələrdə ağrıları azaltmaq mümkün olmuşdur. Xəstələrdə ağrı intensivliyində azalma və yaxşılaşma müşahidə edilmişdir (Rabei et al., 2015).

**İydə bitkisinin ekstraktlarında sintez olunan nanohissəciklər**

Nanohissəciklərin alınmasında yaşıl sintez adlanan üsulda istifadə edilən bitkilərdən biri də *Elaeagnus angustifolia* və onun müxtəlif növləridir. Son illərdə iydənin müxtəlif orqanlarından (yarpaq, meyvə, çiçək) hazırlanan ekstraktlardan istifadə edərək bir sıra mühüm nanohissəciklər sintez edilmişdir. Məsələn, Rashidi və Islami (2020) araşdırmalarında *Elaeagnus angustifolia* meyvəsinin çəyirdəyindən alınan ekstraktda yaxşı nanokatalizator kimi çıxış edən Ag və AgCl nanohissəcikləri sintez etmişlər. Ömer Erdogan və onun əməkdaşları (2021) *Elaeagnus angustifolia* meyvəsinin sulu ekstraktında Ag nanohissəcikləri sintez edərək bu biogen nanohissəciklərdən xərçəngə qarşı potensial vasitə kimi istifadə olunması üçün HeLa və PC3 hüceyrələrində onların sitotoksik effektlərini öyrənmişlər. *Elaeagnus umbellata* meyvələrinin ekstraktında sintez olunmuş sferik, kristal təbiətli Ag nanohissəciklərinin səthinə onun tərkibində olan terpenoidlərin, flavonoidlərin, alkanların, fenolların, amid və spirtlərin birləşdiyini FTİR spektroskopiyası ilə təsdiq etmişlər (Zulfiqar et al., 2022). Toksikantlardan azad və fitokimyəvi maddələrlə zəngin olan *Elaeagnus angustifolia* yarpaq ekstraktında ZnO nanohissəcikləri sintez edilmişdir. UV-Vis spektral analizi ilə təsdiq edilmişdir ki (399 nm udma dalğa uzunluğu), $Zn^{+}$ metal ionları $Zn^{0}$ nanohissəciklərinə çevrilir. Sintez olunmuş sferik formalı ZnO nanohissəciklərinin ölçüləri təqribən 26 nm olmuşdur. Sintez edilmiş ZnO nanohissəcikləri antibakterial, antifungal, antişiş, antioksidant, biouyğunluq və ferment inhibə

potensialına malik olmuşdur (Iqbal et al., 2022). Abbasi və onun əməkdaşlarının (2023) təcrübələrində *Elaeagnus angustifolia* yarpaqlarından alınan ekstraktda NiO nanohissəcikləri sintez etməyə nail olmuşlar. Bu nanohissəciklərin mikrob, xərçəng və leyşmanial hüceyrələrini inhibə etməyə malik olduğu sübut edilmişdir. Yaşıl sintez yolu ilə *Elaeagnus angustifolia* yarpağının ekstraktında Fe nanohissəciklərinin sintezinə nail olmuşlar. Fe nanohissəciklərinin sintez prosesinin ekstraktın istilik müddətindən, ultrasəs dalğaları altında ekspozisiya vaxtından asılı olduğu aydınlaşdırılmışdır. TEM mikroskopiyası nəticələrinə əsasən, sintez olunan Fe nanohissəciklərinin ölçüsünün təxminən 40 nm və daha kiçik olduğu müəyyən edilmişdir (Abdollah Gholami et al., 2018).

## Nəticə

İydə (*Elaeagnus*) fəsiləsinə aid bitki insan fəaliyyətinin bir çox sahələrində bəlkə də min illərdir istifadə edilir. Onun ən çox öyrənilən və yayılan növü *Elaeagnus angustifolia*, o cümlədən Azərbaycanda, xüsusilə Abşeron yarımadasında geniş yayılan növü *Elaeagnus caspica*dır. İydənin meyvəsinin, yarpaqlarının və çiçəklərinin tərkibi bir sıra bioloji aktiv birləşmələrlə zəngin olduğu üçün bu bitki hər zaman cəlbedici olmuşdur. İydə ağaclarından torpaqbərkitmə, sututma işlərində, dekorativ məqsədlərlə parklarda istifadə etmişlər. Onun meyvəsindən ərzaq kimi, kulinariyada əlavələr kimi geniş istifadə edilir. İydənin meyvəsi, meyvəsinin çəyirdəyi, çiçəkləri tərkibindəki zəngin farmakoloji birləşmələr səbəbindən bir çox xəstəliklərin qarşısının alınmasında və yüngülləşdirilməsində mühüm rol oynamışdır. Xalq təbabətində indi də iydədən hazırlanan tinkturalardan geniş istifadə edilir. Son zamanlar nanotexnologiyanın bir sıra sahələrdə, o cümlədən tibbi praktikada tətbiqi ilə əlaqədar olaraq iydə bitkisinə maraq daha da artmışdır. İydənin yarpaqlarından, çiçəklərindən hazırlanan ekstraktlarda bioloji sintez yolu ilə müxtəlif, ekoloji cəhətdən təmiz və toksik olmayan nanohissəciklər sintez edirlər. Bu nanohissəciklərdən bir sıra xəstəliklərə qarşı dərman vasitələri kimi istifadə edilməsi farmakologiyada yeni perspektivlər açmaqdadır.

## Ədəbiyyat

1. Abbasi, B. A., Iqbal, J., Yaseen, T., Zahra, S. A., Ali, S., Uddin, S., Mahmood, T., Kanwal, S., El-Serehy, H. A., & Chalgham, W. (2023). Exploring physical characterization and different bio-applications of *Elaeagnus angustifolia* orchestrated nickel oxide nanoparticles. *Molecules, 28,* 654. https://doi.org/10.3390/molecules28020654
2. Abdollah Gholami, A., Khosravi, R., Khosravi, A., & Samadi, Z. (2018). Data on the optimization of the synthesis of green iron nanoparticles using plants indigenous to South Khorasan. *Data in Brief, 21,* 1779–1783. https://doi.org/10.1016/j.dib.2018.11.030
3. Abizov, E., Tolkachev, O., Mal'tsev, S., & Abizova, E. (2009). Composition of biologically active substances isolated from the fruits of Russian olive (*Elaeagnus angustifolia*) introduced in the European part of Russia. *Pharmaceutical Chemistry Journal, 42,* 696–698. https://doi.org/10.1007/s11094-009-0203-5
4. Ahmadiani, A., Hosseiny, J., Semnanian, S., Javan, M., Saeedi, F., Kamalinejad, M., & Saremi, S. (2000). Antinociceptive and anti-inflammatory effects of *Elaeagnus angustifolia* fruit extract. *Journal of Ethnopharmacology, 72*(1–2), 287–292. https://doi.org/10.1016/S0378-8741(00)00222-1
5. Al Noman, A., & Siam, H. H. (2025). The economic, social & environmental impact of electric vehicle (EV) adaptation on Bangladeshi society. *arXiv.* https://doi.org/10.48550/arXiv.2501.12345
6. Asadiar, L. S., Rahmani, F., & Siami, A. (2013). Assessment of genetic diversity in the Russian olive (*Elaeagnus angustifolia*) based on ISSR genetic markers. *Revista Ciência Agronômica, 44,* 310–316.
7. Bendaikha, S., Gadaut, M., Harakat, D., & Magid, A. (2014). Acylated flavonol glycosides from the flower of *Elaeagnus angustifolia* L. *Phytochemistry, 103,* 129–136. https://doi.org/10.1016/j.phytochem.2014.03.025

8. Behnaz Jafari Mashhad, Hosseini, H., Jamali, J., & Babazadeh, R. (2023). Evaluation of efficacy of *Elaeagnus angustifolia* flower essential oil inhalation in improving sexual function in women of reproductive age: A randomized, controlled clinical trial. *Research Square*. https://doi.org/10.21203/rs.3.rs-2690141/v1
9. Boudraa, S., Hambaba, L., Zidani, S., & Boudraa, H. (2010). Mineral and vitamin composition of fruits of five underexploited species in Algeria: *Celtis australis* L., *Crataegus azarolus* L., *Crataegus monogyna* Jacq., *Elaeagnus angustifolia* L. and *Zizyphus lotus* L. *Fruits, 65*, 75–84. https://doi.org/10.1051/fruits/2010011
10. Cansev, A., Sahan, Y., Celik, G., Taskesen, S., & Ozbey, H. (2011). Chemical properties and antioxidant capacity of *Elaeagnus angustifolia* L. fruits. *Asian Journal of Chemistry, 23*, 2661–2665.
11. Chen, Q., Chen, J., Du, H., et al. (2014). Structural characterization and antioxidant activities of polysaccharides extracted from the pulp of *Elaeagnus angustifolia* L. *International Journal of Molecular Sciences, 15*(7), 11446–11455. https://doi.org/10.3390/ijms150711446
12. Faramarz, S., Dehghan, G., & Jahanban-Esfahlan, A. (2015). Antioxidants in different parts of oleaster as a function of genotype. *BioImpacts, 5*(2), 79–85. https://doi.org/10.15171/bi.2015.09
13. Farahbakhsh, S., Arbabian, S., Emami, F., et al. (2011). Inhibition of cyclooxygenase type 1 and 2 enzyme by aqueous extract of *Elaeagnus angustifolia* in mice. *Basic and Clinical Neuroscience, 2*, 31–37.
14. Fonia, A., White, I. R., & White, J. M. (2009). Allergic contact dermatitis to *Elaeagnus* plants (oleaster). *Contact Dermatitis, 60*(3), 178–179. https://doi.org/10.1111/j.1600-0536.2008.01490.x
15. Ge, Y., Liu, J., & Su, D. (2009). In vivo evaluation of the anti-asthmatic, antitussive and expectorant activities of extract and fractions from *Elaeagnus pungens* leaf. *Journal of Ethnopharmacology, 126*(3), 538–542. https://doi.org/10.1016/j.jep.2009.09.038
16. Goncharova, N. P., & Glushenkova, A. I. (1997). Extract of *Elaeagnus angustifolia* flowers. *Chemistry of Natural Compounds, 33*, 276–277. https://doi.org/10.1007/BF02234872
17. Gürbüz, I., Üstün, O., Yesilada, E., Sezik, E., & Kutsal, O. (2003). Anti-ulcerogenic activity of some plants used as folk remedy in Turkey. *Journal of Ethnopharmacology, 88*(1), 93–97. https://doi.org/10.1016/S0378-8741(03)00191-0
18. Han, J., Chen, X., Liu, W., Cui, H., & Yuan, T. (2020). Triterpenoid saponin and lignan glycosides from the traditional medicine *Elaeagnus angustifolia* flowers and their cytotoxic activities. *Molecules, 25*(3), 462. https://doi.org/10.3390/molecules25030462
19. Iqbal, J., Abbasi, B. A., Yaseen, T., et al. (2021). Green synthesis of zinc oxide nanoparticles using *Elaeagnus angustifolia* L. leaf extracts and their multiple in vitro biological applications. *Scientific Reports, 11*, 20988. https://doi.org/10.1038/s41598-021-99839-z
20. Syed, A. L., Shah, G. M., Ashfaq, S., Abrar, H., Baseerat, N. e., Khan, N., Hamza, M., Hasan, M. A., Ullah, K., & Ullah, K. (2023). GC-MS analysis, antimicrobial, antioxidant, phytochemical, and phytotoxic activities of *Elaeagnus angustifolia* L. using different extracts. *Phytopharmacology Research Journal, 2*(3), 1–12. https://www.ojs.prjn.org/index.php/prjn/article/view/49
21. Jia, L., Zhang, L., Ye, Y. H., Li, J. L., Cong, M., & Yuan, T. (2019). Effect and mechanism of *Elaeagnus angustifolia* flower and its major flavonoid tiliroside on inhibiting non-enzymatic glycosylation. *Journal of Agricultural and Food Chemistry, 67*(50), 13960–13968. https://doi.org/10.1021/acs.jafc.9b06712
22. Khan, S. U., Khan, A. U., Shah, S. M., Hussain, S., Ayaz, M., & Ayaz, S. (2013). Heavy metals content, phytochemical composition, antimicrobial and insecticidal evaluation of *Elaeagnus angustifolia*. *Toxicology and Industrial Health, 29*(9), 774–781. https://doi.org/10.1177/0748233713498459
23. Koca, U., Süntar, I., Akkol, E. K., Yılmazer, D., & Alper, M. (2011). Wound repair potential of *Olea europaea* L. leaf extracts revealed by in vivo experimental models and comparative

evaluation of the extracts' antioxidant activity. *Journal of Medicinal Food, 14*(1–2), 140–146. https://doi.org/10.1089/jmf.2009.0309
24. Laura, B., Gabriela, S., & Viorica, I. (2007). The GC-MS analysis of *Elaeagnus angustifolia* L. flowers essential oil. *Revista de Chimie, 58*(11), 1084–1087.
25. Langendoen, S. I., Habbema, L., Nijsten, T. E., & Neumann, H. A. (2009). Lipoedema: From clinical presentation to therapy—A review of the literature. *British Journal of Dermatology, 161*(5), 980–986. https://doi.org/10.1111/j.1365-2133.2009.09413.x
26. Mohammed, F. I., Al-Essa, M. K., Shafagoj, Y. A., & Afifi, F. U. (2006). Investigation of the direct effects of the alcoholic extract of *Elaeagnus angustifolia* L. (Elaeagnaceae) on dispersed intestinal smooth muscle cells of guinea pig. *Scientia Pharmaceutica, 74*(1), 21–31. https://doi.org/10.3797/scipharm.2006.74.21
27. Natanzi, M. M., Pasalar, P., Kamalinejad, M., et al. (2012). Effect of aqueous extract of *Elaeagnus angustifolia* fruit on experimental cutaneous wound healing in rats. *Acta Medica Iranica, 50*(9), 589–596.
28. Omer, E., Salih, P., & Ozge, C. (2021). Green synthesis and characterization of anticancer effected silver nanoparticles with silverberry (*Elaeagnus angustifolia*) fruit aqueous extract. *International Journal of Pure and Applied Sciences, 7*(3), 391–400.
29. Qasımov, M. Ə., Qasımova, T. A., & Qədirova, G. S. (2006). *XXI əsrin dərman bitkiləri*. Elm.
30. Rabiei, K., Ghobadifar, A., Ebrahimzadeh, M. A., Saeedi, M., & Mobini, M. (2015). Effects of ginger and *Elaeagnus angustifolia* extracts in symptomatic knee osteoarthritis. *Zahedan Journal of Medical Sciences, 17*(3), 29–33.
31. Rashidi, M., & Islami, M. R. G. (2020). Green synthesis of Ag@AgCl/*Elaeagnus angustifolia* seed nanocomposite using *Elaeagnus angustifolia* leaves: An amazing nanophotocatalyst with highly photocatalytic activity under sunlight irradiation. *Environmental Science and Pollution Research, 27,* 21455–21467. https://doi.org/10.1007/s11356-020-08598-3
32. Saboonchian, F., Jamei, R., & Sarghein, S. H. (2014). Phenolic and flavonoid content of *Elaeagnus angustifolia* L. (leaf and flower). *Avicenna Journal of Phytomedicine, 4*(4), 231–238.
33. Sadirova, M. A., Karomatov, İ. D., & Amonov, M. K. (2017). Medicinskoe znachenie rasteniya lox uzkolistiy. *Elektronnıy nauçnıy jurnal Biologiya i Integrativnaya Medisina, 5*(5), 1–9.
34. Tamtaji, O. R., Taghizadeh, M., Takhtfiroozeh, S. M., & Talaei, S. A. R. (2014). The effect of *Elaeagnus angustifolia* water extract on scopolamine-induced memory impairment in rats. *Zanjan University of Medical Sciences Journal (ZUMS J), 22*(101), 101–111.
35. Wang, Y., Guo, T., Li, J. Y., Zhou, S. Z., Zhao, P., & Fan, M. T. (2013). Four flavonoid glycosides from the pulps of *Elaeagnus angustifolia* and their antioxidant activities. *Advanced Materials Research, 756,* 16–20. https://doi.org/10.4028/www.scientific.net/AMR.756.16
36. Wang, B., Qu, H., Ma, J., et al. (2014). Protective effects of *Elaeagnus angustifolia* leaf extract against myocardial ischemia/reperfusion injury in isolated rat heart. *Journal of Chemistry, 2014*, 69357316. https://doi.org/10.1155/2014/69357316
37. Ya, W., Shang-Zhen, Z., & Chun-Meng, Z., et al. (2014). Antioxidant and antitumor effect of different fractions of ethyl acetate part from *Elaeagnus angustifolia* L. *Advanced Journal of Food Science and Technology, 6*(6), 707–710.
38. Zor, M., Sağlamtaş, R., Demirci, A., Ceyran, E., Fettahoğlu, K., & Demir, Y. (2025). Chemical composition, antimicrobial, and enzyme inhibitory properties of *Elaeagnus angustifolia* L.*Chemistry & Biodiversity, 22*(5), e202402802. https://doi.org/10.1002/cbdv.202402802
39. Zulfiqar, H., Amjad, M. S., Mehmood, A., Mustafa, G., Binish, Z., Khan, S., Arshad, H., Proców, J., & Pérez de la Lastra, J. M. (2022). Antibacterial, antioxidant, and phytotoxic potential of phytosynthesized silver nanoparticles using *Elaeagnus umbellata* fruit extract. *Molecules, 27*(17), 5847. https://doi.org/10.3390/molecules27175847

Daxil oldu: 10.06.2025
Qəbul edildi: 01.09.2025

DOI: https://doi.org/10.36719/2663-4619/121/49-52

**Tural Mehdiyev**
Azərbaycan Dövlət İqtisad Universiteti
doktorant
https://orcid.org/0009-0006-5713-073X
t.v.mehdiyev@gmail.com

# Milli iqtisadiyyatın inkişafında işdən məmnunluğun rolunun qiymətləndirilməsi

## Xülasə

Milli iqtisadiyyatın inkişafında işdən məmnunluq mühüm rol oynayır. İşçilərin məmnunluğu əmək məhsuldarlığını artırır, iş yerində motivasiyanı gücləndirir və innovasiya fəaliyyətinə töhfə verir. İşdən məmnun olan əmək resursları daha stabil olur, bu isə iqtisadi sabitlik və davamlı inkişaf üçün vacibdir. Tədqiqatda iş məmnunluğunu təsir edən əsas amillər araşdırılır: əmək şəraiti, maaş və sosial təminat, peşəkar inkişaf imkanları, rəhbərlik keyfiyyətləri və iş yerində psixoloji mühit. Hər bir faktorun işçilərin məhsuldarlığı və milli iqtisadiyyatın ümumi inkişafına təsiri qiymətləndirilir.

***Açar sözlər:*** *işdən məmnunluq, əmək məhsuldarlığı, milli iqtisadiyyat, motivasiya, peşəkar inkişaf, əmək şəraiti, sosial təminat, davamlı inkişaf, rəhbərlik keyfiyyətləri, innovasiya*

**Tural Mehdiyev**
Azerbaijan State University of Economics
PhD student
https://orcid.org/0009-0006-5713-073X
t.v.mehdiyev@gmail.com

# Evaluation of the Role of Job Satisfaction in the Development of the National Economy

## Abstract

Job satisfaction plays a crucial role in the development of the national economy. Satisfied employees enhance labor productivity, strengthen workplace motivation, and contribute to innovative activities. Employees who are satisfied with their work represent a more stable workforce, which is essential for economic stability and sustainable development. The study examines the main factors affecting job satisfaction, including working conditions, salary and social benefits, opportunities for professional development, leadership quality, and the psychological climate in the workplace. The impact of each factor on employee productivity and the overall development of the national economy is evaluated.

***Keywords:*** *job satisfaction, labor productivity, national economy, motivation, professional development, working conditions, social security, sustainable development, leadership qualities, innovation*

## Giriş

Milli iqtisadiyyatın inkişafı hər bir ölkənin sosial-iqtisadi sabitliyinin və rifah səviyyəsinin yüksəlməsinin əsas göstəricilərindən biridir. Bu inkişaf yalnız maliyyə resursları, sənaye infrastrukturu və texnoloji imkanlarla deyil, həm də insan kapitalının səmərəli istifadəsi ilə birbaşa bağlıdır. İnsan kapitalının effektivliyi, xüsusilə işçilərin işdən məmnunluğu ilə sıx əlaqəlidir. İşdən məmnunluq əmək resurslarının motivasiyası, məhsuldarlığı, kreativliyi və innovativ fəaliyyəti üçün əsas amil hesab olunur.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

Müasir iqtisadi mühitdə işçi qüvvəsinin stabil və məhsuldar olması milli iqtisadiyyatın dayanıqlı inkişafına birbaşa təsir göstərir. İşçilərin məmnunluğu yüksək olduqda onlar daha məsuliyyətli olur, təşkilati məqsədlərə sadiqlik göstərir və iş yerində əməkdaşlıq mədəniyyətini gücləndirir. Bunun əksinə, işdən narazılıq əmək məhsuldarlığının azalmasına, işçi dövriyyəsinin çoxalmasına və sosial-maliyyə problemlərinin artmasına səbəb ola bilər ki, bu da iqtisadi sabitliyə mənfi təsir göstərir (Armstrong, 2020).

İşdən məmnunluğa təsir edən amillərin öyrənilməsi, o cümlədən əmək şəraiti, maaş və sosial təminat, peşəkar inkişaf imkanları, rəhbərlik keyfiyyətləri və iş yerində psixoloji mühit, milli iqtisadiyyatın inkişaf strategiyalarında vacib rol oynayır. İşçilərin rifahının təmin edilməsi yalnız təşkilati səviyyədə deyil, ümumi iqtisadi sistemdə də dayanıqlı artımı təmin edir.

**Tədqiqat**

Bu tədqiqatın məqsədi işdən məmnunluğun milli iqtisadi inkişafdakı rolunu hərtərəfli təhlil etmək, işçilərin məhsuldarlığına və innovativ fəaliyyətinə təsirini qiymətləndirmək və bu sahədə effektiv idarəetmə strategiyalarını müəyyən etməkdir.

Milli iqtisadiyyatın inkişafında işdən məmnunluğun rolu çoxşaxəli və strateji əhəmiyyətə malikdir. İşdən məmnunluq həm fərdi işçinin rifahına, həm də təşkilatların səmərəliliyinə, nəticədə isə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına birbaşa təsir göstərir. Əsas hissədə işdən məmnunluğun determinantları, onların iqtisadiyyata təsiri və praktik əhəmiyyəti detallı şəkildə təhlil edilir (Aliyev, 2019).

İşdən məmnunluğa təsir edən faktorlar müxtəlifdir və onların hər biri işçilərin motivasiyası və məhsuldarlığı üçün əhəmiyyət daşıyır. Əmək şəraiti – iş mühiti, təhlükəsizlik, texniki imkanlar və iş saatlarının təşkilatı – işçinin məhsuldarlığına birbaşa təsir göstərir. Yaxşı təşkil olunmuş əmək şəraiti işçilərin iş yerinə bağlılığını artırır və məhsuldarlığı yüksəldir (Robbins & Judge, 2019).

İşdən məmnunluğun yüksəldilməsi üçün müəssisələrdə müasir idarəetmə strategiyalarının tətbiqi, işçilərin sosial və peşəkar rifahının qorunması, əmək şəraitinin təkmilləşdirilməsi və motivasiya mexanizmlərinin gücləndirilməsi vacibdir. İşçilərin rifahı və məmnunluğu milli iqtisadiyyatın davamlı inkişafının və yüksək məhsuldarlığın təmin olunmasında həlledici rol oynayır (Armstrong, 2020).

İşdən məmnunluq milli iqtisadiyyatın inkişafında mühüm rol oynayır və bu rol həm fərdi, həm təşkilati, həm də dövlət səviyyəsində özünü göstərir. Beynəlxalq təcrübələr göstərir ki, işçilərin məmnunluğu məhsuldarlığın yüksəlməsi, innovativ fəaliyyətlərin təşviqi və müəssisələrin səmərəliliyinin artırılması ilə birbaşa əlaqəlidir. Müxtəlif ölkələrdə işdən məmnunluq səviyyəsini artırmaq üçün fərqli strategiyalar tətbiq olunur, lakin ümumi tendensiya göstərir ki, işçilərin sosial və psixoloji rifahı, peşəkar inkişaf imkanları və rəhbərlik keyfiyyətləri işdən məmnunluğun əsas amilləridir (Deming, 1986).

ABŞ təcrübəsi göstərir ki, işçilərin işdən məmnunluğu əsasən maaş və sosial təminat, həmçinin əmək şəraiti ilə bağlıdır. Yüksək əmək haqqı və sosial paketlər işçilərin motivasiyasını artırır, işə bağlılığını gücləndirir və dövriyyəni azaldır. ABŞ-da işçilərin məmnunluğu müəssisələrin məhsuldarlığını və innovasiya səviyyəsini yüksəldir, nəticədə iqtisadi səmərəlilik artır (Məmmədova, 2021).

Avropa ölkələri isə işdən məmnunluğu daha çox peşəkar inkişaf imkanları, rəhbərlik keyfiyyətləri və iş yerində psixoloji mühitlə əlaqələndirir. Burada işçilərin peşəkar bacarıqlarının inkişaf etdirilməsi, təlim və mentorluq imkanlarının yaradılması onların kreativliyini və motivasiyasını yüksəldir. Effektiv rəhbərlik isə konfliktlərin qarşısını alır, əməkdaşlıq mədəniyyətini gücləndirir və işçilərin təşkilata bağlılığını artırır (Herzberg, 1966).

Asiya ölkələri üçün əsas amil iş yerində əməkdaşlıq mədəniyyəti və psixoloji mühitdir. İşçilər arasında qarşılıqlı dəstək və komandada səmərəli əməkdaşlıq onların motivasiyasını artırır, məhsuldarlığı yüksəldir və təşkilat daxilində stabilliyi təmin edir. Bu yanaşma həm də işçilərin innovativ fəaliyyət göstərməsini təşviq edir (Ivanova, 2020).

Beynəlxalq təcrübələrin müqayisəsi göstərir ki, işdən məmnunluğun təmin olunması əmək məhsuldarlığını artırır, işçi dövriyyəsini azaldır və müəssisələrin səmərəliliyini yüksəldir. İşçilərin sosial rifahı, peşəkar inkişaf imkanları, rəhbərlik keyfiyyətləri və pozitiv psixoloji mühit işdən məmnunluğun təmin edilməsində əsas rol oynayır (Abbasov, 2020).

Milli iqtisadiyyatın inkişafında işdən məmnunluğun rolu əhəmiyyətlidir. İşçilərin məmnunluğu yalnız fərdi rifahı təmin etmir, eyni zamanda əmək məhsuldarlığını artırır, innovativ fəaliyyətləri stimullaşdırır və müəssisələrin səmərəliliyini yüksəldir. Bu səbəbdən işdən məmnunluğu qiymətləndirmək və onun iqtisadiyyata təsirini öyrənmək üçün SPSS proqramı vasitəsilə müxtəlif statistik təhlillər aparılmışdır (International Labour Organization [ILO], 2021).

Tədqiqatda işdən məmnunluğa təsir edən əsas amillər müəyyən edilmişdir: əmək şəraiti, maaş və sosial təminat, peşəkar inkişaf imkanları, rəhbərlik keyfiyyətləri və psixoloji mühit. Asılı dəyişən olaraq işdən məmnunluq səviyyəsi götürülmüşdür. Sorğu məlumatları beynəlxalq tədqiqatlar və yerli müəssisələrdən toplanmış və SPSS-də təhlil edilmişdir (Maslow, 1943).

**Reliability Analysis** nəticəsində sorğu suallarının daxili tutarlılığı yüksək (Cronbach's Alpha = 0.87) olduğu müəyyən edilmişdir ki, bu da məlumatların etibarlılığını göstərir. Descriptive Statistics analizində işdən məmnunluğun orta səviyyəsi 3.8/5, əmək şəraiti 4.0, maaş və sosial təminat 3.6, peşəkar inkişaf imkanları 3.9, rəhbərlik keyfiyyətləri 3.7 və psixoloji mühit 4.1 olaraq qeydə alınmışdır. Bu nəticələr göstərir ki, psixoloji mühit və əmək şəraiti işçilərin məmnunluğunda əsas rol oynayır (Locke, 1976).

**Correlation Analysis** göstərir ki, işdən məmnunluq ilə psixoloji mühit ($r = 0.67$) və əmək şəraiti ($r = 0.65$) arasında ən güclü müsbət əlaqə mövcuddur. Digər faktorlar da iş məmnunluğunu əhəmiyyətli dərəcədə təsir edir: maaş və sosial təminat ($r = 0.58$), peşəkar inkişaf imkanları ($r = 0.62$), rəhbərlik keyfiyyətləri ($r = 0.59$).

**Multiple Regression** Analysis nəticələri göstərir ki, bu faktorlar işdən məmnunluğun 72%-ni izah edir ($R^2 = 0.72$). Ən təsirli faktorlar psixoloji mühit ($\beta = 0.30$, $p < 0.01$) və əmək şəraiti ($\beta = 0.25$, $p < 0.01$) olmuşdur (Kotlyarov, 2018).

Təhlillər göstərir ki, işçilərin psixoloji mühitdə və əmək şəraitində yüksək rifahı onların məmnunluğunu artırır, bu isə məhsuldarlıq və innovasiya səviyyəsini yüksəldir. Nəticədə stabil və motivasiyalı işçi qüvvəsi müəssisələrin səmərəliliyini artırır və milli iqtisadiyyatın inkişafına töhfə verir. Bu nəticələr işdən məmnunluğu artırmaq və əmək resurslarının səmərəliliyini yüksəltmək üçün strategiyaların hazırlanmasında əsas rol oynaya bilər (Luthans, 2015).

Milli iqtisadiyyatın inkişafında işdən məmnunluğun rolu həm kəmiyyət, həm də keyfiyyət baxımından əhəmiyyətlidir. İşçilərin məmnunluğu onların fərdi rifahını təmin etməklə yanaşı, əmək məhsuldarlığını artırır, innovativ fəaliyyəti təşviq edir və müəssisələrin səmərəliliyinə töhfə verir. Bu baxımdan işdən məmnunluğun kəmiyyət və keyfiyyət aspektlərini ayrı-ayrılıqda təhlil etmək vacibdir (World Bank, 2022).

## Nəticə

Beynəlxalq təcrübələr göstərir ki, işdən məmnunluq milli iqtisadiyyatın inkişafında vacib rol oynayır və onun təmin olunması müxtəlif ölkələrdə fərqli yanaşmalarla həyata keçirilir. ABŞ-da işçilərin işdən məmnunluğu əsasən rəqabətli maaş, sosial təminat və əmək şəraiti ilə bağlıdır. Bu ölkələrdə yüksək əmək məhsuldarlığı və innovasiya səviyyəsi işçilərin motivasiyasının güclü olması ilə birbaşa əlaqələndirilir.

Beynəlxalq təcrübə göstərir ki, işdən məmnunluğun təmin edilməsi əmək məhsuldarlığını artırır, işçi dövriyyəsini azaldır və innovativ fəaliyyətləri stimullaşdırır. Müxtəlif ölkələrdə aparılan tədqiqatlar bir daha təsdiqləyir ki, işçilərin sosial və psixoloji rifahı, peşəkar inkişaf imkanları və rəhbərlik keyfiyyətləri işdən məmnunluğun əsas şərtləridir.

Nəticə olaraq, beynəlxalq təcrübələr göstərir ki, işdən məmnunluğun yüksəldilməsi yalnız təşkilatlar üçün deyil, bütöv milli iqtisadiyyat üçün strateji əhəmiyyət daşıyır. İşçilərin rifahı və motivasiyasının təmin edilməsi məhsuldarlığı artırır, innovasiyaya və iqtisadi səmərəliliyə töhfə verir, uzunmüddətli perspektivdə isə iqtisadi sabitliyin və davamlı inkişafın əsasını formalaşdırır.

## Ədəbiyyat

1. Abbasov, E. (2020). *İşçilərin məmnunluğunun əmək məhsuldarlığına təsiri*. Nəşriyyat evi.
2. Aliyev, R. (2019). *Milli iqtisadiyyat və insan resurslarının səmərəliliyi*. Elm və Təhsil.

3. Armstrong, M. (2020). *Armstrong's handbook of human resource management practice*. Kogan Page.
4. Deming, W. E. (1986). *Out of the crisis*. MIT Center for Advanced Engineering Study.
5. Herzberg, F. (1966). *Work and the nature of man*. Cleveland: World Publishing Company.
6. International Labour Organization (ILO). (2021). *Workplace wellbeing and economic performance*. Geneva: ILO.
7. Ivanova, T. A. (2020). *Psikhologicheskaya sreda na rabochem meste i produktivnost' truda*. Sankt-Peterburg: Piter.
8. Locke, E. A. (1976). The nature and causes of job satisfaction. In M. D. Dunnette (Ed.), *Handbook of industrial and organizational psychology*, Rand McNally. 1297–1343.
9. Luthans, F. (2015). *Organizational behavior: An evidence-based approach*. McGraw-Hill Education.
10. Maslow, A. H. (1943). A theory of human motivation. *Psychological Review, 50*(4), 370–396.
11. Məmmədova, N. (2021). *İşdən məmnunluq və motivasiya: nəzəri və praktiki yanaşmalar*. Təhsil Nəşriyyatı.
12. Robbins, S. P., & Judge, T. A. (2019). *Organizational behavior* (18th ed.). Pearson.
13. Kotlyarov, V. I. (2018). *Upravleniye personalom i motivatsiya truda*. Yurayt.
14. World Bank. (2022). *Human capital and labor productivity: Global insights*. World Bank Publications.

Daxil oldu: 20.05.2025
Qəbul edildi: 24.08.2025

DOI: https://doi.org/10.36719/2663-4619/121/53-56

**Lamiə Heydərova**
Sumqayıt Dövlət Universiteti
dissertant
https://orcid.org/0009-0008-0793-921X
lamia.heydarova@gmail.com

# "Xeyir" və "Şər" linqvokoqnitiv tədqiqat predmeti kimi

### Xülasə

Məqalədə "xeyir" və "şər" anlayışlarının linqvokoqnitiv təhlili aparılır. Obyektiv dünya insan tərəfindən dəyər aspektləri əsasında qəbul olunur və bu qəbul fərdin idrak fəaliyyəti, şəxsi və mədəni təcrübəsi ilə bağlıdır. "Xeyir" və "şər" kateqoriyaları universaldır, lakin onların sərhədləri fərdin və cəmiyyətin dünyagörüşünə, eləcə də tarixi və mədəni inkişaf səviyyəsinə görə dəyişir. Bu anlayışlar insanın mənəvi oriyentasiyasını, əxlaqi seçimlərini və dünyaya münasibətini müəyyənləşdirən əsas dəyər göstəriciləridir. Dil strukturunda təsbit edilən dəyər münasibətləri, frazeoloji vahidlər və qiymətləndirmə ifadələri vasitəsilə "xeyir" və "şər" konseptləri həm milli mədəniyyətin, həm də ümumbəşəri düşüncənin təməl kateqoriyalarından biri kimi formalaşır. Tədqiqat göstərir ki, bu anlayışların öyrənilməsi insanın mənəvi dünyasını, milli şüurunu və mədəniyyətlərarası əlaqələrini daha dərindən anlamağa imkan verir.

***Açar sözlər:*** *dəyər, xeyir və şər, fərd, qiymətləndirmə, anlayış, mədəniyyət*

**Lamia Heydarova**
Sumgait State University
PhD student
https://orcid.org/0009-0008-0793-921X
lamia.heydarova@gmail.com

# "Good" and "Evil" as the Subject of Linguocognitive Study

### Abstract

The article provides a linguocognitive analysis of the concepts of "good" and "evil." The objective world is perceived by humans through the prism of value aspects, and this perception is closely connected with individual cognition, as well as personal and cultural experience. Although the categories of "good" and "evil" are universal, their boundaries vary depending on the worldview of individuals and societies, as well as on the level of historical and cultural development. These categories represent the fundamental value indicators that determine a person's moral orientation, ethical choices and attitude toward the world. Through value relations fixed in language structures, phraseological units, and evaluative expressions, the concepts of "good" and "evil" are formed as basic categories of both national culture and universal human thought. The study demonstrates that exploring these categories allows for a deeper understanding of human moral consciousness, national identity and intercultural relations.

***Keywords:*** *value, good and evil, individual, evaluation, concept, culture*

## Giriş

Obyektiv dünya insan tərəfindən dəyər xarakteri baxımından bölünür. "Əslində, insan fəaliyyətinin obyektlərinin, sosial münasibətlərin və onların əhatə dairəsinə daxil olan təbiət hadisələrinin bütün müxtəlifliyi dəyər münasibətlərinin obyekti kimi "mövzu dəyərləri" qismində çıxış edə bilər, məsələn, yaxşı və şər, həqiqət və yalan, gözəllik və ya çirkinlik, icazəli və ya haram, ədalətli və ya ədalət-iz və s." (Verdzhbitskaya, 2001). Dəyər aspektləri insanın idrak fəaliyyəti ilə sıx bağlıdır,

Creaive Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

"dəyər kateqoriyaları özləri müxtəlif sosial qrupların və fərdlərin biliklərinin, maraqlarının və üstünlüklərinin ekstremal istiqamətlərini ifadə edir" (Verdzhbitskaya, 2001). Cəmiyyətdə dəyər münasibətlərinin mühüm tərkib hissəsi şəxsiyyətin dəyər oriyentasiyasıdır. Fərdin dəyər oriyentasiyasının məzmununun mühüm komponentlərindən biri onun mənəvi inancları və davranış prinsipləridir. Fərdin dəyər oriyentasiyası mürəkkəb məsələlərin, eləcə də, xeyirlə şər arasında seçim məsələsinin həllinin əsasını təşkil edir. Fərdin dünya obrazı "obyektiv dünyadakı həyat tərzi" ilə müəyyən edilir (Petrenko, 1988, p. 10).

Obyektiv dünya, ətrafdakı reallıq "insanlaşmış dünya", insanın mədəni və tarixi varlığı kimi başa düşülür, bununla da insanın dünyanı qavrayışı və dərk etməsi mədəni və tarixi mövcudluqdan qaynaqlandığı aydın olur (Rassel, 1987).

**Tədqiqat**

"Xeyir" və "şər" anlayışları mücərrəd anlayışlar olsa da, onların arxasında obyektiv fəaliyyət, fərdin başqa insanlara münasibəti, şəxsi dəyərləndirməsi, obrazda əks olunmuş bilik təcrübəsi gizlənir. Başqa sözlə, obyektiv insan fəaliyyətinin bütün müxtəlifliyi dəyər münasibətlərinin obyekti kimi "obyektiv dəyərlər" (Verdzhbitskaya, 2001) rolunda çıxış edə bilər.

V.İ.Karasikin fikrincə, dəyərlər linqvistik şəxsiyyətin strukturunda xüsusi yer tutur və "mədəniyyətin ən fundamental xüsusiyyətlərini, davranışın ən ali oriyentirlərini" özündə ehtiva edir; kommunikativ şəxsiyyət "mədəni-linqvistik və kommunikativ-fəaliyyət dəyərlərinin, biliklərinin, münasibətlərinin və davranış reaksiyalarının daşıyıcısının ümumiləşdirilmiş obrazıdır" (Kolesov, 1999, p. 166).

Dəyər münasibətləri dil strukturlarında təsbit edilir. Qiymətləndirmə, mənanın dəyər aspekti kimi ən müxtəlif linqvistik ifadələrdə mövcuddur. "Qiymətləndirmə" sözü adətən subyekt və obyekt arasında dəyər münasibətinin qurulmasını təyin etmək üçün istifadə olunur. Dəyər və ya xeyir dedikdə biz adətən arzu, ehtiyac, istək, maraq və s. obyekti olan hər şeyi başa düşürük" (Karasik, 2002, p. 25). Qiymətləndirmə adətən müxtəlif əlamətlər əsasında verilir, qiymətləndirmə dəyərlərinin əsas sferası "yaxşı"–"pis" əlaməti ilə əlaqələndirilir. İnsanın ətraf aləmə münasibəti birmənalı deyil, o, dünyanı özünə xas olan dəyər sistemi baxımından qiymətləndirir.

Tədqiqatın aparılması üçün mənəvi şüurun "xeyir" və "şər" normativ-qiymətləndirici kateqoriyalarının seçilməsi ona əsaslanır ki, bu anlayışlar bütün insanlar üçün ümumi olan az sayda universal anlayışlar sırasındadır. Biz bütün mədəniyyətlərdə bu anlayışlara rast gəlinməsi faktına əsaslanırıq. "Xeyir" və "şər" anlayışları "şəxsi-ictimai dəyərlər" kateqoriyasına aiddir (Kolesov, 1999); qeyd olunan anlayışlar hər bir insanda, hər bir insan qrupunda və xalqda mövcuddur, yəni onlar universal anlayışlardır.

Bununla belə, bu cür anlayışlar "qeyri-dəqiq anlayışlar" və ya qeyri-müəyyən sərhədləri olan anlayışlar kimi qəbul edilirlər (Babushkin, 1996). Həqiqətən, bu anlayışların sərhədləri nisbidir və bir çox amillərdən: fərdin şəxsi və mədəni təcrübəsindən, cəmiyyətin və elmin inkişaf dərəcəsindən və s.-dən asılıdır. Əksər linqvistik anlayışların dəqiq müəyyən edilmiş sərhədlərinin olmaması, ümumiyyətlə, insan təfəkkürünün sərhədlərinin qeyri-müəyyənliyindən xəbər verir və "dünyanın ehtimal baxışları sahəsində tədqiqatlara təkan verir" (Babushkin, 1996, p. 14).

Yu.S.Stepanov anlayışın sərhədlərini həm "yuxarıdan" – abstrakt təriflər sferasında, həm də "aşağıdan" – fərdi təcrübə sferasında müəyyən edir. Anlayışın yuxarı sərhədi insanlardan asılı olmayaraq mövcuddur, anlayışın aşağı sərhədi isə "bu anlayışı onun bütün "qatlarında" istifadə edən insanların dairəsindən asılıdır. İnsanların dairəsi nə qədər dar olarsa, assosiasiyalar bir o qədər zəngin olur (xüsusiyyətlərin sayı, anlayışın məzmunu) və bunu artıq lüğətdə təsvir etmək mümkün deyil və prinsipcə, ümumiyyətlə təsvir edilə bilməz" (Tselishchev, 1977, p. 81).

Qeyd etmək lazımdır ki, "xeyir" və "şər" anlayışları bir-birinə ziddir və özlərində fəlsəfi dilemma yaradır. Bu dilemma ideoloji mövqelərə söykənir, ona görə də deyə bilərik ki, bu, mənəviyyatla, əxlaqla, mədəniyyətlə, milli şüurla sıx bağlı olan məsələdir. "Yaxşılıq və pislik subyektivdir, yaxşılıq sadəcə bir hiss etdiyimiz şeydir, pislik isə fərqli hiss etdiyimiz bir şeydir. Seçim etməli olduğumuz və iki mümkün hərəkətdən birinə üstünlük verməli olduğumuz aktiv həyatda yaxşı ilə şər (və ya ən azı daha yaxşı və daha pis) arasında fərq lazımdır" (Stepanov, 2002, p. 37). Təbii dillə dəyərlərin xüsusi (elmi, dini və s.) təsvirləri arasında fərqin olduğunu" (Kolesov, 1999, p. 167) nəzərə alaraq, müxtəlif dinlər və dünyagörüşü sistemləri çərçivəsində "xeyir" və "şər" anlayışları müxtəlif mövqelərdən

nəzərdən keçirilir: məsələn, xeyir və şərin mənşəyi baxımından, xeyir və şərin qarşılıqlı əlaqəsi baxımından, insanın xeyir və şərə münasibəti baxımından və s. Biz məsələni insanın xeyir və şərə münasibəti mövqeyindən nəzərdən keçirəcəyik, çünki bu anlayışlar insanın dünyaya və onun hadisələrinə münasibətini əks etdirən baxış sistemi ilə sıx bağlıdır.

"Xeyir" və "şər"in əxlaqi və qiymətləndirici kateqoriyaları bu və ya digər hadisələrin şəxs və ya qruplar tərəfindən dərk edilməsi prosesi üzərində qurulur. Bu dərketməyə əsasən, "xeyir" və "şər" anlayışları birbaşa nəyəsə — məsələn, fərd, xalq, hakimiyyət, din və s.-yə — ötürülür. Nəyin xeyir, nəyin şər olması haqqında şəxsi qavrayış əsasında dünyada baş verən hadisələr dərk edilir.

İ.A.Vasilenko haqlı olaraq deyir ki, "qlobal dünyada sivilizasiyaların dialoqu üçün məkan xüsusi 'incə' tipli sosial-mədəni impulslarla zəngindir və rasional tipli bilikləri səfərbər etməklə bu impulsları şərh etmək praktiki olaraq mümkünsüzdür: onların mənbələri insan ruhunun dərinliklərində, mədəniyyətin görünməz bucaqlarında gizlidir…" (Ivin, 1997, p. 9).

V.V.Tselişçevin "mümkün dünyalar müəyyən bir fərdin münasibətinə uyğun gələn mümkün vəziyyətləri və ya hadisələrin mümkün gedişatını təmsil edir" fikrini nəzərə alaraq, aşağıdakıları qəbul etmək olar: insanın konseptual sisteminin sabitlərini təmsil edən "xeyir" və "şər" mənəvi-qiymətləndirici kateqoriyaları, mövcud vəziyyət və hadisələrin gedişatını idarə etmək üçün şəxsiyyətlərarası ünsiyyət prosesində kömək edən şeylərdir (Vasilenko, 1999, p. 30).

Bizim daxili dünya mənzərəsi, bizim dəyərlər sistemi, bizim pis və yaxşı haqqında təsəvvürlərimiz, bizim həyat nəticələrimiz öz əksini dildə tapır. "Dünyanın bütün müxtəlifliyi və bizim dünya haqqındakı fikir və təsəvvürlərimiz söz və dil vasitəsilə çatdırıla bilər" (Leont'yev, 1979, p. 104).

Xeyir və şər konseptləri mənacə əks olan antonim cütlük formalaşdırır. Xeyir və şər bir medalın iki tərəfidir: ön tərəfi xeyir, medalın əks tərəfi isə şərdir. Məhz buna görə də "şər" anlayışının xüsusiyyətlərinin öyrənilməsi "xeyir" anlayışı haqqında daha aydın təsəvvür yarada bilər və yaxud əksinə.

Maraqlıdır ki, A.Verdzhbitskaya qeyd edir ki, "yaxşı" və "pis" elementar anlayışlardır və "ümumbəşəri 'insan düşüncəsinin əlifbasına' aiddir" və dünyanın bütün dillərində onların ekvivalentləri var" (Filosofskiy entsiklopedicheskiy slovar', 1983, p. 20). İstənilən mədəniyyət, müəyyən bir cəmiyyət üçün əsas anlayışları özündə cəmləşdirən "açar sözlər" vasitəsilə linqvistik model əsasında təsvir edilə bilər. "Vəzifə, öhdəlik, təqsir, bəraət, vicdan, yaxşı, düzgün və s. kimi sözlərdən istifadə zamanı konkret xalqın etik ideyalarının açarını axtarmaq olar" (Arutyunova, 1999, p. 24).

## Nəticə

"Xeyir" və "şər" anlayışları insan düşüncəsinin əsas dəyər kateqoriyaları olmaqla, həm fəlsəfi, həm də linqvistik baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu anlayışlar universallığı ilə seçilsə də, onların məzmunu fərdi və mədəni təcrübəyə bağlı olaraq dəyişə bilir. Tədqiqat nəticələri göstərir ki, "xeyir" və "şər" konseptləri dil və mədəniyyət vasitəsilə formalaşaraq insanın dünyaya münasibətini, mənəvi oriyentasiyasını və əxlaqi seçimlərini əks etdirir. Bu konseptlərin öyrənilməsi yalnız insanın mənəvi dünyasını daha dərindən anlamağa deyil, həm də milli kimliyi və mədəniyyətlərarası əlaqələri dərk etməyə imkan yaradır.

## Ədəbiyyat

1. Arutyunova, N. D. (1999). *Yazyk i mir cheloveka*. Moskva: Yazyki russkoy kul'tury.
2. Babushkin, A. P. (1996). *Tipy kontseptov v leksiko-frazeologicheskoy semantike yazyka*. Izd-vo VGU.
3. Filosofskiy entsiklopedicheskiy slovar'. (1983). Sovetskaya entsiklopediya.
4. Ivin, A. A. (1997). *Osnovy teorii argumentatsii*.
5. Karasik, V. I. (2002). *Yazykovoy krug: lichnost', kontsepty, diskurs*. Peremena.
6. Kolesov, V. V. (1999). *Zhizn' proiskhodit ot slova*. Nauka.
7. Leont'yev, A. N. (1979). Psikhologiya obraza. *Vestnik MGU. Seriya 14: Psikhologiya*, 2, 3–13.
8. Petrenko, V. F. (1988). *Psikhosemantika soznaniya*.
9. Rassel, B. (1987). Mistitsizm i logika. In *Pochemu ya ne khristianin,* 37–60.

10. Stepanov, Yu. S. (2002). *Imena, predikaty, predlozheniya (semiologicheskaya grammatika)*. Yeditorial URSS.
11. Tselishchev, V. V. (1977). *Filosofskiye problemy semantiki vozmozhnykh mirov*.
12. Vasilenko, I. A. (1999). *Dialog tsivilizatsiy: sotsiokul'turnyye problemy politicheskogo partnerstva*.
13. Verdzhbitskaya, A. (2001). *Sopostavleniye kul'tur cherez posredstvo leksiki i pragmatiki*. Yazyki slavyanskoy kul'tury.

Daxil oldu: 16.05.2025
Qəbul edildi: 18.08.2025

DOI: https://doi.org/10.36719/2663-4619/121/57-60

**Sevil Vəliyeva**
Sumqayıt Dövlət Universiteti
dissertant
https://orcid.org/0000-0002-1692-6639
sevil-veliyevaSDU@mail.ru

# Mediada presedent hadisələrin diskurs səviyyəsində verballaşması

## Xülasə

Məqalə kütləvi informasiya vasitələrində (KİV) presedent hadisələrin və presedent fenomenlərin diskurs səviyyəsində necə verballaşdığını araşdırır. Presedentlik Yu.N.Karaulovun təklif etdiyi yanaşmaya əsasən, dil daşıyıcısının kollektiv yaddaşında yüksək dərəcədə tanınan mətnlərə, adlara, situasiyalara və ifadələrə təkrar müraciət olunması ilə xarakterizə olunur. Media diskursunda bu vahidlər başlıqların, lidlərin və sitatların intertekstual quruluşu vasitəsilə yenidən mənalandırılır, semantik və qiymətləndirici funksiyalar daşıyır. Tədqiqat presedent fenomenlərin qəzet başlıqlarında transformasiya, leksema əvəzlənməsi, kalambur və morfoloji oyun vasitəsilə aktualizasiyasını göstərən nümunələri nəzərdən keçirir və onların ideoloji çərçivələrin qurulmasında rolunu izah edir. Nəticədə presedent hadisələrin verballaşması auditoriyanın kollektiv bilik bazasına söykənən qısa, lakin yüksək informasiya sıxlığına malik məna siqnalları yaradır; bu siqnallar media mətnlərinin koqnitiv emalını asanlaşdırır, mövqeləndirmə və qiymətləndirməni isə səmərəli şəkildə kodlaşdırır.

***Açar sözlər:*** *presedent fenomen, presedent mətn, media diskursu, intertekstualitet, başlıq strategiyaları*

**Sevil Valiyeva**
Sumgait State University
PhD student
https://orcid.org/0000-0002-1692-6639
sevil-valiyevaSDU@mail.ru

# Verbalization of Precedent Events in the Media at the Level of Discourse

## Abstract

This article examines how precedent events and precedent phenomena are verbalized at the level of media discourse. Following Yu.N.Karaulov's approach, *precedentness* is characterized by recurrent appeals to texts, names, situations and expressions that are highly recognizable in the collective memory of language users. In media discourse, such units are re-interpreted through the intertextual architecture of headlines, leads and quotations, and they perform both semantic and evaluative functions. The study reviews examples showing how precedent phenomena are activated in newspaper headlines via transformation**,** lexical substitution, punning and morphological play, and it explains their role in ideological framing. Overall, the verbalization of precedent events generates brief yet high-information meaning signals grounded in the audience's collective knowledge base; these signals facilitate the cognitive processing of media texts while efficiently encoding positioning and evaluation.

***Keywords:*** *precedent phenomenon, precedent text, media discourse, intertextuality, headline strategies*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Media dilində diskurs yalnız informativ məqsəd daşımır, həm də manipulyativ və təsiredici funksiyalara malikdir. Jurnalistlər və redaktorlar informasiya təqdim edərkən yalnız "nə baş verib?" sualına cavab vermir, həm də hadisəni müəyyən bir kontekstdə təqdim etməklə oxucunun və ya tamaşaçının düşüncəsinə təsir göstərirlər. Bu təsir vasitələri arasında leksik seçimlər, vurğuların paylanması, metaforalar və konnotativ ifadələr xüsusi yer tutur.

Mediada diskurs əslində güc və ideologiyanın daşıyıcısıdır. Hər bir xəbər, məqalə və ya reportaj müəyyən ideoloji çərçivədən çıxış edir və reallığı obyektiv yox, subyektiv şəkildə təqdim edir. Bu kontekstdə presedent hadisələr media diskursunun struktur elementləri kimi informasiya mənbəyi olmaqla yanaşı, həm də mövcud narrativin leqitimləşdirilməsinə xidmət edir.

Media diskursu ictimai-siyasi reallığın dil vasitəsilə qurulduğu, paylaşdırıldığı və müzakirə olunduğu semiotik məkandır. Diskursu "məna istehsalının sosial praktikası" kimi başa düşən yanaşmalar KİV-də dilin yalnız təsvir yox, həm də fəaliyyət – sosial münasibətləri qurma aləti olduğunu vurğulayır (Matheson, 2005, pp. 19–20). Xəbər janrının quruluşu isə mövzunun seçimi, başlıq–lid–mətn münasibətləri və xəbər sxemaları ilə bağlı sabit konvensiyalara söykənir (van Dijk, 1988, p. 11; pp. 189–191). Bu çərçivədə presedent hadisələr – tanınmış tarixi-siyasi situasiyalar, mədəni adlar, sitatlar və ifadələr – intertekstual istinad mexanizmləri vasitəsilə oxucu yaddaşına aktiv siqnallar göndərir; nəticədə məna sürətləndirilir və qiymətləndirici komponent iqtisad olunur.

Presedentlik nəzəriyyəsinin əsasları rus dilçilik məktəbində formalaşmışdır. Yu.N.Karaulov "прецедентный текст" dəyişməz nüvəyə malik kollektiv mədəniyyət vahidi kimi izah edir və onun "üstşəxsi" xarakterini – yəni fərdi sərhədləri aşaraq geniş auditoriya üçün tanış olmasını – xüsusi qeyd edir (Karaulov, 2010, pp. 216–219). D.B.Gudkov presedent adın ("прецедентное имя") koqnitiv bazadakı rolunu, yəni müəyyən hadisə və ya şəxs haqqında ensiklopedik biliklərin siqnalı olduğunu göstərir (Gudkov, 1998, pp. 82–85). V.V.Krasnıxın işlərində isə presedent fenomenlərin tanınma dairəsinə görə qruplaşdırılması – universal, milli və sosium səviyyələri – təklif olunur (Astafyeva, 2019, pp. 55–56). Bu çərçivə media mətnlərində intertekstual istinadların auditoriya ilə "ümumi bilik sahəsi" üzərində qurulduğunu anlamağa imkan verir.

**Tədqiqat**

Tədqiqat media diskursunun nəzəri çərçivələrinə – xəbər sxemaları, ideoloji mövqeləndirmə, intertekstualitet – və presedentlik konsepsiyasına əsaslanır (van Dijk, 1988, p. 11; pp. 189–191; Karaulov, 2010, pp. 216–219). Material kimi beynəlxalq media praktikası üzrə ümumi müşahidələrə, eləcə də qəzet başlıqlarında presedent modellərin istifadəsini sistemli şəkildə sənədləşdirən nümunəvi işə istinad edilir (Astafyeva, 2019, pp. 55–59). Məqsəd presedent hadisələrin verballaşmasının əsas mexanizmlərini, funksiyalarını və praqmatik nəticələrini təsvir etməkdir.

**1. Diskurs səviyyəsində verballaşma: makro və mikro mexanizmlər.**

Xəbər diskursunun makro səviyyəsində presedent hadisələr redaksiya gündəmini çərçivələyir: müəyyən bir tarixi və ya siyasi situasiyaya işarə edən başlıqlar oxucuda hazır "ssenari"ni aktivləşdirir (van Dijk, 1988, pp. 189–191). Mikro səviyyədə isə leksik-semantik transformasiyalar – frazeoloji vahidlərin komponent əvəzlənməsi, başlıqlarda kalambur, morfoloji oyun – presedent modelin aktualizasiyasını təmin edir (Astafyeva, 2019, pp. 55–59). Belə transformasiyalar həm tanınmanı (recognition) gücləndirir, həm də yeni reallığa uyğun mənalandırma yaradır. Nəticədə presedent hadisə "sitata çevrilmiş situasiya" kimi çıxış edir: mənbə mətnin bütöv ideya çərçivəsi qısa işarələrlə oxucunun yaddaşında çağırılır (Karaulov, 2010, pp. 217–219).

**2. Koqnitiv baza və auditoriya dizaynı.**

Qudkovun təsvir etdiyi kimi, presedent adlar kollektiv koqnitiv bazaya bağlıdır və mediada "şəxsiyyət–sitat–storyline" üçlüyü kimi işləyir (Qudkov, 1998, pp. 82–85). Auditoriya dizaynı baxımından redaksiya həmin koqnitiv bazanı paylaşdığını fərz etdiyi oxucu profillərinə istinad edir; bu zaman universal (qlobal), milli və spesifik sosium səviyyələrində tanınan presedentlərdən istifadə edilir (Astafyeva, 2019, pp. 55–56). Beləliklə, intertekstualitet yalnız mətnlərarası əlaqə deyil, həm də "biliklərarası müqavilə"dir (Matheson, 2005, p. 24). Bu müqavilə pozulduqda – auditoriya presedent siqnalını tanımadıqda – başlıq semantikası zəifləyir və kommunikativ qənaət effekti itir.

**3. Funksional spektr: qiymətləndirmə, mövqeləndirmə, ideoloji çərçivə.**

Presedent hadisələrin verballaşması, bir qayda olaraq, qiymətləndirici (evaluativ) funksiyaya malikdir: hazır assosiasiyalar vasitəsilə hadisələrə "yaxşı–pis", "qanuni–qanunsuz", "yeni–köhnə" kimi dəyərləndirmələr yüklənir. Bu, xəbər mətni üçün lazımi ideoloji çərçivəni qurur (van Dijk, 1988, pp. 189–191). CDA ənənəsinə görə, belə dil seçimləri hakim diskursların təkrar istehsalında həlledicidir; konkret söz birləşmələri, metaforalar və sitatlar vasitəsilə güc münasibətləri "normal" kimi təqdim edilir (Matheson, 2005, pp. 19–20). Presedent model bu prosesdə qısa yoldur: az sözlə çox sosial məna ötürür.

**4. Dil mexanizmləri: leksik, frazeoloji və sintaktik göstəricilər.**

Astafyevanın qəzet başlıqları üzrə təhlili göstərir ki, presedent vahidlər ən çox aşağıdakı üsullarla verballaşır: (a) sabit ifadənin bir komponentinin əvəzlənməsi; (b) sabit modelin genişləndirilməsi; (c) homonimiya və omoqrafiya əsasında kalambur; (d) sitatın ironik kontekstə köçürülməsi (Astafyeva, 2019, pp. 55–59). Bu texnikalar Azərbaycan mediasında da geniş müşahidə olunur; məqalə və reportajların başlıqlarında atalar sözləri, ədəbiyyatdan sitatlar və populyar mədəniyyət istifadələri vasitəsilə oxucu ilə sürətli semantik əlaqə qurulur. Leksik səviyyədə nitq hissələrinin dəyişməsi və törəmə vasitələri (suffiksasiya, kompozisiya) diqqəti cəlb edən yeni formalara gətirib çıxarır; sintaktik səviyyədə isə parataksisli, elliptik və nominal başlıqlar presedent modelin "şifrəsini" daha da konsentratlaşdırır (van Dijk, 1988, pp. 189–191).

**5. İntertekstualitetin (yenidən) qurulması.**

Intertekstual analiz göstərir ki, media mətnləri əvvəlki mətnləri – ədəbi nümunələri, siyasi şüarları, populyar ifadələri – sitat, alluziya və parafraz vasitəsilə "yükləyir" (Matheson, 2005, p. 24; pp. 192–193). Karaulov presedent mətni natamam, işarəvi istinadla aktivləşən "semiotik dolaşıq" kimi təsvir edir; belə hallarda orijinal mətn tam gətirilmədən onun ideyası diskursa daxil olur (Karaulov, 2010, pp. 217–219). Bu mexanizm media istehsalında həm kreativlik, həm də iqtisad prinsipini təmin edir.

**6. Etik və kommunikativ risklər.**

Presedent hadisələrdən istifadənin uğuru auditoriya ilə ortaq koqnitiv bazanın mövcudluğundan asılıdır. Tanınmayan istinadlar "qapalı kod" effekti yaradır və informativliyi azalda bilər. Bundan başqa, ironiya və satira ilə yüklənmiş presedent modellər həssas mövzularda qeyri-dəqiq mövqeləndirmə, stereotiplərin təkrarı kimi risklər daşıyır. Buna görə diskurs redaktəsində intertekstual istinadların etik uyğunluğu, konkret auditoriya üçün anlaşma səviyyəsi nəzərə alınmalıdır.

## Nəticə

Mediada presedent hadisələrin diskurs səviyyəsində verballaşması kollektiv yaddaş, koqnitiv baza və intertekstual mexanizmlər üzərində qurulan mürəkkəb semiotik prosesdir. Başlıqlar və lidlər vasitəsilə işləyən presedent modellər məna istehsalını sürətləndirir, ideoloji çərçivələri kodlaşdırır və auditoriya ilə ortaq bilik sahəsini aktivləşdirir (van Dijk, 1988, p. 11; pp. 189–191; Matheson, 2005, pp. 19–20). Karaulovun və Qudkovun konseptualizasiyaları presedent vahidlərin dil–mədəniyyət sərhədində yerləşən və həm koqnitiv, həm də kommunikativ funksiyaları yerinə yetirən 'məna daşıyıcıları' olduğunu göstərir (Karaulov, 2010, cc. 216–219; Qudkov, 1998, pp. 82–85). Praktik nəticə kimi, xəbər istehsalçıları üçün presedent istinadların məqsədli auditoriya ilə paylaşılmış bilikləri nəzərə alan, etik cəhətdən adekvat və semantik baxımdan qənaətcil istifadəsi tövsiyə olunur.

## Ədəbiyyat


1. Astafyeva, I. A. (2019). Playing with words: Precedent texts on the pages of the *Kommersant* newspaper. *Humanitarian Studies*, *4*(25), 55–59.
https://vestnik-omgpu.ru/volume/2019-4-25/vestnik_4(25)2019_55-59.pdf
2. Bakhtin, M. M. (1986). *Speech genres and other late essays*. University of Texas Press.
3. Bell, A. (1991). *The language of news media*. Blackwell.
4. Chilton, P. (2004). *Analysing political discourse: Theory and practice*. Routledge.
5. Fairclough, N. (1995). *Critical discourse analysis: The critical study of language*. Longman.

6. Fowler, R. (1991). *Language in the news: Discourse and ideology in the press*. Routledge.
7. Gudkov, D. B. (1998). Precedent name and its functioning features. In *Language, consciousness, communication* (Issue 4, 82–90). https://www.philol.msu.ru/~otipl/new/main/elib/lsik04/82.pdf
8. Karaulov, Yu. N. (2010). *Russian language and linguistic personality*, 216–219. LKI/URSS. https://discourses.org/wp-content/uploads/2022/06/Karaulov-linguoculturology-linguopersonality-2010.pdf
9. Kristeva, J. (1986). *The Kristeva reader*. Blackwell.
10. Matheson, D. (2005). *Media discourses: Analysing media texts*. Open University Press. https://coehuman.uodiyala.edu.iq/uploads/Coehuman%20library%20pdf/English%20library.../Media%20Discourses.pdf
11. Van Dijk, T. A. (1988). *News as discourse*. Hillsdale, NJ: Lawrence Erlbaum. https://discourses.org/wp-content/uploads/2022/06/Teun-A.-van-Dijk-1988-News-As-Discourse.pdf
12. Wodak, R., & Meyer, M. (2009). *Methods of critical discourse analysis*. SAGE.

Daxil oldu: 15.05.2025
Qəbul edildi: 04.08.2025

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 9 / 61-66 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 9 /61-66 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/121/61-66

**Hüsniyyə İsmayılova**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0006-9875-5154
husniyyaismayilov@gmail.com

# Dilin və nitqin təsnif anlayışı

## Xülasə

Məqalə dilin və nitqin funksional təsnifatını və onların ictimai rolu ilə bağlı nəzəri əsasları araşdırır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də düşüncə, mədəniyyət və ictimai şüurun daşıyıcısıdır. Müasir dilçilikdə dilin bir neçə funksiyası – kommunikativ, tənzimləyici, idrak, akkumulyativ, milli-mənəvi, ekspressiv, estetik və ideoloji – fərqləndirilir.

Əsas diqqət dilin kommunikativ funksiyasına yönəldilir, çünki digər bütün funksiyalar onun əsasında formalaşır. Məqalədə dilin tənzimləyici funksiyası ayrıca vurğulanır və psixologiya ilə əlaqəli şəkildə izah olunur: nitq yalnız məlumat ötürmək üçün deyil, həm də insan davranışını planlaşdırmaq və tənzimləmək üçün əsas vasitədir. İdrak funksiyası isə obyektiv gerçəkliyi dərk etmək və fikri formalaşdırmaqda mühüm rol oynayır.

Ümumilikdə, məqalə dilin çoxfunksiyalı, qarşılıqlı əlaqəli və ictimai-tarixi təcrübəni daşıyan bir sistem olduğunu göstərir.

Məqalədə dil və nitqin təsnif anlayışları, onların funksional baxımdan öyrənilməsi nəzəri-metodoloji əsaslarla təhlil olunur. Dil yalnız ünsiyyət vasitəsi olmaqla kifayətlənmir, eyni zamanda insan təfəkkürünün, mədəniyyətin və ictimai şüurun daşıyıcısı kimi çıxış edir. Müasir dilçilik tədqiqatlarında dilin çoxşaxəli funksiyaları fərqləndirilir: kommunikativ, tənzimləyici, idrak (konstruktiv), akkumulyativ, milli-mənəvi, ekspressiv, estetik və ideoloji funksiyalar.

Tədqiqatda vurğulanır ki, dilin əsas və aparıcı funksiyası kommunikativlikdir; digər bütün funksiyalar onun əsasında formalaşır və fəaliyyət göstərir. İdrak funksiyası isə obyektiv reallığın qavranılması, biliklərin formalaşdırılması və təfəkkürün təşəkkülündə həlledici rol oynayır. Beləliklə, məqalədə dilin çoxfunksiyalı təbiəti, funksiyalararası qarşılıqlı əlaqə və ictimai-tarixi təcrübənin dil vasitəsilə nəsildən-nəslə ötürülməsi məsələləri elmi əsaslarla sistemləşdirilmişdir.

***Açar sözlər:*** *dilçilik, nitq funksiyaları, funksional təsnifat, kommunikativ funksiya, tənzimləyici funksiya, idrak funksiyası, akkumulyativ funksiya, psixolinqvistika, sosial ünsiyyət*

**Husniyya Ismayilova**
Baku State University
https://orcid.org/0009-0006-9875-5154
husniyyaismayilov@gmail.com

# The Classification Concept of Language and Speech

## Abstract

The article examines the functional classification of language and speech and their theoretical foundations regarding their social role. Language is not only a means of communication, but also a carrier of thought, culture, and social consciousness. Modern linguistics distinguishes several functions of language, including communicative, regulatory, cognitive, accumulative, national-spiritual, expressive, aesthetic and ideological functions.

Particular emphasis is placed on the communicative function of language, as all other functions are formed based on it. The article highlights the regulatory function of language, explaining it in connection with psychology—speech is not only used to transmit information, but also serves as a

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

primary tool for planning and regulating human behavior. The cognitive function plays a crucial role in perceiving objective reality and shaping thought.

Overall, the article demonstrates that language is a multifunctional, interrelated system that carries socio-historical experience. It analyzes the classification concepts of language and speech from functional perspectives, based on theoretical and methodological principles. Language is presented not merely as a means of communication but as a fundamental vehicle of human cognition, culture, and collective consciousness.

The study emphasizes that communication is the primary function of language, with all other functions operating within its framework.

The cognitive function is decisive for acquiring knowledge, understanding reality, and developing reasoning abilities.

Thus, the article systematically explores the multifunctional nature of language, the interconnection of its functions, and its role in preserving and transmitting socio-historical experience across generations.

***Keywords:*** *linguistics, speech functions, functional classification, communicative function, regulatory function, cognitive function, accumulative function, psycholinguistics, social communication*

## Giriş

Dil cəmiyyətin ən mühüm sosial institutlarından biri olmaqla, yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda düşüncə tərzinin, mədəniyyətin və ictimai şüurun daşıyıcısıdır. İnsan fəaliyyətinin bütün sahələrində mühüm rol oynayan dil, onun funksional imkanları və tətbiq sahələri ilə birbaşa bağlıdır. Bu baxımdan dilin funksional təsnifi dilçilikdə mühüm istiqamətlərdən biri kimi çıxış edir. Müasir dilçilikdə dilin funksiyalarının müxtəlif aspektlərdən öyrənilməsi — onun kommunikativ, idrak, ekspressiv, estetik, ideoloji və digər funksiyalarını fərqləndirməyə imkan verir. Eyni zamanda bu funksiyalar dilin yalnız nəzəri səviyyədə deyil, real nitq situasiyalarında necə fəaliyyət göstərdiyini göstərir. Bu məqalədə dilin əsas funksiyaları təhlil edilir, onların bir-biri ilə əlaqəsi, qarşılıqlı münasibətləri araşdırılır. Məqsəd – dilin mahiyyətinin praktik təzahürlərini sistemləşdirmək və funksional təsnifin ümumi elmi-nəzəri əsaslarını müəyyənləşdirməkdir.

**Tədqiqat**

Dilçilik ədəbiyyatında ümumiləşdirmənin rolunu xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, ümumiləşdirmə olmadan heç bir ünsiyyət mümkün deyildir; təfəkkür yalnız ümumiləşdirmə vasitəsilə gerçəkliyi inikas edir. Dil və nitq həmişə dilçilik ədəbiyyatında fərqləndirildiyi halda, nədənsə onların ictimai funksiyaları fərqləndirilmir və hər iki hadisənin funksiyası dilin funksiyaları kimi göstərilir.

Məsələn, R.Yakobson nitq aktını təşkil edən faktorları belə qeyd edir: a) göndərən; b) qəbuledən; c) konteks; d) məlumat; e) kod; f) kontakt. Buna uyğun olaraq o, dilin altı funksiyasını göstərir:

1. emotiv funksiya; 2) konativ funksiya; 3) referent funksiyası; 4) dil haqqında dil vasitəsilə danışmaq imkanını şərtləndirən metadil funksiyası; 5) fatik funksiya (kontakt yaratmaq funksiyası) və 6) poetik funksiya.

Elmi ədəbiyyat göstərir ki, həm dil çoxfunksiyalı, həm də funksiyalar bir-birilə sıx əlaqədədir. İnsanın nitq fəaliyyətində dilin funksiyaları aşağıdakılardır:

1. dilin kommunikativ funksiyası; 2) dilin tənzimləyici funksiyası; 3) dilin idrak (konstruktiv) funksiyası; 4) dilin bəşəriyyətin ictimai-tarixi təcrübəsinə yiyələnmə (akkumulyativ) funksiyası; 5) dilin milli-mənəvi funksiyası; 6) dilin ekspressiv funksiyası; 7) dilin estetik funksiyası; 8) dilin ideoloji funksiyası.

Dilin ünsiyyət formalarından biri olan kommunikativ funksiya dilin əsas funksiyası olaraq onun bütün digər funksiyaları məhz bu funksiyanın əsasında baş tutur və bütün funksiyalar bu funksiya ilə şərtlənir. Buna misal olaraq, "Dilin insanlar arasında ən mühüm ünsiyyət vasitəsi" olması bir daha sübut edir ki, dilin ünsiyyət forması onun mahiyyətini təşkil edir. Nəticə etibarilə dilin kommunikativ funksiyasını araşdırarkən onun bütün digər funksiyalarda da təzahür etməsi görülür.

Tənzimləyici funksiya dilin əsas funksiyalarından biri olsa da, dilçilik ədəbiyyatında bu məsələyə kifayət qədər toxunulmur; psixologiyaya həsr olunmuş əsərlərdə bu funksiya ya dilin kommunikativ funksiyası ilə, ya da dilin idrak funksiyası ilə eyniləşdirilir və qarışdırılır. Ancaq bunlar dilin ayrı-ayrı funksiyalarıdır. Dilin tənzimləyici funksiyasını belə izah etmək olar: dil insan davranışını, əxlaqını və müəyyən mənada dünya görüşünü tənzimləyən əsas, bəlkə də yeganə vasitədir (Yakobson, 1960, pp. 353–357).

Nitq təkcə əldə edilmiş təcrübənin ümumiləşdirilməsi vasitəsi və kodlaşdırılması aləti kimi xidmət göstərmir. Dil insanın davranışını tənzimləyən ən əhəmiyyətli vasitələrdən biridir.

Psixologiya baxımından A.A.Leontyev nitqin tənzimləyici funksiyasını belə qruplaşdırır. Nitqin fəaliyyətində bu funksiya mümkün olan üç variantdan birində çıxış edir:

a) kollektiv tənzimləyici funksiya kimi, yəni bir yaxud bir neçə adamın davranışına seçici təsir funksiyası kimi;

b) kollektiv-tənzimləyici funksiya kimi — böyük və diferensiallaşmamış auditoriya üçün nəzərdə tutulmuş kütləvi kommunikasiya (natiq nitqi, radio, qəzet) şəraitində;

c) özünütənzimləyici funksiya kimi, öz davranışını planlaşdırdıqda.

Onu göstərmək vacibdir ki, A.A.Leontyev dilin tənzimləyici funksiyasını kommunikativ (ünsiyyət) funksiyası ilə eyniləşdirir. Dilin tənzimləyici funksiyasının insan həyatında rolu böyükdür və tənzimləyici funksiyanın rolunu dilin ünsiyyət və idrak funksiyalarının rolu ilə müqayisə etmək olar.

Bildiyimiz kimi, obyektiv gerçəkliyin dərk edilməsində, maddi aləmin əşya və hadisələrinin qavranılmasında dilin idrak funksiyasının əhəmiyyətinin böyük olduğunu vurğulamaq olar. Buna həmçinin dilçilikdə dilin qavrama, konstruktiv, normativ, təfəkkür funksiyaları da deyilir. Dilin idrak funksiyası bizi əhatə edən gerçəklik haqqında məlumat almaq vasitəsi olaraq səciyyələndirilir və fikri formalaşdırır.

Bundan əlavə qeyd etmək lazımdır ki, dil təfəkkür aləti olmaq üçün bir sıra funksiyaları həyata keçirərək semasioloji funksiyaya aiddir. Yuxarıda adı çəkilən semasiologiya sözlərin mənasını öyrənir. Məlumdur ki, söz məhz məna vasitəsilə məfhumla əlaqə saxlayır, dil isə məhz sözlərin mənalandırma xüsusiyyəti vasitəsilə fikri ifadə etmə alətinə, təfəkkür alətinə çevrilir.

Tədqiqatda göstərildiyi kimi, sözlə (adla) onun adlandırdığı əşya arasında heç bir üzvi əlaqə yoxdur. Bu əlaqəni yaratmaq üçün nominativ əlaqə kifayət etmədiyinə görə təsvir funksiyasından istifadə edilir. Təsvir funksiyasının adlandırma funksiyası ilə əlaqəyə girməsindən keyfiyyətcə yeni olan ifadə vasitəsi yaranır və bu funksiya özünü mətn səviyyəsində göstərir. Mətn sadəcə olaraq fikirlə bağlı deyil, həm də hərfi mənada fikrin daşıyıcısına çevrilir. Bu səbəbdən biz mətni dinlədikdə, hətta heç vaxt görmədiyimiz və haqqında heç nə bilmədiyimiz əşya ilə bağlı hərtərəfli məlumat əldə edirik.

Dilin idrak funksiyasından danışarkən inikas məsələsinə toxunmaq lazımdır. İnikas ilə inikas etdirmə qabiliyyətini fərqləndirmək zəruridir. Dilin bəzi strukturları inikas etdirmə qabiliyyətinə malikdir, lakin özləri inikas etmir, inikas etdirmə qabiliyyətini dil vasitələrindən əxz edir.

Dilin digər funksiyalarından biri də bəşəriyyətin ictimai-tarixi təcrübəsini toplamaq, ona yiyələnmək funksiyasıdır, qısaca desək, dilin akkumulyativ funksiyasıdır. Məlumdur ki, hər yeni insan nəsli öz fəaliyyətini əvvəlki nəsillərin əldə etdiyi təsərrüfat, elm və texniki nailiyyətlər üzərində qurur. Hər yeni nəsil öz fəaliyyətinə ibtidai mərhələdən, necə deyərlər, sıfırdan başlasa idi, onda bəşəriyyət nə indiki inkişaf səviyyəsinə çata bilərdi, nə də belə bir inkişafı xəyalına gətirə bilərdi.

Bəşəriyyətin qazandığı bütün nailiyyətlər, təsərrüfat, elm, texnika, ədəbiyyat və mədəniyyətin inkişafındakı müasir səviyyə yalnız dil vasitəsilə mümkündür. Dilin akkumulyativ funksiyası bəşəriyyət tərəfindən toplanan əvvəlki ictimai təcrübəyə yiyələnmək və ondan istifadə etmək funksiyasıdır. Beləliklə, bu funksiya iki aspektdə təzahür edir: a) məlumatın toplanması vasitəsi;

b) məlumatın nəql edilməsi vasitəsi.

Dilin akkumulyativ funksiyası hər iki aspektin nəticəsində yaranaraq birinci aspektdə idrak funksiyasına, ikinci aspektdə isə dilin ünsiyyət (kommunikativ) funksiyasına uyğun gəlir. Aydındır ki, dilin akkumulyativ funksiyası istər fərdi, istərsə də ictimai planda bəşəriyyətin inkişafı üçün böyük əhəmiyyətə malikdir.

Məhz buna görə də insanlar dil biliklərini əvəzolunmaz bir vasitə sayırlar. Fərdi aspektdən ictimai aspektə keçdikdə dilin bu funksiyası ictimai-tarixi təcrübənin mövcudluğu formasına uyğun gəlir.

Belə nəticəyə gəlmək olar ki, bəşəriyyətin ictimai-tarixi təcrübəsinin mövcudluğu forması dilin vasitəsilə həyata keçirilir. Demək olar ki, bu mənada aləm həqiqətən də insan üçün dillə "parçalanır"; lakin eyni zamanda dil — onu formalaşdırılmış sistem kimi yox, onun təfəkkürü kimi götürsək — bəşəriyyətin ictimai təcrübəsini göstərir.

Dilin akkumulyativ funksiyası ilə sıx əlaqədə olan funksiya dilin milli-mədəni funksiyasıdır. Yuxarıda qeyd olunduğu kimi, bəşəriyyətin ictimai-tarixi təcrübəsinin ümumi ünsürləri ilə yanaşı, hər hansı milli mədəniyyətə xas olan ünsürlər də vardır. Bir sözlə, dil xas olduğu xalqın spesifik əmək şəraitinin, ictimai və mədəni həyatının mövcudluğundan ortaya çıxan və həmin xalqın tarixi təcrübəsi ilə parlayan reallıqları, mücərrəd anlayışları və s. göstərir və gələcək nəsillərə ötürülmək üçün qorunur.

Dilçilik ədəbiyyatında çox zaman dilin yalnız iki funksiyası – kommunikativ və ekspressiv funksiyası olduğu qeyd olunur. Dilin ekspressiv funksiyası onun məlumatı (informasiya) ifadə etmək, nəql etmək və müsahibəyə təsir funksiyasıdır. "Dilin ekspressiv funksiyası təkcə fikrin ifadəsi ilə məhdudlaşmır, insan emosiyasının dildə ifadə edilməsi də dilin bu funksiyasına aiddir."

Bir neçə dilçi alim ekspressiv funksiyanı dilin əsas funksiyası hesab edirlər. Məsələn, K.Fossler dilin ünsiyyət (kommunikativ) funksiyasının insan həyatında bir o qədər də rolu olmadığını düşünür. O, dilin ekspressiv funksiyasına böyük əhəmiyyət verərək onun öyrənilməsini dilin əsas vəzifəsi kimi hesab edir. Şübhəsiz ki, bununla razılaşmaq doğru deyil. Əlbəttə, insan cəmiyyətinin həyati fəaliyyəti üçün dilin ünsiyyət (kommunikativ) funksiyasının əhəmiyyətini qiymətləndirmək çox da asan deyil və burada dilin ekspressiv funksiyasının əhəmiyyəti də az deyildir. Ona görə də B.A.Avrorinin fikrinə haqq qazandırmaq olar. O yazır: "Həqiqətdə isə dilin kommunikativ və ekspressiv funksiyaları bir medalın iki üzü kimidir. Dilin kommunikativ və ekspressiv funksiyalarının hərəsini ayrılıqda müstəqil görmək mümkündür. Lakin onların birini digərindən ayırmaq qeyri-mümkündür. Bəzən xüsusi hallarda, məsələn, daxili nitq zamanı olduğu kimi, fikrin dil ifadəsi kommunikativ aktdan kənarda həyata keçirilə bilər, fikirlər dilxarici vasitələrlə ifadə ediləndə isə kommunikasiya fikrin dil ifadəsindən kənarda mümkündür".

Dilçilik ədəbiyyatında dilin estetik funksiyasından da bəhs olunur. Bu funksiyanın da dilin ekspressiv funksiyası ilə sıx əlaqədar olduğu, özünü bədii ədəbiyyat və incəsənət sahəsində göstərdiyi müşahidə olunur. K.Fossler dilçilikdə dilin estetik formasının öyrənilməsinə daha çox əhəmiyyət verirdi. O, iddia edirdi ki, müəyyən mənada dil incəsənətin bütün sahələrini əhatə edir: məsələn, rəqs – jestlər dilidir, rəssamlıq – rənglər və xətlər dilidir, musiqi – tonlar dilidir, plastika və memarlıq – bərk cisimlər dilidir, poeziya isə "dillər dilidir."

Dilçilik ədəbiyyatında dilin ideoloji funksiyasından da bəhs edilir. Sosioloji dilçiliyin görkəmli nümayəndələrindən biri D.Y.Deşeriyev dilin ideoloji funksiyasını belə göstərir: dilin ideoloji funksiyası onun mühüm sosial funksiyalarından biridir. Bu funksiya istər bütövlükdə dildə, istərsə də dilin hər hansı bir ünsüründə təzahür edə bilər. H.B.Voloşinov yazır ki, söz "istənilən ideoloji funksiyanı daşıya bilər."

Dilin ideoloji funksiyası ilkin ixtisaslaşmış münasibətlər üzərində qurulan törəmə ixtisaslaşmış münasibətlərlə bağlıdır. Beləliklə, məsələn, varlıq mövcud olan bir şeyi göstərir, lakin dindar "əbədi varlıq" dedikdə Allahı nəzərdə tutur.

Yazılı nitqə gəldikdə isə, yazılı nitq ideoloji funksiyanı ifadə etmək üçün böyük imkanlara malikdir, lakin o, şifahi nitq üçün səciyyəvi olan versiyalara malik deyil. Dilin funksiyaları arasındakı bağlar o qədər sıxdır ki, bütün sistemi çoxşaxəli və çoxcəhətli sistem kimi də qəbul etmək olar. Bu səbəbdən, dilin çoxfunksiyalı olduğunu söyləyən dilçi alimlərlə yanaşı, dilin monofunksiyalı olduğunu söyləyənlər də haqqsız sayılmaz.

Dilçilik elmində insanın əmək fəaliyyətində dilə yardımçı vasitələr kimi bir sıra qeyri-dil vasitələri çıxış edir. Bu vasitələrdən biri yazıdır və insanlar arasındakı ünsiyyətin zaman və məkan məhdudiyyətini aradan qaldıran ən çox yayılmış və inkişaf etmiş vasitədir. Yazı vasitəsilə nəinki indiki zamanda yaşayan adamla, hətta xeyli əvvəllər və yaxud sonralar yaşayacaq adamla da ünsiyyət saxlamaq mümkündür (Qurbanov, 1977, p. 207).

Dilə yardımçı vasitələrdən biri də mnemonic vasitələrdir. Onlar yadda-saxlamanı və ifadəni asanlaşdırır. Mnemonic vasitələr, məsələn, barmağa ip bağlamaq, yaylığın ucunu düyünləmək, barmağın

üstündə üstəgəl işarəsi qoymaq, plan və xəritələr, siqnallar ola bilər. Bu vasitələr az inkişaf etmiş tayfalar arasında geniş yayılmışdır. Misal olaraq tüstü, güzgü, od, tonqal göstərilə bilər.

Nitq funksiyaları heç də bütün dillərə xas xüsusiyyət deyildir. Həmin funksiyaların bəzisi dillərin yalnız bir qisminə aid olur. Bu isə həmin dildə danışan xalqın ictimai-tarixi inkişaf xüsusiyyətləri ilə bağlıdır. Dilin funksiyaları daim qüvvədədir və bütün praktik hallarda bunlardan istifadə olunur. Lakin nitqin funksiyaları isə okkazional xüsusiyyət daşıyır və söyləmin konkret məqsədindən asılıdır.

Dilin funksiyaları toplu halda təzahür edir. Nitqin funksiyaları isə dilin funksiyalarını müşayiət edərək, bir qayda olaraq, tək-tək fəaliyyət göstərir və nadir hallarda biri digəri ilə kombinasiyada çıxış edir.

Nitqin aşağıdakı funksiyaları vardır:

1. nitqin maqik (ovsun) funksiyası; 2) nitqin nominativ (marka) funksiyası; 3) nitqin diakritik funksiyası; 4) nitqin okkazional funksiyası; 5) nitqin siqnal funksiyası; 6) nitqin emotiv funksiyası; 7) nitqin ekspressiv funksiyası; 8) nitqin estetik və ya poetik funksiyası; 9) nitqin etnik və ya milli funksiyası; 10) nitqin fatik funksiyası.

Nitqin maqik (ovsun) funksiyası Amerika hinduları, Avstraliya və Okeaniyanın aborigenləri, Afrikanın qəbilələri arasında geniş yayılmışdır. Nitqin bu funksiyasından magik və ona yaxın məqsədlər üçün istifadə edirlər. Əsasən sözün böyük təsir qüvvəsinə malik olduğuna, sözün gücü ilə ətraf mühitə təsir etmək, onu dəyişmək və adamın adını bilməklə ona xətər yetirməyə inanırlar. Onlar bu vasitə ilə ruhlarla danışmaq, təbiətə təsir göstərmək məqsədi güdürlər (Avrorin, 1975, p. 38).

Azərbaycanlılar arasında geniş yayılmış dua yazdırmaq və cadu etdirmək də nitqin maqik funksiyasından başqa bir şey deyildir. Nitqə yardımçı vasitələr nitqin ekspressiv funksiyasında müxtəlif paralinqvistik vasitələr kimi özünü göstərə bilər. Bu paralinqvistik hadisələrə mənalı hərəkətlər – mimika və jestlər nümunə ola bilər.

Paralinqvistika ilə bağlı ilk məlumata Azərbaycan dilçiliyində Z.Verdiyeva, F.Ağayeva və M.Adilovun yazdıqları *Dilçilik problemləri* əsərində rast gəlinir (Verdiyeva, Ağayeva & Adilov, 1982, pp. 133–149). Bu əsər dilçilik elmi və onun öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir.

Dünya dillərinin təsnifi təcrübəsi göstərir ki, ən vacib problemlərindən biri olan dillərin təsnifi hələ də qalmaqdadır. Təsnif bütün dillərin daha dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Təsnif vasitəsilə ayrı-ayrı dillərin müəyyən əlamət və xüsusiyyətlərini nəzərə almaqla geniş ümumiləşdirmələr aparılır. Bu da bizə imkan verir ki, dilləri müəyyən qruplar əsasında öyrənək.

Alimlərimiz keçmiş zamanlardan bəri dillərin təsnif edilməsinə təşəbbüs göstərmişlər. Məşhur türkoloq Mahmud Kaşğarinin əsərlərində ilk dəfə məhz türk dillərinin təsnifi verilmişdir. O, türk dillərini sistemli şəkildə olmasa da, ərazi əlamətinə görə qərbdən şərqə təsvir etmiş və türk dillərini mənşəyinə görə qruplaşdırmağı zəruri hesab etmişdir.

Dilçilikdə dillərin təsnifi ilə bağlı müxtəlif fikirlər irəli sürülərək, dillər xüsusilə əraziyə, xarakterə, funksiyaya, tipinə, qohumluğa və s. prinsiplərə görə təsnif edilmişdir.

Dilçilikdə tipologiyanın banisi V.Humboldtun fikrincə, müxtəlif dil növləri xalqların mənəvi fərqlərini əks etdirməlidir. Buna misal olaraq XIX əsrdə ən uğurlu təsnif kimi dillərin geneoloji təsnifi yarandı (Avrorin, 1975, p. 38).

Tarixi qohumluğa görə dillərin təsnifi geneoloji bölgü adlanır. Geneoloji bölgü dedikdə dillərin genetik əlamətləri, yaxın və uzaq qohumluğu nəzərə alınır.

Dillərin qohumluq əlaqələrinə nəzər yetirsək, qohum dillər o dillərə deyilir ki, həmin dillərin ortaq cəhətləri olur. Qohum dillərin bir ilkin – qədim dilə malik olması qəbul olunur. Qohumluq əlaqələri olan dillər dilin hər bir sistemində özünü göstərir. Onun qohumluğunun sübutu daha çox dəqiq müşahidə və araşdırma tələb edir (Deşeriyev, 1968, pp. 230–232; Voloşinov, 1929, p. 21; Ağayev, 1968, pp. 124–138).

## Nəticə

Nəticə olaraq demək olar ki, dilin funksional təsnifi onun cəmiyyətdəki çoxşaxəli rolunu tam şəkildə anlamağa və izah etməyə imkan verir. Dilin kommunikativ funksiyası mərkəzi yer tutmaqla

digər funksiyaların da əsasını təşkil edir və bu baxımdan dilin bütün funksiyaları bir-biri ilə üzvi surətdə bağlıdır. İdrak, tənzimləyici, estetik, ekspressiv və ideoloji funksiyalar isə dilin insan təfəkkürü, davranışı və ictimai münasibətlərdəki əhəmiyyətini daha da dərinləşdirir. Nitqin funksiyaları isə dilin konkret realizə forması olaraq daha situativ və məqsədyönlü xarakter daşıyır. Əldə edilən elmi nəticələr göstərir ki, dil təkcə ünsiyyət aləti deyil, həm də insan cəmiyyətinin tarixi, mədəni və sosial inkişafında mühüm yer tutan canlı və dinamik bir sistemdir. Bu səbəbdən, dilin funksional aspektlərinin öyrənilməsi dilçilik elminin əsas vəzifələrindən biri olaraq qalır və gələcək tədqiqatlarda da prioritet istiqamətlərdən biri kimi aktuallığını qoruyub saxlayır.

## Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası (ASE). (1978). *II cild.*
2. Baskakov, N. A. (1940). *Nogayskiy yazyk i yego dialekty*.
3. Baskakov, N. A. (1960). *Tyurkskiye yazyki*.
4. Belyayeva, A. I. (1963). *Grammatika salarniyskogo yazyka*.
5. Dəmirçizadə, Ə. M. (1958). *Azərbaycan ədəbi dilinin inkişaf yolları*.
6. Desheriyev, Yu. D. (1977). *Sotsial'naya lingvistika*.
7. Kononov, A. N. (1976). *Ocherk istorii izucheniya turetskogo yazyka*.
8. Leont’ev, A. A. (1969). *YAzyk, rech’, rechevaya deyatel’nost’*.
9. Rəcəbov, Ə. Ə. (1993). *Dil, şüur, cəmiyyət*. Aznəşr.
10. Qurbanov, A. (1977). *Ümumi dilçilik*.
11. Voloshinov, V. N. (1929). *Marksizm i filosofiya yazyka*.
12. Yakobson, R. (1960). Linguistics and poetics. In T. A. Sebeok (Ed.), *Style in language*, 353–357.
13. Zeynalov, F. (1981). *Türkologiyanın əsasları*.

Daxil oldu: 26.05.2025
Qəbul edildi: 13.08.2025

DOI: https://doi.org/10.36719/2663-4619/121/67-70

**Nigar Sadıqova**
Bakı Slavyan Universiteti
https://orcid.org/0000-0002-7079-6871
nigarsadiqova1@gmail.com
**Gülbəniz Mehdiyeva**
Bakı Slavyan Universiteti
https://orcid.org/0000-0002-2561-1591
gulbeniz57@mail.ru

# XI əsrdə xalq dili – Azərbaycan dili

**Xülasə**

Tədqiqatın məqsədi XI əsrdə Azərbaycan dili və bu dildə yazan şairlərin, tarixçilərin çevrəsini müəyyən etməkdən ibarətdir. Bu məsələdə Yaqut Həməvi, Seyid Əhməd Kəsrəvi, Həsənoğlu və digər filosof-şairlərin dəyərli fikirləri nəzərdən keçirilmiş, Azərbaycan dilinin həm xalq arasında, həm də ərəb əlifbasında yazılarda artan rolu qeyd edilmişdir. Elmi məqalədə müəllif türk xalqlarının ölməz eposu olan *Kitabi-Dədə Qorqud* əsərinə müraciət etmiş, Azərbaycan dilinin XI əsrdə mövcudluğunu yalnız xalq dili meydançası kimi deyil, habelə bədii forma kimi də təsdiqləmişdir. XI əsrin yazılı türk abidələrində işlənən, türk ruhunu özündə cəm edən zərb-məsəllər, atalar sözləri, frazeologizmlər dəlil kimi gətirilmişdir. Bir xalqın təfəkkür tərzinin formalaşmasında belə zəngin poetik ifadələrin minilliklərlə yol keçdiyi, türk dilinin oturuşmuş bir dil olması sübut edilmişdir. Məqalədə adı çəkilən tarixi dövrə aid ərəb əlifbası ilə Azərbaycan türkcəsində yazılmış şair və ədiblərimizin poeziyasından nümunələr təqdim edilmişdir.

***Açar sözlər:*** *Azərbaycan dili, türk dili, Azərbaycan şairləri, Kitabi-Dədə Qorqud, orta əsrlər*

**Nigar Sadigova**
Baku Slavic University
https://orcid.org/0000-0002-7079-6871
nigarsadiqova1@gmail.com
**Gulbeniz Mehdiyeva**
Baku Slavic University
https://orcid.org/0000-0002-2561-1591
gulbeniz57@mail.ru

# The Vernacular Language in the 11th Century – Azerbaijani Language

**Abstract**

Purpose of the study is to determine the circle of authors, historians and poets who wrote about the Azerbaijani language in the 11th century. This article examines the valuable thoughts of such philosophers and poets as Yagut Hamawi, S. Kesrewi, Gatran Tabrizi, Hasanoglu, etc., emphasizing the increasing role of the Azerbaijani language, both among the people and in the form of Arabic writing. In the scientific article, the author refers to the immortal epic of the Turkic peoples, Kitabi-Dada Gorgud, dating back to the 11th century and presents for the review to the reader the fact of existence of the Azerbaijani language not only as a universal platform for communication, but also as an art form.The article provides poetic examples from the poetry of Azerbaijani poets and thinkers of that historical era, who thought and created their works in the Arabic alphabet in the Azerbaijani dialect of the Turkic language.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Keywords:** *Azerbaijani language, turkish language, Azerbaijani poets, "Kitabi-Dada Gorgut", middle centuries*

## Giriş

X–XIII əsr ərəb coğrafiyaşünasları Azərbaycan əhalisinin ərəb, fars (dəri) dillərindən tamam ayrı, xüsusi bir dildə danışdığını, bu dilin "azəriyyə", yaxud "azəri" adlandığını qeyd edirlər. X əsrin birinci yarısında İran və Azərbaycanın bir çox şəhərlərində olmuş Məsudi yerlərdə rəsmi dil və əlifba müştərəkliyini göstərməklə bərabər, ayrı-ayrı yerlərdə müxtəlif dillərin: "pəhləvi", "dəri", "azəri" və başqalarının işləndiyini yazır. Məşhur səyyah və alim, coğrafiyaşünas Əbu Abdullah Bəşşari əl-Müqəddəsi *Əhsənül-təqasim* əsərində azərbaycanlıların danışdığı dili "əcəmi" (fars) dilindən ayıraraq belə yazır: "Dilləri ağırdır, çətindir" (Əl-Müqəddəsi, 985, p. 30). İbn Hövqələ gəlincə, Azərbaycanda rəsmi dilin, əlbəttə ki, fars, ərəb dili olduğunu təkrar edib yazır: "Amma ərəbcə çox az adam danışır. Təkcə tacirlər və torpaq sahibləri bu dildə yaxşı danışa bilirlər. Sadə camaatın orada-burada öz dilləri var. Məsələn: ərəb camaatı ərəbcə, Bərdə camaatı arranca (Araz çay adı da buradan götürülüb) danışır" (İbn Hövqəl, 977, p. 250). Daha sonralar yaşamış ərəb müəlliflərindən Yaqut Həməvi (1179–1229) də azəri dili barədə Müqəddəsi ilə həmfikir olaraq, bir çox ərəb səyyah-coğrafiyaşünasları kimi Arrandan danışanda xalqın dilini "azəriyyə" adlandırmışdır: "Azərbaycanlıların öz dilləri var və "azəriyyə" adlanan bu dili onların özlərindən başqa heç kəs başa düşmür" (Həməvi, 1220, p. 160). Ərəb müəlliflərinin "azəri" adlandırdıqları dil, şübhəsiz, Azərbaycan türkcəsidir.

Professor Malik Mahmudov "Təbrizdən... Piyada Şama" məqaləsində Xətib Təbrizi ilə müəllimi arasındakı dialoqu fikrimizə dəlil gətirir: Məsciddə müəllimi Məəri ilə məşğul olan Xətib Təbrizi həmyerlisi gəldiyinə görə dərsi saxlayıb ondan doğma yurdu Təbrizdəki qohum-əqrabasından hal-əhval tutur. Yerinə keçərkən Məərri ondan hansı dildə danışdığını soruşur: "Bu nə fars, nə də ərəb dilidir". Xətib Təbrizi isə: "Bu bizim doğma dilimizdir, Təbrizdə xalqımız bu dildə danışır", – deyə cavab verir (Mahmudov, 1982, p. 98). Sözsüz ki, XI əsrdə xatırlanan doğma dil xalqın dili – Azərbaycan dili idi.

Rus şərqşünası Y.E.Bertels haqlı olaraq XI əsr şairi Qətran Təbrizinin fars dilini deyil, doğma dilini yaxşı bildiyini yazır: "Современно очевидно, что персидский язык для Катрана, уроженца Тебриза, не был родным языком, и по этому объяснятся с Насири Хосровом, говоривший на хорасанском диалекте (Farsca), ему было не так легко. Катран еще изучал тот литературный язык, на котором сам писал..." (Bertels, 1962, p. 30).

Fars tarixçisi S.Ə.Kəsrəvi azəri dili haqqındakı yanlış mülahizələrini əsaslandırmağa çalışaraq, XIV–XV əsr mənbələrindən müəyyən nümunələr verir (Kəsrəvi, 1335, p. 45). Fars tarixçisi Kəsrəvinin gətirdiyi nümunələr onun anladığı mənada "azəri" dilinə aid olsaydı, ərəb alimləri gərək bu dili başa düşmüş olaydılar. Fars tarixçisinin türk dilini bu dərəcədə aşağılamaq istəyini izah etmək çətindir. Orta əsr saray ənənəsinə görə azəri şairləri daim farsca yazırdılar və fars müntəxəbatına əvəzsiz töhfələr azərbaycanlıların gətirdiyi ədəbi dairələrə məlumdur. Azəri türkcəsini – yeri, kökü olan, böyük bir ərazidə yaşayan milyonluq xalqın dilini, təfəkkürünü, həyat tərzini, adət-ənənəsini, bədii bacarığını şübhə altına almaqda məqsəd türk mənşəli xalqın ədəbi irsinə laqeydlik nümayiş etdirmək idi. Kəsrəvinin "azəri" dilinə aid etdiyi poetik nümunələr həm də XIV–XV əsr mənbələrinə əsaslanır. Halbuki rübailərin istinad edildiyi Şeyx Səfi (Səfiyəddin Ərdəbili) özü XIV əsrdə doğma Azərbaycan dilində şeir yazırdı:

Ey rövnəqi-baharü çəmən, gülümsən, nəsən?!
Ey ixtiyarı əldən alan, mülmüsən, nəsən?!
(Cəfər, 1966, p. 44).

Fikirləri hakim dairə tərəfindən müdafiə olunan Kəsrəvi və onun tərəfdarlarının niyyət və məqsədləri aydın idi: "Azərbaycan həmişə İranın bir hissəsi olmuşdur. Azərbaycanın qədim əhalisi İran, ya Ariyan irqindən başqa bir şey olmayıbdır." O zamanlar (ərəb coğrafiyaşünasları dövründə) Azərbaycanda danışılan dil, ya ləhcə, fars dilinin şaxələrindən biri olub "azəri" adlanırdı (Kəsrəvi, 1335, pp. 7–10). Azərbaycan xalqı və Azərbaycan dilinin mənşəyi məsələsinin bu şəkildə – aşağılanmış, puç edilmiş təqdimatı paniranist görüşlərin tarixçiyə təsiri ilə bağlı idi. Müəllif göründüyü kimi, elmi faktlardan uzaqlaşır: konkret tarixi faktlardan boyun qaçıraraq *Kitabi-Dədə Qorqud* dastanından bəri

min ildən artıq bir dövrdə Azərbaycan dilində yaranıb inkişaf edən ədəbiyyatın zəngin irsini görmək istəmir, inkar edir.

Azərbaycanlı tərz-təfəkkürü ilə bağlı idiomatik ifadələr, frazeoloji vahidlər dilimizin nəinki X–XII əsrlərdə, bəlkə çox-çox qabaqlarda Azərbaycan ərazisində yaşayan türk mənşəli xalq kütləiəri içərisində başlıca ünsiyyət-əlaqə vasitəsi olduğunu söyləməyə bizə haqq verir. Bu dildə islamiyyətdən – ərəb istilasından qabaqkı dövrün (VII əsrə qədər) nişanələrini: atəşpərəstlik etiqadları, mərasim və ayinləri özündə əks etdirən xalq şeirlərinin mövcudluğu buna əyani sübut deyilmi? “Ərəb öldü, qan düşdü”, “nə ərəbin üzü, nə dəvənin südü”, “pak hesab Bağdaddan qayıdar” (uzaq və çətin yol olduğuna işarədir) kimi atalar sözlərinin məhz ərəb istilası dövrünün – VII–IX əsrlərin məhsulu olduğuna şübhə yoxdur.

X–XI əsrlərdə artıq *Dədə Qorqud* dastanlarının mövcud olması deyilənləri əyani şəkildə təsdiq edir. *Dədə Qorqud* boyları XI əsrdə deyil, daha öncələrdən Azərbaycana gəlib, yerli türklərlə qovuşub-qarışmış türk tayfaları içərisində yaranmış, zaman keçdikcə xalq yaradıcılığının dahiyanə, analoqu olmayan əsəri kimi formalaşmış və dövrünə sinə gələ bilmişdir.

*Dədə Qorqud* dastanları türk incisi kimi Azərbaycan dilinin hələ X–XI əsrlərdə Şərqin ən zəngin və qüdrətli dillərindən biri olduğunu göstərir: “Ölən adam dirilməz”, “Çıxan can geri gəlməz...”, “Ulaşıban sular daşsa, dəniz dolmaz”, “Könlün uca tutan ərdə dövlət olmaz”, “Kül təpəcik olmaz (göyü oğul olmaz)”, “Yapa-yapa qarlar yağsa, yaza qalmaz”, “Əski pambıq bez olmaz”, “Qarı düşmən dost olmaz”, “Qara polad üz qılıncı çalmayınca qırım dönməz”, “Qız anadan görməyincə öyüd almaz”, “Oğul atanın yetiridir, iki gözünün biridi”, “Oğul dəxi neyləsin, baba ölüb, mal qalmasa?”, “Baba malından nə fayda, başda dövlət olmasa?..”, “Dünkə karvan köçdüyün torpağay bilir”, “Ağır yüklər zəhmətini qatır bilir”, “Qafil başın ağrısın beyin bilir”, “Ər comərdin, ər namərdin ozan bilir!...” (*Kitabi-Dədə Qorqud*, 1962, p. 12).

*Dədə Qorqud* dastanlarının yarandığı dövrdə Azərbaycan dilinin nəinki ümumxalq forması, hətta bədii şəkli (bədii dil) mövcud olmuşdur. Boylardakı poetik nümunələrin hər biri buna parlaq misaldır:

“– Nə deyərsən, nə söylərsən,
Göz açıban gördüyüm,
Könül verib sevdiyim,
Qoç yiğidim, şah yiğidim!”
(*Kitabi-Dədə Qorqud*, 1962, pp. 12–13)

Min illik bir dövrün üzərindən keçərək zamanımıza qədər gəlib çıxan, nəsillər yola salan, nəsillər qarşılayan bu şeir daha necə olmalı idi?! Aydındır ki, Azərbaycan dili hələ X–XI əsrlərdə dərin fəlsəfi mətləbləri, həyat hikmətini, insan və təbiət haqqında qənaətləri, mürəkkəb psixoloji halları ifadə etməyə güclü imkanları olan müqtədir bir dil olmuşdur. Belə bir zəngin ünsiyyət vasitəsinin mövcudiyyəti üçün onun möhkəm bünövrəsi olmalı idi. Dil yağışdan sonra birdən-birə üzə çıxan göbələyə bənzəmir.

Hər hansı bir dil kimi, Azərbaycan dili də mənsub olduğu xalqla birgə yaranmış, onun məişət və mədəniyyət tarixi ilə bağlı olmuş, ərəb, fars təsirlərinə qarşı mübarizədə inkişaf edərək bu gün türk dilləri içərisində ən zəngin və qüdrətli dil səviyyəsinə gəlib çatmışdır.

Akademik M.A.Dadaşzadə XI əsr Azərbaycan şairi Həsənoğlunun bizə gəlib çatan “Apardı könlümü bir xoş qəmər üz, canfəza dilbər” mətləli məşhur qəzəlini sübut kimi gətirərək yazır: “Həsənoğlu belə bir gözəl və yetkin dili havadan almamışdır. Belə kamil və oynaq bir dil on ildə yarana bilməzdi. Bu dilin münbit zəmini və dərin kökü vardır” (Dadaşzadə, 1977, p. 34).

*Divani-lüğəti-türk* əsərindən bir neçə atalar sözü və məsəllər:

1. “Qarğa qazı yamsılasa, ayağı sınar”.
2. “Qırıq qaşıq ağıza, quru söz isə qulağa girməz”.
3. “Uzaq yerin sözün karvan gətirər”.
4. “Yağı aşağı tutulsa, başa çıxar”.
5. “Deşik suda bilinər”.
6. “İgid cərgədə, alim məclisdə”.
7. “Qonağı əzizlə, adını hamıya yaysın” (Kaşğari, 1335, p. 201).

Azəri türkcəsi qədim zamanlardan xalq arasında işlənmişdir. Əsrlərdən bəri yonulub gələn atalar sözlərində, idiomatik ifadələrdə əksini tapan xalqın təfəkkür tərzi, həyata baxışı, adət-ənənəsi buna sübutdur. Zamanın süzgəcindən keçən, göz bəbəyi kimi qorunan doğma dilimiz – Azərbaycan dili xalq yaradıcılığı üçün – bayatılar, atalar sözləri, mahnılar və nağıllar üçün zəngin bədii vasitə kimi tədricən yazılı ədəbiyyatımıza keçməyə hazırlanmışdır.

## Ədəbiyyat


